**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Azərbaycan Respublikasının Təhsil İnstitutu**

# AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜÇÜN " XARİCİ DİL " FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUM)

**(I-XI SİNİFLƏR)**

**Bakı –2025**

## MÜNDƏRİCAT

Xarici dil fənninin məqsəd və vəzifələri..........................................................................3

Xarici dil fənninin tədrisinə verilən tələblər.........................................................................4

Xarici dil fənninin məzmunu və ümumi təhsilin səviyyələri üzrə təlim nəticələri.................. 6

Məzmun standartları.........................................................................................................10

Xarici dil tədrisinin xarakterinə uyğun təlim strategiyaları ................................................. 74

Fənlərarası və fəndaxili inteqrasiya... ........................................................................... 79

Xarici dil tədrisində şagird nailiyyətlərinin qiymətləndirilməsi vasitələri və meyarları........ 80

Xarici dil fənninə dair təlim materiallarının planlaşdırılması üzrə metodiki tövsiyələr .........85

## Xarici dil fənninin məqsəd və vəzifələri

Azərbaycan dünya ölkələri ilə ictimai həyatın bütün sahələrində səmərəli əməkdaşlıq edən bir ölkədir. Buna görə də başqa fəaliyyətlərlə yanaşı, bir və ya daha çox xarici dildə ünsiyyət qurmağı, əlaqə saxlamağı bacaran vətəndaşların formalaşdırılması müasir məktəbin mühüm vəzifələrindən biridir. Hazırkı dövrdə qloballaşma prosesinin və inteqrasiya meyllərinin getdikcə sürətləndiyi ictimai-siyasi, sosial-mədəni sahələrdə baş verən mühüm keyfiyyət dəyişiklikləri yeni informasiya texnologiyalarından istifadə etməklə şagirdlərin kommunikativ bacarıqlarının yüksək səviyyədə inkişafını tələb edir. Bu səbəbdən də tədris fənni kimi xarici dilin statusu daha da artır və o, ümumi təhsil pilləsi üçün müəyyən edilmiş fənlər arasında özünəməxsus yer tutur.

Şagirdlər bu fənnin vasitəsilə xarici dilin səs sisteminə, tələffüz qaydalarına, lüğət ehtiyatına, qrammatik xüsusiyyətlərinə və dilin üslubuna yaxından bələd olur, müxtəlif üslublarda təqdim edilmiş nümunələr ilə tanış olmaq imkanı qazanırlar. Xarici dilin mənimsənilməsi şagirdlərin dünyagörüşü və maraq dairəsini genişləndirir, müxtəlif xalqların ədəbiyyatı və mədəniyyətinin öyrənilməsinə yol açır, beynəlxalq arenada ünsiyyət qurmaq imkanı yaradır.

Ümumi təhsil pilləsini başa vuran şagirdlər təhsilini davam etdirmək, müxtəlif sahələrdə işləmək və uğur qazanmaq üçün müasir dövrün tələblərinə uyğun xarici dildən istifadə edərək ünsiyyət qurmağı bacarmalıdırlar. Bu baxımdan, xarici dilin bir fənn kimi əhəmiyyəti danılmazdır. Bu dil şagirdlərimizə öz ölkəsinin milli dəyərlərini dünyaya tanıtmağa və təbliğ etməyə geniş imkan yaradır.

Bütün bunları nəzərə alaraq, ümumtəhsil məktəblərində xarici dil təliminin əsas məqsədi nitq, dil və kommunikativ bacarıqların mənimsədilməsi üzərində iş aparmaqla şagirdlərdə nitq mədəniyyətinin formalaşdırılması kimi müəyyənləşdirilir.

Ümumtəhsil məktəblərində xarici dil fənninin əsas vəzifələri aşağıdakılardır:

- şagirdlərin vacib linqvistik (fonetik, orfoqrafik, leksik və s.) biliklərə yiyələnməsi;
- nitq fəaliyyəti üzrə kommunikativ bacarıqların inkişaf etdirilməsi;
- şagirdlərin dili öyrənilən ölkələrin mədəniyyət və ənənələri ilə tanış edilməsi;
- digər mədəniyyətlərə hörmət hissinin tərbiyə olunması;
- şagirdlərdə xarici dil və mədəniyyətlərarası mühitdə öz ölkəsini və onun mədəniyyətini təmsil etmək bacarıqlarının formalaşdırılması.

## Xarici dil fənninin tədrisinə verilən tələblər

**Xarici dil təliminin təşkilinə verilən əsas tələblər aşağıdakılardır:**

- müsbət psixoloji dil mühitinin yaradılması;
- bərabərhüquqlu təlim və qarşılıqlı təsir nəticəsində dil mühitinin yaradılması;
- inkişafyönümlü və dəstəkləyici mühitin yaradılması;
- bacarıqyönümlü və nəticəyönümlü təlim atmosferinin yaradılması və şəxsi dəyərlərin formalaşdırılması;
- təlim prosesinin şagirdlərin meyl və maraqları üzərində qurulması;
- problemlər üzərində təlimlə dilin öyrənilməsi;
- dilin öyrənilməsində İKT-dən istifadə olunması;
- intensiv kommunikasiya prosesinin təşkil olunması;
- kommunikativ vərdişlərin əldə olunması üçün məzmun xətləri və standartlar əsasında təlimin real həyatla bağlılığının təmin olunması;
- xarici dil üzrə dil qaydalarının (qrammatika, lüğət, düzgün tələffüz və s.) məzmun xətləri (dinləmə, danışma, oxu, yazı) daxilində öyrədilməsi;
- audio-video vasitələrdə səslənən tələffüzün, müəllimin tələffüzünün aydın və danışıq sürətinin tələblərə uyğun olması;
- müxtəlif vizual əyaniliyin təmin olunması;
- autentik materiallardan təlimin tətbiqində istifadə olunması;
- leksik vahidlərin nitqdə sərbəst və müntəzəm işlədilməsinə nail olmaq üçün şagirdlərə eyni bir situasiyaya aid müxtəlif materialların təqdim olunması;
- kontekst daxilində şagirdlərə fikrini sərbəst ifadə etmək üçün imkanın yaradılması;
- kommunikativ və interaktiv metodlarla xarici dillərin öyrənilməsi, şagirdlərin reseptiv, produktiv, interaktiv və mediasiya bacarıqlarının inkişaf etdirilməsi;
- idraki, metakoqnitiv, koqnitiv və sosial-affektiv strategiyaların tətbiqi;
- təlimdə qruplar, cütlər və fərdi işlərin təşkili;
- dərslərin planlaşdırılması zamanı müəyyən tarixi gün, bayram və hadisələrin tarixlərinin nəzərə alınması;
- dili öyrənilən ölkələrin ədəbiyyat, mədəniyyət, ənənə və reallıqlarının nəzərə alınması;
- vaxtın düzgün bölüşdürülməsi və ondan səmərəli istifadə olunması;
- şagird nailiyyətlərinin qiymətləndirilməsinin aparılması.

**Məzmun xətləri üzrə xarici dilin təliminə verilən tələblər:**

**Dinləmə:**

- audio və video materiallardan istifadə edilməsi;
- audio və video materialların səviyyəsinin şagirdlərin yaş və dil səviyyəsinə uyğun olması;
- materialın tərkibində olan naməlum elementlərin şagirdlərin çevik başa düşə bilməsi üçün onların qısaldılması və ya sadələşdirilməsi;
- audio və video materiallarda nitqin aydın və sürətinin dil səviyyəsinə uyğun olması;
- dinləmə materialının, əsasən, dil daşıyıcısının səsi ilə lentə alınması;

- müxtəlif nitq vahidlərinin - nitq etiketləri və ifadələrinin əsasında dialoq və monoloqların mənimsənilməsi;
- müxtəlif tipli mətnlərdən (bədii və informativ) istifadə edilməsi;
- daha çox autentik materiallara yer verilməsi.

**Danışma:**

- şagirdlərdə dil qaydalarının (qrammatika, lüğət, düzgün tələffüz və s.) və axıcı nitqin formalaşması;
- yaradıcı nitq fəaliyyətinin formalaşdırılması və inkişafı üçün istifadə edilən mövzuların aktual və şagirdlərin maraqlarına uyğun olması;
- şagirdlərdə yaş səviyyələrinə uyğun ümumiləşdirmə, müqayisə, təhlil, əlaqələndirmə bacarıqlarının formalaşdırılması;
- şifahi nitqin inkişaf etdirilməsi üçün kommunikativ tapşırıqların nəzərdə tutulması;
- şagirdlərdə təqdimat etmə bacarıqlarının inkişaf etdirilməsi.

**Oxu:**

- şagirdlərin oxu texnikasına düzgün yiyələnməsi üçün səsli və ya səssiz oxudan istifadə edilməsi;
- oxu materiallarının sinifdən-sinfə keçdikcə genişləndirilməsi;
- şagirdlərin müstəqil oxu qabiliyyətlərinə yiyələnə bilmələri üçün müxtəlif növ oxu materiallarından istifadə edilməsi;
- autentik materialların istifadəsinə geniş yer verilməsi;
- oxu üçün seçilən materialların şagirdlərin marağını təmin etməsi;
- oxu materiallarının müasir dövrlə səsləşməsi.

**Yazı:**

- yazının nitq fəaliyyətinin digər növləri (dinləmə, danışma, oxu) ilə əlaqələndirilməsi;
- yazı zamanı kəmiyyət və keyfiyyət münasibətlərinin - fikirlərin ətraflı, səlis və səhvsiz yazılmasının nəzərə alınması;
- yazının hesabat, təsvir və s. xarakterli növlərinin nəzərə alınması;
- tədqiqat mövzularının şagirdlərin maraq və yaş səviyyələrinə uyğun seçilməsi;
- hər hansı mövzu ilə bağlı yazılı təqdimat etmə bacarıqlarının inkişaf etdirilməsi.

## Xarici dil fənninin məzmunu və ümumi təhsilin səviyyələri üzrə təlim nəticələri

**İbtidai təhsil səviyyəsində:**

1. kiçikhəcmli sadə mətnləri oxuyub anladığını nümayiş etdirir;
2. dinlədiyini və müşahidə etdiklərini izah edir;
3. öyrəndiklərini şifahi və yazılı ifadə edir;
4. lüğət ehtiyatından və müvafiq nitq etiketlərindən istifadə edərək ünsiyyət qurur.

**Ümumi orta təhsil səviyyəsində:**

1. müxtəlif mətnləri oxuyub anladığını nümayiş etdirir;
2. dinlədiyinə və müşahidə etdiklərinə münasibət bildirir;
3. fikirlərini şifahi və yazılı ifadə edir;
4. öyrəndiyi dildə ünsiyyətqurma bacarıqları nümayiş etdirir.

**Tam orta təhsil səviyyəsində:**

1. müxtəlif üslublu mətnləri oxuyub anlayır, mətnə münasibət bildirir;
2. dinlədiyi və müşahidə etdikləri barədə fikirlərini spontan (hazırlıqsız) ifadə edir;
3. mətnqurma bacarıqları nümayiş etdirir;
4. öyrəndiyi dildə sərbəst ünsiyyət qurur.

Bacarıqyönümlü standartlar əsasında hazırlanmış kurikulum xarici dili tədris edən müəllimlərin, dərslik və dərs vəsaiti müəlliflərinin, qiymətləndirmə mütəxəssislərinin fəaliyyətini istiqamətləndirməyə xidmət edir. Standartlar fəaliyyətləri əks etdirən bacarıqlar ilə ifadə olunmuş, şagirdlərin bilik və bacarıqları ilə bağlı nailiyyətlərinin müəyyən edilməsinə yönəlmişdir. Bu kurikulum Dillər üzrə Ümumi Avropa İstinad Çərçivəsinin (CEFR; Avropa Şurası, 2001) 2020-ci il Əlavə Cildinə (Avropa Şurası, 2020) əsaslanır.

CEFR beynəlxalq miqyasda bütün Avropa dillərinə, hətta avropalıların öyrəndiyi bütün dillərə tətbiq oluna bilər. Bu sənəd, şagirdlərin müxtəlif bacarıq səviyyələrində nə edə biləcəyini təsvir edir və dilin altı əsas səviyyəsini əhatə edir: A1, A2, B1, B2, C1 və C2. Bununla belə, “plus” səviyyələri (A1+, A2+ və s.), həmçinin “Pre-A1” səviyyəsi də var. Bu kurikulum 1-ci sinifdə Pre-A1 səviyyəsi ilə başlayır və 11-ci sinfin sonunda B1 səviyyəsi ilə bitir.

Bu kurikulumun əsas məqsədi şagirdlərin hədəf dildə ünsiyyət qurma bacarıqlarının inkişaf etdirilməsidir. Standartlar hər bir sinif üçün təlim məqsədlərini təyin edir və altstandartlar daha konkret məqsədlərə xidmət edir.

Dildən istifadə “dörd bacarıq” adlanan dinləmə, danışma, oxu, yazı və dil qaydalarının (qrammatika, lüğət, tələffüz və s.) inteqrasiyasını tələb edir. Tədris proqramının ayrı-ayrılıqda bu komponentlər əsasında əhatə edilməsi pedaqoji baxımdan da faydalıdır. Dərsdəki fəaliyyətlər də, təbii ki, bacarıqların inteqrasiyasını əhatə edəcəkdir.

Şagirdlər aşağıdakı səriştələri yaş və mənimsəmə səviyyələrinə uyğun olaraq inkişaf etdirəcəklər. Bu səriştələr şagirdlərin öyrəndikləri dilin müvafiq istifadə formalarını təsvir edir. Canlı ünsiyyət kimi, onlar da dörd bacarığı və biliklərin (qrammatika, lüğət tərkibi, tələffüz) inteqrasiyasını əks etdirir. Dinləmə, danışma, oxu, yazı, dil qaydaları (lüğət - dil səviyyəsi, mövzu və söz sayı əsasında) üçün konkret məzmun standartları aşağıda izah edilmişdir.

**Dinləmə**

Bütöv nitqi anlama ilə nitqdəki söz və ya ifadələri anlamaq arasında fərq vardır. Məsələn, 7-ci sinif 7-1.1.1. altstandartında (Dinləmə) nitqin qısa, aydın və çox asta sürətli olması şərti ilə şagirdlər natiqin nitqindəki əsas fikri müəyyən etməlidirlər. Bundan öncə, 6-cı sinifdə onlar gündəlik tanış mövzularda aydın və asta sürətli nitqin fraqmentlərindəki konkret məlumatları ardıcıl yadda saxlamaq və bunu tətbiq etmək bacarığına yiyələnirlər.

Nəticəçıxarma danışanın açıq söyləmədən ifadə etdiyi fikrin təxmin edilərək, məlumatın dinləyici tərəfindən şərhidir. Nəticəçıxarma oxu zamanı "sətiraltı mənaları", dinləmə prosesində isə "sətiriçi mənaları" anlamaq kimi ifadə edilir. Proqnozlaşdırma da təxmin etmədir, lakin bu zaman şagirdlər daha sonra nədən bəhs ediləcəyi haqda fikirlər irəli sürürlər.

Sinifdən və dildən istifadə səviyyəsindən asılı olaraq anlama prosesi üçün fasilələrin müəyyən dinamikası vardır. 5-ci sinifdə uzun fasilə olmalıdır. Bu, 6-cı sinifdə daha qısa fasilələrə qədər inkişaf edir, 7-ci sinifdə "bir neçə fasilə", 8-ci sinifdə "nadir" pauzalara qədər inkişaf edir. 6-cı sinfə nisbətən, 7 və 8-ci siniflərdə fasilələrin daha qısa və tədricən daha nadir olması nəzərdə tutulur.

**Danışma**

Təqdimatların müzakirəsi zamanı şagirdlərin çox qısa çıxışları (8-ci sinif) 1-2 dəqiqə müddətini əhatə edəcəkdir. Onların qısa çıxışları (9-cu sinif) 3-4 dəqiqə çəkə bilər. İlkin təqdimatlar sadə giriş (adətən, bir və ya iki cümlə), sadə nəticə (adətən, bir cümlə) və digər qalan hissə sadə təsvir, təhkiyə, səbəblərin göstərilməsindən ibarət olur. Hər bir əsas hissə birdən üçə qədər əsaslandırıcı və ya dəqiqləşdirici detalları ehtiva edə bilər.

Öncədən istiqamətləndirmə bir çox formalarda aparıla bilər. Məsələn, təqdimatın məzmununa və mövzusuna rəyin verilməsi, müəllimin rəhbərliyi altında məşq edilməsi və ya sinif yoldaşları tərəfindən rəyin verilməsi, həmçinin şagirdlərə təqdimatın metod və strategiyalarının öyrədilməsi.

Vurğunu izah edərkən, əsas (böyük) vurğu üçün böyük çap hərflərindən ("ALL-CAPS"), ikinci dərəcəli vurğu üçün kiçik çap hərflərindən ("small caps") istifadə olunur.

**Oxu**

Ümumillikdə oxu standartları autentik – real həyatı əks etdirən mətnlərə aiddir. Standartlar bu mətnlərin oxunmasının səmərəliliyini təsvir edir (məsələn, 6 və 7-ci siniflərdə "çox qısa sadə informativ mətnlər" və 2-5-ci siniflərdə "çox qısa sadə informativ mətnlər vizual müşaiyətlə"). Təbii ki, şagirdlərin nailiyyətləri hazır və ya uyğunlaşdırılmış mətnlərin istifadəsi zamanı daha yüksək səviyyədə olacaqdır: mətn nə qədər sadələşdirilmiş olarsa, şagirdlərdən daha yüksək nəticə gözləmək olar.

"Qısa" və ya "çox qısa" anlayışları şərtidir və təlim məqsədlərinin yazılması zamanı onlar qeyri-müəyyən qalır. Müəyyən bir sinif və ya dil səviyyəsində mətnin həcminə qoyulan tələb, onun oxunmasına sərf olunan vaxtdan asılıdır. Həcmə verilən ixtiyari bir tələb (məsələn, söz sayı) sərbəstdir və buna görə də onlara meyarlar verilmir.

Tam orta təhsil səviyyəsinin sonunda şagirdlərin dil bacarıqlarının B1 səviyyəsində olması üçün mənimsəməli olduqları nəticəçıxarma strategiyaları vardır. Şagirdlər tanış olmadıqları sözlərin mənasını müəyyənləşdirmək üçün "aşağıdan yuxarıya" strategiyasından istifadə edərək müəyyən ardıcıllığa riayət edirlər. Bu proses şəkil və işarələrin istifadəsi ilə başlayır və ibtidai pillənin sonunda şagirdlər bunu mənimsəyirlər. Şagirdlərin tanış olmadıqları

sözlərin mənasını müəyən etmək üçün morfoloji ehtimallardan istifadə etdikləri "aşağıdan yuxarıya" söz təxminetmə strategiyasının tədris edildiyi növbəti sinif 10-cu sinifdir.

**Yazı**

6-9-cu siniflərdə şagirdlərin dil bacarıqları A1-səviyyəsindən A2-səviyyəsinə yüksəlir. İnkişafın hər bir səviyyəsini 4 seqmentə bölsək (məsələn, sinif səviyyələrinə), hər biri digərindən daha çox inkişaf nümayiş etdirir. Bu, əsasən, qeyd, elektron məktub və mesajlarda öz əksini tapır. Hər bir sinif üçün bu mətn tiplərinə verilən həcm və mürəkkəblik tələbi fərqlənir.

Adıçəkilən mətn tiplərinə aid tapşırıqlar çox sadədir və 4-cü sinifdən sonra şagirdlərin üzləşəcəkləri yeganə çətinlik tanış olmayan sözlər ola bilər. Belə ki, yazı tapşırıqlarını oxu, dinləmə və şifahi nitq fəaliyyətində istifadə etmək olar (məsələn, mətnin məzmunu və ya müsahibin çatdırdığı informasiyanın əsasında iş vərəqinin doldurulması).

**Dil qaydaları**

Bir neçə müxtəlif dilin öyrənilməsi üçün yazılmış standartlar dil qaydalarını ehtiva edə bilməz, çünki hədəf dillərə görə fərqli olacaqdır. Bu baxımdan, müəyyən dil üzrə hazırlanan kurikulum öyrənilən dilin struktur inkişafının normal ardıcıllığını, həmçinin bu dildə oxu, yazı, dinləmə, danışma standartlarına cavab vermək üçün vacib olan quruluşu nəzərə almalıdır.
Hər səviyyə üçün mövzuları əhatə edəcək xüsusi sözlərin müəyyən edilməsi çox önəmlidir. Dinləmə, danışma, oxu və yazı standartlarına cavab verən uyğun mövzuları, eləcə də hədəf dilin autentik və tez-tez istifadə olunan söz ehtiyatı mütləq nəzərə alınmalıdır.

| Sinif | Hədəflənən CEFR səviyyəsi | Cəmi yeni sözlərin sayı | Öyrənilən ümumi sözlərin sayı |
|---|---|---:|---:|
| Sinif 1 | pre-A1 | 65 | 65 |
| Sinif 2 | pre-A1 | 75 | 140 |
| Sinif 3 | pre-A1 / A1 | 90 | 230 |
| Sinif 4 | A1 | 110 | 340 |
| Sinif 5 | A1 | 250 | 590 |
| Sinif 6 | A1 / A2 | 400 | 990 |
| Sinif 7 | A2 | 450 | 1,440 |
| Sinif 8 | A2 | 450 | 1,990 |
| Sinif 9 | A2 / A2+ | 500 | 2,490 |
| Sinif 10 | A2+ / B1 | 550 | 3,040 |
| Sinif 11 | B1 | 560 | 3,600 |

**QEYD 1:** *Ümumi təhsil pilləsində xarici dil fənni üzrə müəyyənləşdirilmiş məzmun xətləri vasitəsilə təhsilalanlarda təfəkkürlə (yaradıcılıq (kreativlik), tənqidi təfəkkür, qərar qəbul etmə, müstəqil öyrənmə), fəaliyyətlə (ünsiyyət, əməkdaşlıq, rəqəmsal və informasiya savadlılığı) və dəyərlərlə (fəal vətəndaş mövqeyi, şəxsi və sosial məsuliyyət) bağlı səriştələr formalaşdırılır.*

**QEYD 2:** *Xarici dil fənninin tədris olunduğu siniflər üzrə ümumi təlim nəticələrinə uyğun nəzərdə tutulan standartlar məzmun xətləri üzrə verilmişdir. Fənn üçün nəzərdə tutulan məzmun iki sütunda təqdim edilir. Birinci sütunda altstandartlar, ikinci sütunda altstandartların izahı və tövsiyə edilən fəaliyyətlər verilmişdir.*

**QEYD 3:** *Kodlaşmada birinci ədəd sinfi, ikinci ədəd məzmun xəttini, üçüncü ədəd əsas standartı, dördüncü ədəd altstandartı təyin edir.*

**QEYD 4:** *Hazırkı kurikulumda altstandartlar bir çox hallarda təlim nəticələrinə bərabər tutulur.*

## MƏZMUN STANDARTLARI

| *Altstandartlar* | *İzah və tövsiyə edilən sinifdaxili fəaliyyətlər* |
|---|---|
| **I SİNİF** | |
| **Məzmun xətti 1. Dinləmə** | |
| **Standart 1-1.1.** Sözləri, söz birləşmələrini, nəqli və sual cümlələrini anlayır. | |
| 1-1.1.1. Ehtiyac olduğu halda, jest və ya təkrarın müşayiəti ilə, aydın və çox asta sürətli nitqdə gündəlik istifadə olunan az sayda tanış sözləri anlayır. | Şagirdlər müəllimin və ya sinif yoldaşının dediklərinə əsasən düzgün şəkli göstərir və ya düzgün hərəkəti yerinə yetirirlər. |
| 1-1.1.2. Ehtiyac olduğu halda, təkrarın müşayiəti ilə, aydın və çox asta sürətli nitqdə ədədləri və həftənin günlərini müəyyən edir. | Müəllim və ya sinif yoldaşı bir ədəd deyəndə, şagirdlər düzgün ədəd olan kartı göstərirlər. 1-7 qədər olan ədədləri göstərməklə həftənin günlərinin adlarını müəyyən edirlər. |
| 1-1.1.3. Ehtiyac olduğu halda, jest və ya təkrarın müşayiəti ilə, aydın və çox asta sürətli nitqdə az sayda qısa və çox sadə sualları və fikirləri anlayır. | Müəllim və ya sinif yoldaşı bir heyvan haqqında bir cümlə deyəndə, şagirdlər həmin heyvanın səsini təqlid edirlər **Nümunə:** T: *I see a cow*. S: *Moo!* |
| **Standart 1-1.2.** Təlimat, istiqamət, elan və sinifdaxili müraciətləri dinləyib anlayır. | |
| 1-1.2.1. Şəkil, jest və təkrarın müşayiəti ilə, asta sürətlə təqdim olunan az sayda sadə təlimat və sinifdaxili müraciətləri anlayır. | Müəllim və ya sinif yoldaşı sadə təlimatlar verir və ya sinifdaxili müraciətlər edir. **Nümunə:** Müəllim *Open the door*, *Open your book*, *Sit down* və s. deyir və şagird müvafiq hərəkəti yerinə yetirir. |
| **Standart 1-1.4.** Dialoq və söhbətləri dinləyib anlayır. | |
| 1-1.4.1. Nitq aydın, çox asta sürətlə və dəfələrlə təkrarən səsləndirildiyi halda, az sayda özü barəsində olan sadə sualları və məlumatı; az sayda tanış sözləri, salamlaşma və vidalaşmaya aid olan ifadələri anlayır. | Müəllimin tapşırığı ilə şagirdlər adlarını və yaşlarını səsləndirirlər.<br>Şagirdlər 3-4 nəfərdən ibarət qruplar şəklində danışıq əsasında şifahi nitq işi yerinə yetirirlər.<br>**Nümunə:** *Hi, what's your name? → I'm Michael. → How old are you? → I'm six.* |
| 1-1.4.2. Nitq aydın, çox asta sürətlə və dəfələrlə təkrar səsləndirildiyi halda, tərkibində ədəd və həftənin günləri olan əsas məlumatları anlayır. | Müəllim ədədin daxil olduğu cümləni dedikdə, şagirdlər düzgün sayda obyektlərin olduğu şəkli göstərirlər.<br>**Nümunə:** M: *I have four books*. → Şagirdlər 2 və ya 3 kitab yox, 4 qələm yox, 4 kitab olan şəkli göstərir.<br>M: Monday. → Şagirdlər 1 rəqəmini göstərirlər. |
| **Məzmun xətti 2. Danışma** | |
| **Standart 1-2.1.** Sait və samitləri tələffüz edir. | |

| | |
|---|---|
| 1-2.1.1. Cüzi istiqamət verildikdə, çox yaxşı tanıdığı, lakin çox məhdud sayda olan sözlərin tərkibində öz ana dilində olmayan çox məhdud sayda səsləri qismən aydın tələffüz edir. | Tərkibində çətin səslər olan çox tanış sözlərin nümunələri aşağıda verilmişdir: *mouth*, *this*, and *playing*. Şagirdlər müəllimin şəkillərlə bağlı suallarına cavab verirlər. **Nümunə:** [æ] vs. [ɛ] üçün: Anna, Jen, Fred və Ben adları ilə etiketlənmiş şəkillər, hər birində 7 və ya 10 şamdan ibarət ad günü tortu: T: *How old is Anna?* S: *Ten.* T: *How old is Jen?* S: *Seven*. T: *How old is Fred?* S: *Seven.* T: *How old is Ben?* S: *Ten*. |
| 1-2.1.2. Ətraflı istiqamət verildikdə, çox yaxşı tanıdığı, lakin çox məhdud sayda olan sözlərin tərkibində öz ana dilində olmayan çox məhdud sayda səs birləşmələrini qismən aydın tələffüz edir. | Şagirdlər müəllimin şəkillərlə bağlı suallarına cavab verirlər. **Nümunə:** Baş samit + r və ya + l üçün: T: *Who has a blue book?* S: *Fred*. T: *Who has a green crayon?* S: *Greg*. T: *What does Fred have?* S: *A blue book.* T: *What does Greg have*? S: *A green crayon.* |
| **Standart 1-2.2.** Vurğu və intonasiyadan düzgün istifadə edir. | |
| 1-2.2.1. Düzgun təlimata əsaslanaraq, çox məhdud sayda olan çox yaxşı tanıdığı sözlərdə vurğunu düzgün qoyur. | Şagirdlər düzgün vurğu istifadə edərək, şəkildəki sinif obyektlərinin adlarını deyirlər. **Nümunə:** *CRAyon*, *PENcil*, *eRAser*, *PENcil CASE*, *BACKpack*. |
| 1-2.2.2. Ətraflı istiqamət verildikdə, çox məhdud sayda olan çox yaxşı tanıdığı söz birləşmələrində vurğunu düzgün qoyur. | Şagirdlər sinif yoldaşlarına paltarlarının hansı rəngdə olduğunu söyləyirlər. **Nümunə:** *My PANTS are BLUE. My SHOES are BLACK. My SHİRT is WHITE.* |
| **Standart 1-2.3.** Monoloji nitqdən istifadə edir. | |
| 1-2.3.1. Məlumatı təsdiqləmək üçün mimika və jestlərə əsaslanaraq bəzi çox sadə söz birləşmələrindən və şablon ifadələrdən istifadə edir. | Şagirdlər öz ailələrinin şəklini çəkirlər, sonra kiçik qruplar halında şəkildəki insanları bir-birinə göstərirlər, onların kim olduğunu tərəf-müqabillərinə deyirlər. **Nümunə:** *This is my father*, *This is my mother* və s. |
| **Standart 1-2.4.** Məlumat mübadiləsi apararaq müsahibədə iştirak edir. | |
| 1-2.4.1. Mənanı çatdırmaq üçün jestlərə istinad edir və müvafiq mövzuları əhatə edən bəzi çox qısa şablon ifadələrdən istifadə edərək çox sadə suallar verir. | Şagirdlər növbə ilə sinif yoldaşlarından geyimlərinın hansı rəngdə olduğunu soruşurlar. **Nümunə:** *What colour are your shoes? What colour is your jacket?* və s. |
| 1-2.4.2. Mənanı çatdırmaq üçün jestlərə istinad edir, müvafiq mövzuları əhatə edən bəzi çox qısa şablon ifadələrdən istifadə edərək çox sadə suallara cavab verir. | Şagirdlər geyimlərinin hansı rəngdə olduğuna dair sinif yoldaşlarının suallarına cavab verirlər. **Nümunə:** *My shoes are black, my jacket is brown* və s. |

| II SİNİF | |
|---|---|
| **Məzmun xətti 1. Dinləmə** | |
| **Standart 2-1.1.** Sözləri, söz birləşmələrini, nəqli və sual cümlələrini anlayır. | |
| 2-1.1.1. Ehtiyac olduğu halda, jest və ya təkrarın müşayiəti ilə, aydın və çox asta sürətli nitqdə gündəlik istifadə olunan bir sıra tanış sözləri anlayır. | Şagirdlər müəllimin və ya sinif yoldaşının dediklərinə əsasən düzgün şəkli göstərir və ya düzgün hərəkəti yerinə yetirirlər. |
| 2-1.1.2. Ehtiyac olduğu halda, təkrarın müşayiəti ilə, aydın və çox asta sürətli nitqdə ədədləri, qiymətləri, tarixləri və həftənin günlərini anlayır. | Müəllim və ya sinif yoldaşı hər hansı bir əşyanın qiymətini dedikdə, şagirdlər əşyanın qiyməti ilə verilmiş şəkli uyğunlaşdırib tələb olunan ədədi işarə edirlər. **Nümunə:** üzərində 2 AZN yazılmış bir dilim pizza, 4 AZN yazılmış iki dilim və 6 AZN yazılmış üç dilim pizza şəkli var. Müəllim deyir: *Two manats, four manats, six manats*, etc. |
| 2-1.1.3. Ehtiyac olduğu halda, jest və ya təkrarın müşayiəti ilə, aydın və çox asta sürətli nitqdə bəzi qısa və çox sadə sualları və fikirləri anlayır. | Müəllim və yaxud sinif yoldaşı müxtəlif şəkillərdəki insanların hissləri haqqında cümlə deyəndə, şagirdlər uyğun şəkli göstərirlər. **Nümunə:** *He is happy, she is mad, she is tired, he is sick*. |
| **Standart 2-1.2.** Təlimat, istiqamət, elan və sinifdaxili müraciətləri dinləyib anlayır. | |
| 2-1.2.1. Şəkil, jest və lazım gəldikdə təkrarın müşayiəti ilə, asta sürətlə təqdim olunan bəzi sadə təlimat və sinifdaxili müraciətləri anlayır. | Müəllim və yaxud sinif yoldaşı sadə təlimatlar və ya sinifdaxili müraciətləri səsləndirir. Təlimat və sinifdaxili müraciətlər hərəkətlər üçün olmalıdır. **Nümunə:** Müəllim deyir *Come here*, *Put the book on the floor*, *Give me a pencil*, və s., şagird isə hərəkəti yerinə yetirir. |
| **Standart 2-1.3.** Canlı və ya lentə yazılmış materialları dinləyib anlayır. | |
| 2-1.3.1. Aydın və çox asta sürətlə səsləndirilən sadə və qısa dinləmə mətnlərində bildiyi ümumişlək sözləri tanıyır. | Sağda a-dan g-yə qədər olan hərflərlə 7 heyvan şəkli və solda 5 dənə nömrələnmiş boşluq var. Audiomaterialda hər biri bir heyvan haqqında olmaqla 5 cümlə səsləndirilir və şagirdlər boşluqlara düzgün hərfi yazır. Burada "ümumişlək" dərsdə daha tez-tez istifadə edilən sözlərə aiddir. |
| 2-1.3.2. Aydın və çox asta sürətlə səsləndirilən sadə və qısa olan canlı nitqdə bildiyi ümumişlək sözləri tanıyır. | Şagirdlər audiomateriali dinləyirlər. Tapşırıqda sağ tərəfdə a-dan g-yə qədər olan hərflərlə 7 yemək şəkli və sol tərəfdə 1-dən 5-ə nömrələnmiş boşluq var. Audiomaterialda hər biri bir yemək haqqında olmaqla 5 cümlə səsləndirilir və şagirdlər boşluqlara düzgün hərfi yazırlar. |
| **Standart 2-1.4.** Dialoq və söhbətləri dinləyib anlayır. | |

| | |
|---|---|
| 2-1.4.1. Nitq aydın, çox asta sürətlə və cüzi təkrarla səsləndirildiyi halda, bəzi özü barəsində olan sadə sualları və məlumatı; tanış sözlərin, salamlaşma və vidalaşmaya aid olan ifadələrin çoxunu anlayır. | Müəllimin tapşırığı ilə şagirdlər özləri barəsində olan sadə məlumatları səsləndirirlər.<br>Şagirdlər 3-4 nəfərdən ibarət qruplar şəklində danışıq əsasında şifahi nitq işi yerinə yetirirlər. **Nümunə:** *Hi, what's your name? → I'm Fidan. → How old are you? → I'm seven. → Good bye. See you.* |
| 2-1.4.2. Nitq aydın, çox asta sürətlə və cüzi təkrarla səsləndirildiyi halda, tərkibində ədəd, qiymət, tarix və həftənin günləri olan əsas məlumatları anlayır. | *"Cüzi" - bir və ya iki dəfə təkrar etmək deməkdir.* Müəllim tərkibində ədədlər olan qısa bir cümlə oxuyur. Şagirdlər cütlərlə işləyərək növbə ilə sualı oxuyur və suala ucadan cavab verirlər. **Nümunə:** T: *There are two cats.* S1: *How many cats are there?* S2: *Two*. T: *There are four shirts.* S2: *How many shirts are there?* S1: *Four.* |
| **Standart 2-1.5.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 2-1.5.1. Şəkil və ya simvolun müşayiəti ilə, konkret obyekt və ya hərəkətə aid tanış olmayan sözün və yaxud təlimatların mənasını tapır. | Şəkillərdə 5 duyğu bildirən feil əks olunmuşdur. Müəllim həmin feillərdən ibarət olan cümlə səsləndirir və şagirdlərdən feilləri öz ana dilində deməyi və ya yazmağı xahiş edir. **Nümunə:** Şəkildə bir qızın bel çantasına baxması onun gözü ilə bel çantası arasında düz xətt vasitəsi ilə ifadə edilib. Müəllim deyir: *Amy sees a backpack. What is "see"?* Şagird cavab verir: *"görmək"*. |
| **Məzmun xətti 2. Danışma** | |
| **Standart 2-2.1**. Sait və samitləri düzgün tələffüz edir. | |
| 2-2.1.1. Cüzi istiqamət verildikdə, çox yaxşı tanıdığı, məhdud sayda olan sözlərin tərkibində öz ana dilində olmayan məhdud sayda səsləri qismən aydın tələffüz edir. | Şagirdlər növbə ilə bir-birlərinə şəkildəki bir sıra əşya və insanların (məsələn, Fred xəstədir və onun sifəti saralıb) hansı rəngdə olduğu barədə suallar verirlər. Əşya və insan adlarının hamısı hədəf səsi ehtiva edir. **Nümunə:** [æ] və [ɛ] üçün: *pants, Fred, jacket, cap, Anna, Jen, rabbit, cat, alligator, pet horse*. S1: *What colour is Fred?* S2: Green. S2: *What colour is the cat?* S1: *Black*. |
| 2-2.1.2. Ətraflı istiqamət verildikdə, çox yaxşı tanıdığı, lakin məhdud sayda olan sözlərin tərkibində öz ana dilində olmayan məhdud sayda səs birləşmələrini qismən aydın tələffüz edir. | Şagirdlər cütlərlə işlədikdə növbə ilə şəkillərlə bağlı bir-birlərinə suallar verir və cavab alırlar. **Nümunə:** İlkin samit + r və ya + l üçün: S1: *Who has a blue book?* S2: *Fred*. S2: *Who has a green crayon?* S1: *Greg*. S1: *What does Fred have?* S2: *A blue book.* S2: *What does Greg have*? S1: *A green crayon.* (hər biri 2-5 sual) |
| **Standart 2-2.2.** Vurğu və intonasiyadan düzgün istifadə edir. | |
| 2-2.2.1. Ətraflı istiqamət verildikdə, məhdud sayda olan çox yaxşı tanıdığı sözlərdə vurğunu düzgün qoyur. | Şagirdlər növbə ilə şəkildəki sinif əşyalarına işarə edir və düzgün vurğu istifadə edərək hər birinin nə olduğunu soruşurlar. **Nümunə:** S1: *What is it?* S2: *It's a CRAyon*. S2: *What is it?* S1: *It's a PENcil.* |

| | |
|---|---|
| 2-2.2.2. Ətraflı istiqamət verildikdə, məhdud sayda olan çox yaxşı tanıdığı frazalarda vurğunu düzgün qoyur. | Şagirdlər cütlərlə işlədikdə növbə ilə bir-birindən şəkillərdəki personajın geyiminin rəngini soruşurlar. **Nümunə:** S1: *What COLOUR is the SHIRT?* S2: *The SHİRT is BLUE.* S2: *What COLOUR are the SHOES?* S1: *The SHOES are BLACK.* |
| **Standart 2-2.3.** Monoloji nitqdən istifadə edir. | |
| 2-2.3.1. Məlumatı təsdiqləmək üçün mimika və jestlərə əsaslanaraq sadə söz birləşmələrindən və çox bəsit şablon ifadələrdən istifadə edir. | Şagirdlər növbə ilə özlərini sinif yoldaşlarına müəllim kimi təqdim edir və salamlayırlar. **Nümunə:** S1: *Good morning! Please come in. Sit down.* Digər şagirdlər həmin hərəkəti yerinə yetirirlər. |
| **Standart 2-2.4.** Məlumat mübadiləsi apararaq müsahibədə iştirak edir. | |
| 2-2.4.1. Mənanı çatdırmaq üçün jestlərə istinad edir, müvafiq mövzuları əhatə edən çox qısa şablon ifadələrdən istifadə edərək çox sadə suallar verir. | Şagirdlər cütlərlə növbələşərək bir-birindən adlarını və yaşlarını soruşurlar. Sonra müəllim hər şagirdə fərqli ad və yaş qeyd olunmuş bir iş vərəqi təqdim edir. Şagirdlər həmin fəaliyyəti rollu oyun kimi təkrarlayırlar. **Nümunə:** S1 has a piece of paper that says *Pat, 8*. S2 has a piece of paper that says *Bob, 7.* S1: *Who are you?* S2: *I'm Bob. Who are you?* S1: *I'm Pat. How old are you?* S2: *I'm seven. How old are you?* S1: *I'm eight.* |
| 2-2.4.2. Mənanı çatdırmaq üçün jestlərə istinad edir, müvafiq mövzuları əhatə edən çox qısa şablon ifadələrdən istifadə edərək çox sadə suallara cavab verir. | Bax: 2-2.4.1. |
| **Məzmun xətti 3. Oxu** | |
| **Standart 2-3.1.** İnformativ mətnləri oxuyub anlayır. | |
| 2-3.1.1. Vizual dəstəklə çox qısa və sadə informativ mətnlərdə hərfləri tanıyır. | İki sütunlu cədvəlin olduğu tapşırıq kağızı şagirdlərə təqdim edilir. Sağ sütunda ilk hərfi əskik olan söz və sol sütunda isə sağ sütundakı sözlərdə əskik verilən hərflər verilmişdir. Şagirdlər hər boş yerə düzgün hərfi yazır. **Nümunə:** sol sütunda B, C, E, P, P və R, sağ sütunda isə _encil, _raser, _en, _uler, _rayon, _ackpack. |
| 2-3.1.2. Vizual dəstəklə çox qısa və sadə informativ mətnlərdə tanış sözləri tanıyır. | Şagirdlər əlində iki əşya tutan üç uşağın şəklinə baxırlar və mətni oxuyurlar. Mətni oxuduqdan sonra şagirdlər düzgün cavabların altından xətt çəkərək və ya dairəyə alaraq suallara cavab verir. **Nümunə:** Mətn: *This is Mia. She has a backpack and a pencil.* → İş vərəqi: *Mia: backpack, book, pen, pencil.* → Şagirdin cavabı: *Mia: backpack, book, pen, pencil* |
| **Standart 2-3.2.** Bədii mətnləri oxuyub anlayır. | |

| | |
|---|---|
| 2-3.2.1. Şəkillərlə verilən çox qısa və sadə bədii mətnlərdə hərfləri tanıyır. | Şagirdlərə iki sütundan ibarət iş vərəqi verilir. Sol sütunda sözlərin yalnız ilk hərfləri, sağ sütunda isə ilk hərfi olmayan sözlər təqdim olunur. Hər bir söz şəkil ilə müşayiət olunur. Şagirdlər hər boşluğa düzgün hərfi yazır. **Nümunə:** sol sütunda B, D, G, G, M, S və sağ sütunda _om, _ad, _rother, _ister, _randma, _randpa. |
| 2-3.2.2. Şəkillərlə verilən çox qısa və sadə bədii mətnlərdə tanış sözləri tanıyır. | Şəkildə özlərini və iki ailə üzvünü təqdim edən üç uşaq verilir. Şagirdlər bu şəkil ilə müşayiət olunan hekayə oxuyurlar. Şagirdlər hekayəni oxuduqdan sonra düzgün cavabların altından xətt çəkərək suallara cavab verirlər. **Nümunə:** Mətn parçası: *Hi, I'm James. This is my grandma, and this is my sister.* → İş vərəqi: *James: mom, grandma, brother, sister* → Şagird cavabı: *James: mom*, <u>*grandma*</u>, *brother*, <u>*sister*</u> |
| **Standart 2-3.3.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 2-3.3.1. Bəzi sözlərin mənasını müşayiət edən şəkil və ya simvolların köməyi ilə anlayır. | Şagirdlər dörd zoopark heyvanı haqqında qısa bir mətn oxuyurlar. Bu mətn dörd heyvanı ehtiva edən rəngli şəkil ilə müşayiət olunur (səhifədə, divarda, ekranda əks olunur). Sonra şagirdlər iş vərəqində hər bir heyvanın adını uyğun olaraq şəkli ilə birləşdirirlər. **Nümunə:** *The zebra is black and white. The giraffe is yellow and brown. The elephant is grey. The bat is brown.* |
| **Məzmun xətti 4. Yazı** | |
| **Standart 2-4.2.** Söz, söz birləşmələri və cümlələrdən istifadə edərək müxtəlif həcmli mətnlər yazır. | |
| 2-4.2.1. Hərfləri və bəzi sözləri yazır. | Şagirdlərə boşluqlar olan cümlələrdən ibarət iş vərəqi verilir. Onlar bu boşluqları yer bildirən sözönüləri ilə doldurmalıdırlar. (*on, under, in*). Tapşırıq səhifənin yuxarı hissəsində bir neçə əşya və onların mövqelərini göstərən bir şəkil ilə müşayiət olunur. **Nümunə:** *The book is* <u>*in*</u> *the backpack. The apple is* <u>*on*</u> *the table. The cat is* <u>*under*</u> *the bed.* |
| 2-4.2.6. Ad, yer, rəqəm və tək sözlərdən istifadə edərək çox sadə formaları doldurur. | Şagirdlər kiçik iş vərəqindəki boş yerləri ad və soyadları, yaşları, ata və analarının adları ilə doldururlar. |
| **III SİNİF** | |
| **Məzmun xətti 1. Dinləmə** | |
| **Standart 3-1.1.** Sözləri, söz birləşmələrini, nəqli və sual cümlələrini anlayır. | |

| | |
|---|---|
| 3-1.1.1. Ehtiyac olduğu halda, jest və ya təkrarın müşayiəti ilə, aydın və çox asta sürətli nitqdə gündəlik istifadə olunan tanış sözləri anlayır. | Şagirdlər müəllimin və ya sinif yoldaşının dediklərinə əsasən düzgün şəkli göstərir və ya hərəkəti düzgün olaraq yerinə yetirirlər. |
| 3-1.1.2. Ehtiyac olduğu halda, təkrarın müşayiəti ilə, aydın və asta sürətli nitqdə ədədləri, qiymətləri, tarixləri və həftənin günlərini anlayır. | Müəllim və ya sinif yoldaşı bir ədəd deyir, şagirdlər isə şəkildə verilmiş həftənin günlərindən uyğun olanını göstərirlər. **Nümunə:** Üzərində 1-dən 7-yə qədər ədədlər yazılmış şəkillər var. Müəllim müəyyən şəkli göstərir və 1,2,3,4 və s. ədədləri söyləyir. |
| 3-1.1.3. Ehtiyac olduğu halda, jest və ya təkrarın müşayiəti ilə, aydın və asta sürətli nitqdə qısa və çox sadə sualları və fikirləri anlayır. | Müəllim və ya sinif yoldaşı yaş, ad və ya həftənin günləri ilə bağlı sual verdikdə, şagirdlər düzgün cavablar verirlər. **Nümunə:** S1: *How old are you?* S2: *I'm 11.* S2: *How many days are in a week?* S1: *Seven.* |
| **Standart 3-1.2.** Təlimat, istiqamət, elan və sinifdaxili müraciətləri dinləyib anlayır. | |
| 3-1.2.1. Əsasən şəkil və ya jestlərin müşayiəti ilə, aydın və çox asta sürətlə təqdim olunan təlimatların və sadə sinifdaxili müraciətlərin çoxunu anlayır. | Müəllim təlimatlar və ya sadə sinif əmrləri verir və şagirdlər onları düzgün yerinə yetirirlər. **Nümunə:** *Listen and point. Say the correct answer. Complete the sentences. Listen and choose.* |
| 3-1.2.2. Əsasən şəkil və ya jestlərin müşayiəti ilə, aydın və çox asta sürətlə səsləndirilən mesaj və elanlarda rəqəm, qiymət, vaxt bildirən ifadələri və s. anlayır. | Müəllim və ya sinif yoldaşı peşə və ya heyvan adlarını deyəndə, şagirdlər uyğun rəqəmli şəkli göstərir. **Nümunə:** 3 doctors, 4 firefighters, 2 teachers, 1 singer. |
| 3-1.2.3. Əsasən şəkil və ya jestlərin müşayiəti ilə, aydın və çox asta sürətlə səsləndirilən dinləmə mətnində əşyanın yaxın ətrafdakı yerinin ifadə olunduğu cümlələri anlayır. | Şagird müəllimin və ya sinif yoldaşının nəyinsə harada olması barədə söylədiyi ifadələri dinləyir. Xəritədə əşyanın nömrəsini yazırlar. **Nümunə:** 1.*The school is in front of the park.* 2.*The library is next to the supermarket.* |
| **Standart 3-1.3.** Canlı və ya lentə yazılmış materialları dinləyib anlayır. | |
| 3-1.3.1. Nitq aydın, çox asta sürətlə, ehtiyac olduqda təkrarən səsləndirildiyi halda, tanış və gündəlik mövzulara aid olan qısa mətnlərdə az sayda konkret detalları anlayır. | Şagirdlər konkret təfərrüatları özündə əks etdirən tanış gündəlik mövzuları əhatə edən qısa mətn parçalarına qulaq asırlar. **Nümunə:** *Listen and then put numbered pictures in the right order.* |

| | |
|---|---|
| 3-1.3.2. Nitq aydın, çox asta sürətlə, ehtiyac olduqda isə təkrarən səsləndirildiyi halda, öyrənilən mövzularla bilavasitə bağlı olan öngörülən situasiyada izah edilən çox sadə məlumatın mahiyyətini anlayır. | Şagirdlər bir sıra çox qısa söhbətləri dinləyir və mahiyyəti anladıqlarını göstərmək üçün suallara cavab verirlər. **Nümunə:** S1: *It's so cold today!* S2: *I know. I think we have 4 centimeters of snow.* S: *The weather today is ___ and ___.* |
| **Standart 3-1.4.** Dialoq və söhbətləri dinləyib anlayır. | |
| 3-1.4.1. Nitq aydın, asta sürətlə və ehtiyac olduqda təkrarən səsləndirildiyi halda, özü barəsində olan sadə sualları və məlumatı; tanış sözlərin, salamlaşma və vidalaşmaya aid olan ifadələrin çoxunu anlayır. | Şagirdlər hər biri iki cümlədən ibarət olan beş söhbətə qulaq asırlar və sualları cavablara uyğunlaşdırırlar. **Nümunə:**<br>S1: *Do you like singing?*<br>S2: *Yes, I do./No, I don't.*<br><br>S1: *Hi, what's your name?* S2: *My name is Lala.*<br>S1:*How old are you?* S2: *I'm eight.*<br>S1: *Good bye.* S2: *See you.* |
| 3-1.4.2. Nitq aydın, asta sürətlə və ehtiyac olduqda təkrarən səsləndirildiyi halda, tərkibində rəqəm, qiymət, tarix və həftənin günləri olan əsas məlumatları anlayır. | Şagirdlər cütlərlə işləyərək növbə ilə bir-birlərinə məktəb ləvazimatları və onların qiymətlərini ehtiva edən cümlələri oxuyur və qiymətləri yazır. **Nümunə:**<br>S1*: What day is it today?* → S2*: It's Monday.*<br>S1*: What date is it today?*→ S2: *It's November, 8*. |
| **Standart 3-1.5.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 3-1.5.1. Çox sadə və çox tanış gündəlik mövzunu əhatə edən mətndə, konkret obyekt və ya hərəkətə aid tanış olmayan sözün mənasını tapır. | Müəllim sinif təlimatlarını əks etdirən bir şəkil göstərir (*touch, open, walk, close, shout, eat*). Müəllim tərkibində feil olan cümləni oxuyur, sonra feilin mənasını soruşur. Şagirdlər həmin sözü ana dilində yazır. **Nümunə:** Şəkildə qız öz burnunu əli ilə göstərir. T: *Amy is touching her nose. What is "touch"?* → S: write *toxunmaq*. |
| **Məzmun xətti 2. Danışma** | |
| **Standart 3-2.1.** Sait və samitləri düzgün tələffüz edir. | |
| 3-2.1.1. Cüzi istiqamət verildikdə, çox yaxşı tanıdığı sözlərin tərkibində öz ana dilində olmayan bir sıra səsləri qismən aydın tələffüz edir. | Tərkibində çətin səslər olan çox tanış sözlərin nümunələri aşağıda verilmişdir: *Wednesday*, *maths*, *thin*, *weather*, and *singing.*<br>Şagirdlər növbə ilə hədəf səsi olan sözləri tələffüz edirlər. |
| 3-2.1.2. Ətraflı istiqamət verildikdə, çox yaxşı tanıdığı sözlərin tərkibində öz ana dilində olmayan bir sıra səs birləşmələrini qismən aydın tələffüz edir. | Şagirdlər növbə ilə səs birləşmələri olan sözləri tələffüz edirlər. **Nümunə:** *price [pr], brown [br], three [θr], etc.* |
| **Standart 3-2.2.** Vurğu və intonasiyadan düzgün istifadə edir. | |

| | |
|---|---|
| 3-2.2.1. Ətraflı istiqamət verildikdə, çox yaxşı tanıdığı sözlərdə vurğunu düzgün qoyur. | Şagirdlər növbə ilə suallar verir və düzgün vurğudan istifadə edərək şəkildəki sözləri göstərirlər. **Nümunə:** *EYEbrows, SCIENtist, ARtist, BOAThouse, və s.* |
| 3-2.2.2. Ətraflı istiqamət verildikdə, çox yaxşı tanıdığı söz birləşmələrində vurğunu düzgün qoyur. | Şagirdlər növbə ilə bir-birlərindən adlarını və adlarındakı hərfləri tələffüz etmələrini xahiş edirlər. **Nümunə:** S1: *WHAT'S your NAME?* S2: *Narmina.* S1: *HOW* do you *SPELL* NARMINA? S2: *N – A – R – M – I – N – A.* |
| **Standart 3-2.3.** Monoloji nitqdən istifadə edir. | |
| 3-2.3.1. Öncədən hazırladığı tanış sözlərdən istifadə edərək sadə və bir-biri ilə əlaqəsi olmayan söz birləşmələri və çox sadə cümlələr quraraq ünsiyyət yaradır. | Şagirdlərin hər birində müxtəlif şəkillər var. Onlar növbə ilə şəkilləri sinif yoldaşlarına göstərir və onlardan şəkildə olan insanların nə etdiklərini söyləmələrini xahiş edirlər. **Nümunə:** *S1: What is he doing? --S2: He is singing. S1: What is she doing? -S2: She is cooking.* |
| **Standart 3-2.4.** Məlumat mübadiləsi apararaq müsahibədə iştirak edir. | |
| 3-2.4.1. Mənanı gücləndirmək üçün jestlərə istinad edərək müvafiq mövzuları əhatə edən qısa şablon ifadələrdən istifadə etməklə çox sadə suallar verir. | Şagirdlərin hər birində müxtəlif şəkillər var. Onlar növbə ilə şəkilləri digər şagirdlərə göstərir və suallar verirlər. **Nümunə:** S1: *Where is the park?* S2: *It's behind the bookstore. Where is the boathouse?* S1: *It's next to the lake.* |
| 3-2.4.2. Mənanı gücləndirmək üçün jestlərə istinad edərək öyrənilən mövzuları əhatə edən qısa, şablon ifadələrdən istifadə etməklə çox sadə suallara cavab verir. | Şagirdlərin hər birində şəkil var. Onlar növbə ilə şəkilləri sinif yoldaşına göstərir və suallar verirlər. **Nümunə:** S1: *What is it?* S2: *It's a lion.* S1: *Is it fast?* S2: *Yes, it is.* |
| **Məzmun xətti 3. Oxu** | |
| **Standart 3-3.1.** İnformativ mətnləri oxuyub anlayır. | |
| 3-3.1.1. Çox qısa və sadə informativ mətnlərdə az sayda olan çox sadə detalları tapır. | Şagirdlər idman mərkəzindəki 6 müxtəlif idman növünün reklamı olan lövhəyə baxırlar. Lövhədə idman növləri və onların ödənişlərini əks etdirən şəkillər verilmişdir. Şagirdlər endirimdə olan idman növlərinin siyahısını yazırlar. |
| 3-3.1.2. Vizual dəstəklə çox qısa və sadə informativ mətnlərdə az sayda olan çox sadə detalları anlayır. | Şagirdlərə 3-3.1.1.-də göstərilən idman növlərinin siyahısı verilir və onlardan ya əvvəlki, ya da endirimdə olan məbləğ soruşulur. |
| **Standart 3-3.2.** Bədii mətnləri oxuyub anlayır. | |
| 3-3.2.1. Şəkillərlə verilən çox qısa və sadə bədii mətnlərdə az sayda olan çox sadə detalları tapır. | Şagirdlərə bir qızın şarını itirməsi və sonra şəhərin ətrafında uçması haqqında çox qısa, sadə təsvirli hekayəsi olan iş vərəqi verilir. Onlar şarın harada olduğunu bildirən bütün ön söz ifadələrinin altından xətt çəkirlər. |

| | |
|---|---|
| 3-3.2.2. Şəkillərlə verilən çox qısa və sadə bədii mətnlərdə az sayda olan çox sadə detalları anlayır. | Şagirdlər 3-3.2.1.-də verilmiş hekayəni oxuyurlar, hadisələri şəkillərlə uyğunlaşdırırlar. **Nümunə:** *Peggy Sue – has a new balloon; Firefighter Joe – rescue the balloon; balloon – go around the town,* etc. |
| **Standart 3-3.3.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 3-3.3.1. Tanış və gündəlik mövzuya aid olan şəkil və ya ikonaların (təsvirlərin) müşayiəti ilə konkret hərəkətə və ya obyektə uyğun tanış olmayan sözlərin əksəriyyətinin mənasını anlayır. | Şagirdlərə 3-3.2.1-də tanış olmayan sözlərdən ibarət mətnin dəyişdirilmiş variantı verilir. Şagirdlər həmin sözlərin mənalarını təxmin etmək üçün illüstrasiyalardan istifadə edirlər. **Nümunə:** *Don't fly away! Firefighter Joe is on the ladder.* |
| 3-3.3.2. Mətn çox sadə, tanış və gündəlik mövzuya aid olduğu halda, konkret hərəkətə və ya obyektə uyğun bəzi tanış olmayan sadə sözlərin mənasını anlayır. | 3-3.3.1.-də verilmiş mətnin dəyişdirilmiş variantında konkret hərəkət və ya obyektlərə aid şagirdlərin bilmədikləri bir neçə sadə söz var. Sözləri kontekstdəki ipuçlarının, bəzən də illüstrasiyaların köməyi ilə təxmin etmək mümkündür (lakin illüstrasiyaları ipuçları olmadan vermək olmaz). Şagirdlər bu ipuçlarından istifadə edərək tanış olmayan sözlərin mənalarını təxmin edirlər. **Nümunə:** *I cannot catch the balloon! I cannot touch the string! It is too high. Firefighter Joe can climb up the ladder and rescue it.* |
| **Məzmun xətti 4. Yazı** | |
| **Standart 3-4.1.** Bağlayıcılardan istifadə edərək rabitəli mətn yazır. | |
| 3-4.1.1. Sözləri çox sadə tabesizlik bağlayıcıları ilə birləşdirir. | Şagirdlər şəkillərdəki əşyalara baxır və onları 2 sifət işlədərək təsvir edir. Bu səviyyədə yəqin ki, şagirdlərin sözləri əlaqələndirmək üçün istifadə edəcəyi yeganə çox sadə tabesizlik bağlayıcı "and" ("və") bağlayıcısıdır. **Nümunə:** Şagirdlər *tall* və *green* sözləri olan ağacın şəklini görürlər. Yazırlar: *The tree is tall and green*. |
| **Standart 3-4.2.** Söz, söz birləşmələri və cümlələrdən istifadə edərək müxtəlif həcmli mətnlər yazır. | |
| 3-4.2.1. Sözləri və çox sadə bir-biri ilə əlaqəsi olmayan söz birləşmələri yazır. | Şagirdlər heyvan şəkillərinə baxır və a(n) + sifət + heyvan adı ilə söz birləşmələri yazır. **Nümunə:** *a black bat, a brown cow, a big dog,* etc. |
| 3-4.2.3. Bir sözdən və ya çox sadə, əlaqəsi olmayan söz birləşmələrindən ibarət qeyd yazır. | Şagirdlər dostlarına bir cümlə və ya bir cümləlik qeydlər yazır. **Nümunə:** *Give me an eraser* or *Thank you.* |
| 3-4.2.4. Bir sözdən və ya çox sadə əlaqəsi olmayan söz birləşmələrindən ibarət mesaj yazır. | Şagirdlər dostlarına bir cümlə və ya bir cümləlik mətn mesajları yazır (kağız üzərində). **Nümunə:** *Good morning*, *Give me a pencil*, or *Thank you.* |

| | |
|---|---|
| 3-4.2.5. Ayrı-ayrı sözlərdən və ya çox, sadə bir-biri ilə əlaqəsi olmayan söz birləşmələrindən istifadə edərək sadə formaları doldurur. | Şagirdlər anketdə verilmiş boşluqları öz adı, boy ölçüsü, çəkisi, saç və göz rənginə aid məlumatlarla doldururlar. |
| **IV SİNİF** | |
| **Məzmun xətti 1. Dinləmə** | |
| **Standart 4-1.1.** Sözləri, söz birləşmələrini, nəqli və sual cümlələrini anlayır. | |
| 4-1.1.1. Aydın və asta sürətli nitqdə tanış və gündəlik mövzularda olan bəzi konkret məlumatları tanıyır. | Şagirdlərə mövzu ilə bağlı şəkillər təqdim olunur. Onlar düzgün şəkli göstərir və ya onlara tanış və gündəlik mövzulara aid olan hərəkəti düzgün olaraq yerinə yetirirlər. **Nümunə:** "Family members"- *sister, brother, cousin, aunt, uncle, nephew, niece.* |
| 4-1.1.2. Aydın və asta sürətli nitqdə mövcud situasiyaya və insanlara aid olan söz birləşmələri və ifadələrin çoxunun mənasını anlayır. | Şagirdlər şəkilləri eşitdikləri ifadələrə uyğunlaşdırırlar. **Nümunə:** S1 deyir ki, *I get up at 7.* S2 düzgün şəkli göstərir. |
| 4-1.1.3. Ehtiyac olduğu halda arabir təkrarla, aydın və asta sürətli nitqdə qısa və sadə sualları və fikirləri anlayır. | Müəllim və ya sinif yoldaşı yaş və ya qohumluq əlaqəsi ilə bağlı bir cümlə söylədikdə, şagirdlər düzgün cavablandırırlar. **Nümunə:** *How old are you? I'm 10. Who is she? She is my niece.* |
| 4-1.1.4. Mənanı mənimsəmək üçün çoxsaylı uzun fasilələrlə verilən çox asta və anlaşılan nitqi dinləyərək qeyd aparır. | Çoxsaylı (fasilələr) hər cümlədə 1-3 dəfə deməkdir. Uzun fasilələr 4-5 saniyəyə qədərdir.<br>Şagirdlər 5 cümlədən ibarət hekayəni dinləyirlər. Hekayədə ifadələr arasında fasilə və cümlələr arasında daha uzun fasilələr verilmişdir. Şagirdlər 7 şəkil görürlər, onlardan 5-i hekayədəki hadisələri təsvir edir. Onlar hekayəni dinləyərkən ona uyğun gələn 5 şəkli nömrələyirlər. |
| **Standart 4-1.2.** Təlimat, istiqamət, elan və sinifdaxili müraciətləri dinləyib anlayır. | |
| 4-1.2.1. Aydın və asta sürətlə təqdim olunan təlimatların və sadə sinifdaxili müraciətlərin çoxunu anlayır. | Müəllim təlimat və ya sadə sinifdaxili əmrlər verir və şagird hərəkəti yerinə yetirir. **Nümunə:** *Listen and complete. Read and say the answer. Answer the questions.* |
| 4-1.2.2. Aydın və çox asta sürətlə səsləndirilən mesaj və elanlarda ədəd, qiymət, vaxt bildirən ifadələri anlayır. | Müəllim və ya sinif yoldaşı sıra nömrələri və ya 1-dən 100-ə qədər ədədləri söyləyəndə, şagirdlər uyğun ədəd olan şəkli göstərir. |
| 4-1.2.3. Aydın və çox asta sürətlə səsləndirilən dinləmə mətnində əşyanın yaxın ətrafdakı yerinin ifadə olunduğu cümlələri anlayır. | Şagird müəllimin və ya sinif yoldaşının nəyinsə harada olması barədə söylədiyini anlayır və əşyanı göstərir. **Nümunə:** *There are two books on the desk.* |

| | |
|---|---|
| **Standart 4-1.3.** Canlı və ya lentə yazılmış materialları dinləyib anlayır. | |
| 4-1.3.1. Nitq aydın, çox asta sürətlə və çoxsaylı uzun fasilələrlə səsləndirildiyi halda, tanış və gündəlik mövzulara aid qısa mətnlərdə bəzi konkret detalları anlayır. | Şagirdlər gündəlik tanış olan mövzularda qısa mətn parçalarını dinləyir, bəzi konkret detalları anlayır və tapşırıqları yerinə yetirmək üçün şəkillərdən istifadə edirlər. **Nümunə:** *Number the events in order. Circle TRUE or FALSE, etc.* |
| 4-1.3.2. Nitq aydın, çox asta sürətlə və çoxsaylı uzun fasilələrlə səsləndirildiyi halda, öyrənilən mövzularla bilavasitə bağlı olan öngörülən situasiyada izah edilən çox sadə məlumatın mahiyyətini anlayır. | Şagirdlər izah edilən çox sadə məlumatın mahiyyətini anlayır və verilmiş tapşırıqları yerinə yetirirlər. **Nümunə:** *Listen and complete. Listen and say the times. Listen and say*. (Şagirdlər *ABCD* ilə adlandırılmış uyğun şəkli seçməlidirlər və s.) |
| **Standart 4-1.4.** Dialoq və söhbətləri dinləyib anlayır. | |
| 4-1.4.1. Nitq aydın, çox asta sürətlə və cüzi təkrarla səsləndirildiyi halda, söhbət əsnasında gündəlik həyata və konkret tanış mövzulara aid olan bəzi sözləri söz birləşmələri və ifadələri anlayır. | Şagirdlər bir-birinə ailə üzvünün şəklini göstərir və növbə ilə onun haqqında suallar verir və cavablandırırlar. Burada, söhbət adətən bir neçə qısa cümlələrdən ibarətdir.<br>**Nümunə:** S1: *Who is that?* S2: *He is my dad.* S1: *What's his name?* S2: *His name is Bob.* S1: *How old is he?* S2: *He is 42*. |
| 4-1.4.2. Nitq aydın, çox asta sürətlə və dəfələrlə təkrar səsləndirildiyi halda, söhbət əsnasında gündəlik həyata və konkret tanış mövzulara aid az sayda detalları anlayır. | Şagirdlər növbə ilə 4-1.4.1-də təsvir olunan şəxs haqqında əlavə suallar (gündəlik həyata və digər tanış konkret mövzulara aid) verir və cavablandırırlar. Müəllim peşəyə aid olan sözlərin mənası ilə bağlı kömək edə bilər. **Nümunə:** S2: *When is your dad's birthday?* S1: *It is in May.* S2: *What is his job?* S1: *He is an engineer*. |
| **Standart 4-1.5.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 4-1.5.1. Çox sadə və tanış gündəlik mövzunu əhatə edən mətndə konkret obyekt və ya hərəkətə aid tanış olmayan sözün mənasını tapır. | Müəllim konkret əşya və ya hərəkət üçün tanış olmayan bir sözü nümayiş etdirən şəkil göstərir. Müəllim həmin sözü ehtiva edən cümləni oxuyur, sonra sözün mənasını soruşur; şagirdlər ana dilində söyləyirlər. **Nümunə:** *What is Ann doing? She is climbing a tree. Can you climb trees? What is "climb?"* |
| **Məzmun xətti 2. Danışma** | |
| **Standart 4-2.1.** Sait və samitləri düzgün tələffüz edir. | |

| | |
|---|---|
| 4-2.1.1. İstiqamət verildikdə, çox yaxşı tanıdığı sözlərin tərkibində öz ana dilində olmayan bir sıra səsləri qismən aydın tələffüz edir. | Tərkibində çətin səslər olan çox tanış sözlərin nümunələri aşağıda verilmişdir: *homework*, *Thursday*, *they*, and *running*.<br>Şagirdlər tapşırıqda boş buraxılmış yerlərdə alış-verişlə bağlı sözlərdə hədəf səsi (və adətən qarışıq səsləri) tələffüz edirlər. **Nümunə:** For [ə]/[ʌ], *one chicken*, *a watermelon, some onions, spaghetti sauce, some vegetables*. |
| 4-2.1.2. İstiqamət verildikdə, şagirdlərin çox yaxşı tanıdığı sözlərin tərkibində öz ana dilində olmayan bir sıra səs birləşmələrini qismən aydın tələffüz edir. | Şagirdlər tərkibində [ŋ] səsi olan gündəlik fəaliyyətlərlə bağlı işlədilən sözləri tapşırıqda boş buraxılmış yerlərdə tələffüz edirlər. Hər bir şagirddə tərkibində [ŋ] səsi olan sözlərin siyahısı var. Bundan başqa digər şagirdin fəaliyyət siyahısındakı sözləri ifadə edən bir neçə şəkil var. **Nümunə:** *brushing his teeth, eating breakfast, eating dinner, studying, putting on his shoes, putting on his pajamas, playing with the cat.* S1: *When is he brushing his teeth?* S2: *In the morning. When is he eating breakfast?* S1: *In the morning.* |
| **Standart 4-2.2.** Vurğu və intonasiyadan düzgün istifadə edir. | |
| 4-2.2.1. İstiqamət verildikdə, çox yaxşı tanıdığı sözlərdə vurğunu düzgün qoyur. | Şagirdlər düzgün vurğudan istifadə edərək növbə ilə suallar verir və şəkildəki rəqəmləri göstərirlər.<br>**Nümunə:** S1: *How old is your brother?* S2: *He is fourTEEN. How old is your mom?* S1: *She is FORty.* |
| 4-2.2.2. İstiqamət verildikdə, çox yaxşı tanıdığı söz birləşmələrində vurğunu düzgün qoyur. | 4-2.2.1.-dəki fəaliyyət təkrar olunur. Lakin diqqət cümlə və söz birləşməsi vurğusuna yönəldilir.<br>**Nümunə:** S1: *HOW OLD is your BROther?* S2: *HE is fourTEEN. HOW OLD is your MOM?* S1: *SHE is FORty.* |
| **Standart 4-2.3.** Monoloji nitqdən istifadə edir. | |
| 4-2.3.1. Tanış sözlərdən istifadə edərək sadə, bir-biri ilə əlaqəsi olmayan söz birləşmələri və çox sadə cümlələr quraraq ünsiyyət yaradır. | Şagirdlərin hər birinin müxtəlif şəkilləri var. Onlar növbə ilə şəkilləri sinif yoldaşlarına göstərir və şəkildəki insanların nə etdiklərini söyləmələrini xahiş edirlər. **Nümunə:** *They are playing golf. She is doing her homework.* |
| **Standart 4-2.4.** Məlumat mübadiləsi apararaq müsahibədə iştirak edir. | |
| 4-2.4.1. Təkrarlara yol verərək, aydın və asta sürətlə, öyrənilən mövzular üzrə çox sadə suallar verir. | Hər bir şagirddə müxtəlif əşyaların siyahısı olan iş vərəqi var. Onlar növbə ilə şəkilləri sinfə göstərir və suallar verirlər. **Nümunə:** *What is it? What game can you play with it?* |
| 4-2.4.2. Təkrarlarla, aydın və asta sürətlə, öyrənilən mövzular üzrə çox sadə suallara cavab verir. | Hər bir şagirddə 2 şəkil var. Onlar növbə ilə şəkilləri sinfə göstərir və şəkillərə dair suallar və cavablar verirlər. **Nümunə:** S1: *What are they doing?* S2: *They are playing football.* |
| **Məzmun xətti 3. Oxu** | |

| | |
|---|---|
| **Standart 4-3.1.** İnformativ mətnləri oxuyub anlayır. | |
| 4-3.1.1. Vizual dəstəklə çox qısa və sadə informativ mətnlərdə az sayda olan sadə detalları tapır. | Şagirdlər 8 yemək növündən ibarət qısa təsvirli restoran menyusu oxuyurlar. Onlar iş vərəqində menyuda olan ən azı 5 yeməyin adını yazırlar. |
| 4-3.1.2. Vizual dəstəklə çox qısa və sadə informativ mətnlərdə az sayda olan sadə detalları anlayır. | 4-3.1.1.-dəki menyudan istifadə edərək şagirdlər menyudakı yemək növləri ilə bağlı suallara cavab verirlər. **Nümunə:**<br>*1.* **Ş 1:** *If you choose the chicken nuggets, how many do you get?* **Ş 2:***5.*<br>*2.* **Ş 1:** *What comes with the chicken nuggets?* **Ş 1:***French fries.* |
| **Standart 4-3.2.** Bədii mətnləri oxuyub anlayır. | |
| 4-3.2.1. Şəkillərlə verilən çox qısa və sadə bədii mətnlərdə az sayda olan sadə detalları tapır. | Şagirdlər şəkillərlə verilən qısa və sadə mətnə aid olan cümlələri tamamlamaq üçün uyğun sözləri seçirlər. |
| 4-3.2.2. Şəkillərlə verilən çox qısa və sadə bədii mətnlərdə az sayda olan sadə detalları anlayır. | Şagirdlər qısa və sadə mətni oxuyur və fəaliyyətləri insanlara uyğunlaşdırır. **Nümunə:** *Jack - doing homework, Grandma - working on the computer, Dad - listening to music və s.* |
| **Standart 4-3.3.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 4-3.3.1. Tanış və gündəlik mövzuya aid olan şəkil və ya ikonaların (təsvirlərin) müşayiəti ilə konkret hərəkətə və ya obyektə uyğun tanış olmayan sözlərin mənasını anlayır. | Şagirdlər qısa və sadə olan təsvirli mətni oxuyurlar. Mətndəki beş cümlədə konkret hərəkətə və ya obyektə aid olan, mənaları illüstrasiyalardan aydın şəkildə başa düşülə bilən tanış olmayan sözlər var. Şagirdlər bu sözlərin mənalarını təxmin edir və başqa səhifədə obyektin və ya hərəkətin şəklini düzgün sözə uyğunlaşdırırlar (bu halda, 2-3 əlavə şəkil olmalıdır). |
| 4-3.3.2. Çox sadə, tanış və gündəlik mövzuya aid olan mətndə konkret hərəkətə və ya obyektə uyğun bəzi tanış olmayan sözlərin mənasını anlayır. | Şagirdlər çox sadə kontekstdən gündəlik mövzuda tanış olmayan sözlərin mənasını təxmin edirlər. **Nümunə:** Şagirdlər ad günü mövzusunda mətn oxuyurlar . Mətndə tanış olmayan sözlər vardır: *candles* (B1; *There are 10 <u>candles</u> on the birthday cake.*) and *cheese* (A1; *They are making pizza. They put a lot of <u>cheese</u> on it. The <u>cheese</u> is white. They have cheeseburgers, too. That <u>cheese</u> is yellow.*). |
| **Məzmun xətti 4. Yazı** | |
| **Standart 4-4.1.** Bağlayıcılardan istifadə edərək rabitəli mətn yazır. | |
| 4-4.1.1. Cümlə daxilində sözləri çox sadə tabesizlik bağlayıcılarından istifadə edərək birləşdirir. | Şagirdlər *and* və ya *then* sözlərindən istifadə edərək gündəlik iş rejimləri haqqında cümlələr yazır. **Nümunə:** *I wash my hands <u>and/then</u> eat breakfast.* |
| **Standart 4-4.2.** Söz, söz birləşmələri və cümlələrdən istifadə edərək müxtəlif həcmli mətnlər yazır. | |

| | |
|---|---|
| 4-4.2.1. Çox sadə, bir-biri ilə əlaqəsi olmayan söz birləşmələri yazır. | Şagirdlər boş vaxtlarında etməkdən zövq aldıqları 3-5 fəaliyyətin siyahısını tərtib edirlər. **Nümunə:** *listening to music, playing video games, reading, talking on the phone, playing soccer/football.* |
| 4-4.2.2. Çox sadə, bir-biri ilə əlaqəsiz (bağlayıcısız) cümlələri yazır. | Şagirdlər səhər və ya axşam etdikləri işlərlə bağlı 3-5 cümlə yazır. **Nümunə:** *(First) I get up at 7:00. (Then), I brush my teeth and get dressed. (After that), I eat breakfast. (Next) I put on my shoes and get my backpack. (Finally) I go to school.* |
| 4-4.2.3. Çox sadə, əlaqəsi olmayan ifadə və cümlələrdən istifadə edərək çox qısa və sadə qeyd yazır. | Şagirdlər dostlarına iki cümlə və ya iki ifadədən ibarət qeydlər yazırlar. **Nümunə:** *Let's eat lunch together*. or *Do you want to see a movie on Saturday?* |
| 4-4.2.4. Çox sadə, əlaqəsiz (bağlayıcısız) söz birləşmələri və cümlələrdən istifadə edərək çox qısa və sadə mesaj yazır. | Şagirdlər dostlarına iki cümlə və ya iki ifadədən ibarət mesajlar yazır (kağız üzərində). **Nümunə:** *I am at the museum. Where are you?* Or *We are at the park. Can you come here now?* |
| 4-4.2.6. Çox sadə, bir-biri ilə əlaqəsi olmayan söz birləşmələri və cümlələrdən istifadə edərək formaları doldurur. | Şagirdlər adları, doğum tarixi, yaşı, valideynlərinin adları, ünvanı, şəhəri, məktəb adı, hansı dillərdə danışa bilməsi və boş vaxtlarında hansı fəaliyyətlə məşğul olduqları ilə bağlı formanı doldururlar. |
| **Standart 4-4.3.** Əsas məlumatı, fikirləri yazılı formada çatdırır. | |
| 4-4.3.1. Bəsit olan dəqiq məlumatı çox sadə formada çatdırır. | Bax 4-4.2.1., 4-4.2.2., 4-4.2.3., 4-4.2.4., 4-4.2.6. |
| **V SİNİF** | |
| **Məzmun xətti 1. Dinləmə** | |
| **Standart 5-1.1.** Sözləri, söz birləşmələrini, nəqli və sual cümlələrini anlayır. | |
| 5-1.1.1. Aydın və asta sürətli nitqdə tanış və gündəlik mövzularda olan konkret məlumatları adətən tanıyır. | Şagirdlər mətni dinləyir və onlara tanış olan gündəlik mövzular üzrə konkret məlumatın çoxunu tanıyırlar. Bu halda əvvəlcədən lüğətin öyrədilməsi lazım ola bilər. Şagirdlər mətndə hər hansı bir faktın əks olunub və ya olunmaması ilə bağlı suallara cavab verirlər. **Nümunə:** *The woman wants to eat ___ for lunch.* |
| 5-1.1.2. Aydın və asta sürətli nitqdə mövcud situasiyaya və insanlara aid olan söz birləşmələri və ifadələrin mənasını anlayır. | Mətni dinləyərkən şagirdlər mövcud situasiyaya və insanlara aid olan xüsusi məlumatlara qulaq asırlar. **Nümunə:** Müəllimin stolunun üstündə 5 kitab var. Müəllim deyir: *The red book is from the library. The blue book is a math book.* Students have a worksheet with *1. Which book is from the library? 2. What is the blue book about?* Şagirdər dinləmə zamanı suallara cavab verirlər. Onlara cavabları iş vərəqində yazmağa vaxt verilir. |

| | |
|---|---|
| 5-1.1.3. Aydın və asta sürətli nitqdə qısa və sadə sualları və bəyanatları anlayır. | Müəllim və ya sinif yoldaşı hər hansı bir cümlə deyəndə və ya sadə sual verəndə şagirdlər onları anlayır və düzgün cavablandırırlar. **Nümunə:** T: *What day is it today?* S: *It's Monday.* |
| 5-1.1.4. Mənanı mənimsəmək üçün uzun fasilələrlə verilən çox asta və aydın nitqi anlayaraq qeyd aparır. | Mənanı mənimsəmək üçün uzun fasilələr (4-5 saniyə) verilir. Şagirdlər evdə görməli olduqları işlər haqqında iki nəfərin söhbətini dinləyirlər. Hər bir danışanın nitqindən sonra fasilə verilir və şagirdlər ev işlərinin siyahısını yazır. |
| **Standart 5-1.2.** Təlimat, istiqamət, elan və sinifdaxili müraciətləri dinləyib anlayır. | |
| 5-1.2.1. Aydın və asta sürətlə təqdim olunan sadə təlimat və sinifdaxili müraciətlərin əksəriyyətini anlayır. | Müəllim aydın və asta sürətlə sadə təlimatlar verir və sinifdaxili müraciətlər edir, şagirdlər isə hərəkətləri yerinə yetirirlər. |
| 5-1.2.2. Aydın və asta sürətlə səsləndirilən mesaj və elanlarda əksər ədəd, qiymət, vaxt bildirən ifadələri anlayır. | Şagirdlər supermarketin satış qiymətləri ilə bağlı elanına qulaq asırlar. Şagirdlər hər bir əşyanın adının yanına qiymətini yazırlar. **Nümunə:** *1 kg of flour ___, 10 large eggs ___, 1 kg of potatoes ___, chocolate bars ___*, və s. |
| 5-1.2.3. Aydın və asta sürətlə səsləndirilən dinləmə mətnində əşyanın yaxın ətrafdakı yerinin ifadə olunduğu cümlələri anlayır. | Şagirdlər növbə ilə sinifdə əşyaların harada olduğunu sinif yoldaşına deyirlər. Həmin şagird əşyanı göstərməlidir. **Nümunə:** Ş1: *The ruler is on the teacher's desk.* → Ş2 points at the desk and the ruler. |
| **Standart 5-1.3.** Canlı və ya lentə yazılmış materialları dinləyib anlayır. | |
| 5-1.3.1. Aydın, çox asta sürətlə və uzun fasilələrlə səsləndirilən nitqdə gündəlik mövzulara aid olan qısa monoloq və dialoqlarlda konkret detalları anlayır. | Şagirdlər gündəlik işlərlə bağlı üç qısa dialoqa qulaq asır və cədvəl üzrə boş buraxılmış xanaları doldururlar. Bəzi boşluqlar vaxtlar üçün, bəziləri isə fəaliyyətlər üçün olacaq. **Nümunə:** *He _______ at 7:00 a.m., He leaves for school at _____*, və s. |
| 5-1.3.2. Aydın, çox asta və uzun fasilələrlə səsləndirilən nitqdə öyrənilən mövzularla bilavasitə bağlı olan öngörülən situasiyada izah edilən çox sadə məlumatları anlayır. | Şagirdlər video çarxa baxır, söhbətə qulaq asır və cütlərlə işləyərək mətnin məzmununu ümumiləşdirirlər. **Nümunə:** *Video çarxda iki şagird kitabxananın girişində dayanıb. Çöldə yağış yağır. Onlar nə edəcəklərini müzakirə edir, 20 dəqiqə içəridə gözləmək qərarına gələrək yağışın dayanacağına ümid edirlər. Şagirdlər cütlərlə söhbətin bir və ya iki cümlədən ibarət xülasəsini hazırlayırlar. (Yağış yağdığı üçün onlar 20 dəqiqə kitabxanada qalacaqlarına qərar verirlər).* |
| **Standart 5-1.4.** Dialoq və söhbətləri dinləyib anlayır. | |

| | |
|---|---|
| 5-1.4.1. Aydın, çox asta sürətlə və arabir təkrarla səsləndirilən nitqdə söhbət əsnasında gündəlik həyata və konkret tanış mövzulara aid olan bəzi sözləri anlayır. | Şagirdlər dörd qısa söhbətə qulaq asırlar. Burada, söhbət adətən bir neçə qısa cümlələrdən ibarətdir.Hər söhbətdə bir nəfər səyahət zamanı havanı təsvir edir. Şagirdlər həmin şəxsin hara səyahət etdiyini və orada havanın necə olduğunu yazır. Hər söhbətdən sonra cavablarını sinif yoldaşı ilə müqayisə edirlər. **Nümunə:** *He was in Shaki. It was snowing.* |
| 5-1.4.2. Aydın, çox asta sürətlə və arabir təkrarla səsləndirilən nitqdə söhbət əsnasında gündəlik həyata və konkret tanış mövzulara aid olan bəzi detalları anlayır. | Şagirdlər Əli və Aydanın hansı günlərdə hansı fənləri oxuduqları ilə bağlı söhbətə qulaq asırlar. Onlar Əli və Aydanın dərsləri və görüşdükləri günlərin siyahısını hazırlayırlar. Şagirdlər daha sonra 3-4 nəfərlik kiçik qruplarda cavablarını müqayisə edirlər. |
| **Standart 5-1.5.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 5-1.5.1. Sadə, tanış və gündəlik mövzuya aid mətndə konkret hərəkətə və ya obyektə uyğun tanış olmayan sözün mənasını anlayır. | Şagirdlər mətbəx aləti və ya cihazı almaq üçün alış-verişə getməklə bağlı bir neçə qısa cümləyə qulaq asırlar. Hər bir söhbətdə danışan həmin alətin ona nə üçün lazım olduğunu izah edir. Şagirdlərdə alətin adı və başqa mümkün ola bilən üç əşyanın şəkli olan iş vərəqi var və onlar düzgün şəkli dairəyə alırlar. **Nümunə:** 1. *I need to buy a new whisk. I need to mix the eggs for an omelet.* 2. *I need to get a new grater. I need to grate the cheese for a pizza, and also to put on my omelet.*<br>*Whisk* üçün "bıçaq", "çırpma" və "şiş" şəkilləri verilmişdir. *Grater* üçün "mətbəx küreyi", bir cüt "çubuq" və "sürtgəc" şəkilləri verilmişdir. |

| **Məzmun xətti 2. Danışma** | |
|---|---|
| **Standart 5-2.1.** Sait və samitləri düzgün tələffüz edir. | |
| 5-2.1.1. Bir az istiqamət verildikdə tanış sözlərin çoxunda ana dilində olmayan bir sıra səsləri qismən uyğunlaşdıraraq tələffüz edir. | Şagirdlər tərkibində hədəf səs (və adətən qarışdırıla bilən səslər) olan sözlərdən ibarət paltar və aksessuarların alış-verişi ilə bağlı "məlumat boşluğu fəaliyyəti" həyata keçirirlər. **Nümunə:** [w] üçün, *sweater*, *swimsuit, watch, warm socks, wallet, wool scarf, waterproof boots, windbreaker.* |
| 5-2.1.2. Bir az istiqamət verildikdə tanış sözlərin çoxunda ana dilində olmayan bir sıra səs birləşmələrini qismən uyğunlaşdıraraq tələffüz edir. | Şagirdlər [s] + samit birləşməsindən istifadə edərək məktəb mövzusunda "məlumat boşluğu fəaliyyəti" həyata keçirirlər. **Nümunə:** *school, study, schedule, sleep (during class!), stickers, spend time, stand, snack, slow, stop, speak, spring term*, etc. |
| **Standart 5-2.2.** Vurğu və intonasiyadan düzgün istifadə edir. | |

| | |
|---|---|
| 5-2.2.1. Bir az istiqamət verildikdə, tanış sözlərin çoxunun vurğusunu düzgün qoyur. | Şagirdlər cütlərlə növbə ilə düzgün vurğudan istifadə edərək sinifdəki əşyaların və ya insanların adlarını söyləyirlər və onların sinif yoldaşları şəxs və ya əşyaya işarə edirlər. **Nümunə:** *exchange student, your favourite colour, four girls, two boys, door, globe,* etc. |
| 5-2.2.2. Bir az istiqamət verildikdə, tanış söz birləşmələrinin çoxunun vurğusunu düzgün qoyur. | Şagirdlər cütlərlə növbə ilə ifadə və cümlələrdə düzgün vurğu istifadə edərək sinifdəki insan və əşyaların harada olduğu barədə suallar verirlər. Onların sinif yoldaşları həmçinin düzgün vurğudan istifadə edərək şəxsin və ya əşyanın harada olduğunu cavablarında söyləyirlər.<br>**Nümunə:** S1: *WHERE is the TEACHER?* S2: *The TEACHER is beside the DESK.* S2: *WHERE is ARIFA?* S1: *SHE is in front of the WINDOW.* |
| **Standart 5-2.3.** Monoloji nitqdən istifadə edir. | |
| 5-2.3.1. Tanış sözlər, sadə, bir-biri ilə əlaqəsiz (bağlayıcısız) söz birləşmələri və sadə cümlələrdən istifadə edərək çox asta sürətlə və qısa danışır. | Şagirdlərin hər birinin müxtəlif şəkil və ya əşyaları var. Onlar şəkil və ya əşyaları öz sinif yoldaşına göstərir, əşyanın nə olduğunu və əşya barədə bir təsviredici söz söyləyirlər. **Nümunə:** *This is an apple. It is red.* |
| **Standart 5-2.4.** Məlumat mübadiləsi apararaq müsahibədə iştirak edir. | |
| 5-2.4.1. Cüzi təkrarla öyrənilən mövzular üzrə aydın şəkildə və aramla sadə suallar verir. | Şagirdlərin hər birinin fərqli şəkilləri və ya əşyaları var. Onlar növbə ilə şəkilləri və ya əşyaları sinif yoldaşına göstərir və şəkilləri adlandırmağı onlardan xahiş edir və şəkillər və ya əşyalar haqqında suallar verirlər.<br>**Nümunə:** S1: *What is this?* S2: *It is an apple.*<br>S1: *What colour is it?* S2: *It is red.* |
| 5-2.4.2. Cüzi təkrarla öyrənilən mövzular üzrə aydın şəkildə və aramla sadə suallara cavab verir. | Bax 5-2.4.1. |
| 5-2.4.3. Cüzi təkrarlarla öyrənilən mövzular üzrə çox sadə fikirləri aydın şəkildə və aramla ifadə edərək cavablandırır. | Bax 5-2.1.1., 5-2.1.2., 5-2.2.1., 5-2.2.2., 5-2.3.1., and 5-2.4.1. |
| **Məzmun xətti 3. Oxu** | |
| **Standart 5-3.1.** İnformativ mətnləri oxuyub anlayır. | |
| 5-3.1.1. Vizual dəstəklə çox qısa və sadə informativ mətnlərdə az sayda olan detalları tapır. | Şagirdlər dünyanın 3 müxtəlif şəhərində gündəlik hava haqqında təsvirli mətn parçası oxuyurlar. Onlara axtarıb tapmaq üçün mətndə altından xətt çəkilmiş bir neçə təfərrüatın siyahısı verilir. |

| | |
|---|---|
| 5-3.1.2. Vizual dəstəklə çox qısa və sadə informativ mətnlərdə az sayda olan detalları anlayır. | 5-3.1.1.-də verilən mətndən istifadə edərək, mətnin xüsusi təfərrüatları barədə suallara cavab verirlər. Suallar aşağıda qeyd olunan formada ola bilər: Şagirdlər cümləni tamamlamaq üçün uyğun sözü(sözləri) seçirlər; şagirdlər şəkilləri insanlara və ya əşyalara uyğunlaşdırır və yaxud insanları əşyalara uyğunlaşdırır; 3 və ya 4 çoxseçimli suallar; və ya cavab vermək üçün 1-2 söz ilə ifadə olunan qısa cavablı suallar. |
| **Standart 5-3.2.** Bədii mətnləri oxuyub anlayır. | |
| 5-3.2.1. Şəkillərlə verilən çox qısa və sadə bədii mətnlərdə az sayda olan detalları tapır. | Şagirdlər bir oğlanın gündəlik işləri haqqında təsvirli hekayə oxuyurlar. Onlar mətndə verilmiş bir neçə təfərrüatı tapır və altından xətt çəkirlər. |
| 5-3.2.2. Şəkillərlə verilən çox qısa və sadə bədii mətnlərdə az sayda olan detalları anlayır. | 5-3.2.1.-də verilən mətndən istifadə edərək, mətnin xüsusi təfərrüatları barədə suallara cavab verirlər. Suallar aşağıda qeyd olunan formada ola bilər: Şagirdlər cümləni tamamlamaq üçün uyğun sözü(sözləri) seçirlər; şagirdlər şəkilləri insanlara və ya əşyalara uyğunlaşdırır və yaxud insanları əşyalara uyğunlaşdırır; 3 və ya 4 çoxseçimli suallar; və ya cavab vermək üçün 1-2 söz ilə ifadə olunan qısa cavablı suallar. |
| **Standart 5-3.3.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 5-3.3.2. Çox sadə, tanış və gündəlik mövzuya aid olan mətndə konkret hərəkətə və ya obyektə uyğun tanış olmayan sözlərin mənasını kontekstdən anlayır. | Şagirdlər geyimlə bağlı 6 tanış olmayan sözdən ibarət (A2 və daha yuxarı dil səviyyəsi) mətn parçasını oxuyurlar. Mətn şagirdlərin sözlərin mənalarını anlamaları üçün kifayət qədər məlumat verir. Daha sonra şagirdlərə hər söz üçün geyim əşyalarının 3-4 şəkli verilir və onlar sözü düzgün şəklə uyğunlaşdırırlar. **Nümunə:** *John's jeans are too big. He needs a <u>belt</u>. Jennifer is wearing a T-shirt. She is cold. She wants a <u>sweater</u>. → 1. Pictures of A. shoes B. pants C. a belt. 2. Pictures of A. a T-shirt B. shorts C. a sweater.* |
| **Məzmun xətti 4. Yazı** | |
| **Standart 5-4.1.** Bağlayıcılardan istifadə edərək rabitəli mətn yazır. | |
| 5-4.1.1. Cümlə daxilində sözləri və yaxud sadə söz birləşmələrini çox sadə tabesizlik bağlayıcılarından istifadə edərək birləşdirir. | Şagirdlər çox sadə bağlayıcılardan istifadə edərək cümlələr yazırlar. Çox sadə tabesizlik bağlayıcıları *and* və ya *then* və yaxud *next* və ya *too* bağlayıcılarıdırlar.<br>Şagirdlər bu sözlərdən istifadə edərək mürəkkəb mübtəda, mürəkkəb xəbər və ya çoxsaylı sifətləri bir-biri ilə əlaqələndirirlər. **Nümunə**: *We swim in the sea <u>and</u> play in the sand in summer. Louis <u>and</u> Marie like cake. It is sunny today, <u>and</u> it is hot, <u>too</u>.* |

| | |
|---|---|
| **Standart 5-4.2.** Söz, söz birləşmələri və cümlələrdən istifadə edərək müxtəlif həcmli mətnlər yazır. | |
| 5-4.2.1. Bəzən çox sadə tabesizlik bağlayıcılarından istifadə edərək bir sıra çox sadə söz birləşmələri yazır. | Şagirdlərə hekayəni izah edən 6 şəkil dəsti verilir. Şagirdlər hər bir şəkildə baş verənləri təsvir edən bir söz birləşməsi və ya cümlə yazır. 2-3 şəkil iki nəfəri, iki əşyanı və s. göstərir və şagirdlər çox sadə bağlayıcılardan istifadə edərək həmin şəkillərə aid söz birləşmələrini bir-birinə bağlayaraq cümlə qururlar. **Nümunə:** *The boy rides the bus and goes home. He eats dinner. He watches TV. He goes to bed.* |
| 5-4.2.2. Mövzu üzrə linqvistik cəhətdən bir-biri ilə əlaqəsiz (bağlayıcısız) sadə cümlələr yazır. | Bax 5-4.2.1. Cümlələr semantik əlaqədədir. Məsələn: *The boy goes home. He eats dinner. He watches TV. He goes to bed.* |
| 5-4.2.3. Sadə bir-biri ilə əlaqəsi olmayan söz birləşmələri və cümlələrdən istifadə edərək çox qısa və çox sadə qeyd yazır. | Şagirdlər anadan oğluna və ya qızına qeyd yazır. Qeyd 3 cümlədən ibarətdir və ananın saat neçədə evdə olacağını və ona 2 iş görməsini söyləyir. Cümlələr linqvistik cəhətdən əlaqəli deyil. **Nümunə:** *I will be home at 6:30. Do your homework. Clean your room.* |
| 5-4.2.4. Sadə bir-biri ilə əlaqəsi olmayan söz birləşmələri və cümlələrdən istifadə edərək çox qısa və çox sadə mesaj yazır. | Şagirdlər dostuna simulyasiya edilmiş mesaj (kağız üzərində) yazır. Mesaj 2 cümlədən ibarətdir — birinci cümlə şənbə günü havanın necə olacağını, ikinci cümlə isə dostuna müəllifin həmin gün nə etmək istədiyini bildirir. **Nümunə:** *It will be rainy on Saturday. I want to go to the park.* |
| 5-4.2.5. Sadə, bir-biri ilə əlaqəsiz (bağlayıcısız) söz birləşmələri və cümlələrdən istifadə edərək çox qısa və çox sadə elektron məktub yazır. | Şagirdlər Azərbaycana səfər edən dostuna simulyasiya edilmiş e-məktub (kağız üzərində) yazır. Onlar bu gün havanın necə olduğunu və sabah necə olacağını deyirlər. Dostuna nə geyinməli və ya geyinmək üçün nə götürməli olduqlarını söyləyirlər. **Nümunə:**<br>*Dear Gulshan,*<br>*Yesterday was cold and rainy. Today is cold and rainy. You need to have an umbrella.* |
| **Standart 5-4.3.** Əsas məlumatı, fikirləri yazılı formada çatdırır. | |
| 5-4.3.1. Bəsit olan dəqiq məlumatı sadə formada çatdırır. | Bax 5-4.2.1., 5-4.2.3., 5-4.2.4., 5-4.2.5. |
| **VI SİNİF** | |
| **Məzmun xətti 1. Dinləmə** | |
| **Standart 6-1.1.** Sözləri, söz birləşmələrini, nəqli və sual cümlələrini anlayır. | |

| | |
|---|---|
| 6-1.1.1. Aydın və asta sürətli nitqdə tanış və gündəlik mövzulara dair konkret məlumatları ardıcıl olaraq tanıyır. | Şagirdlər tanış və gündəlik mövzularda olan konkret məlumatları mətni dinləyərək tam və ya natamam anlayır. Mətni dinləməzdən əvvəl mətndə olan yeni sözlər ilə şagirdləri tanış etmək lazımdır. Şagirdlər məzmuna görə mətndə olan və yaxud daxil olmayan sualları cavablandırırlar. **Nümunə:** *The girl wants to have a ___ for a pet.* |
| 6-1.1.2. Aydın və çox asta sürətli, tez-tez fasilələrlə olan nitqdə həyatının ən mühüm sahələrinə aid olan söz birləşmələri və ifadələrin mənasını anlayır. | Mətni dinləyərkən şagirdlər xüsusi məlumatları anlayırlar. **Nümunə:** Dinləmə mətni Aygünün anasının bazarliq etməsi və nə alması barədədir. Şagirdlər iş vərəqlərində aşağıdakı sualları cavablandırmalıdırlar. *1. What vegetables is she buying?- Potatoes and onions. 2. What kind of meat is she buying?- Beef and turkey.* |
| 6-1.1.3. Aydın nitqdə qısa və sadə sualları və bəyanatları anlayır. | Müəllim və ya şagird tərəfindən səsləndirilən cümləni və ya sadə sualı verərkən şagirdlər onları anlayır və cavablandırır. **Nümunə:** T: *What kind of cheese did your mother buy last week?* S: *White cheese.* |
| 6-1.1.4. Mənanı mənimsəmək üçün qısa fasilələrlə verilən çox asta və anlaşılan nitqi dinləyərək qeyd aparır. | Mənanı mənimsəmək üçün qısa fasilələr 2-3 saniyəyə qədər davam edir. Şagirdlər cütlər arasında olan 3 dialoqa qulaq asırlar və məktəbdənkənar fəaliyyətləri ilə bağlı dialoqları dinləyirlər. Hər bir dialoqun arasında fasilə olur və şagirdlər dinlədiyi mətnə əsasən hərəkətlərin adlarını siyahı şəklində yazırlar. Hər bir dialoqdan sonra şagirdlər yazılarını müqayisə edirlər. |
| **Standart 6-1.2.** Təlimat, istiqamət, elan və sinifdaxili müraciətləri anlayır. | |
| 6-1.2.1. Aydın təqdim olunan təlimat və sinifdaxili müraciətlərin əksəriyyətini anlayır. | Müəllim sinifdaxili müraciətləri və ya təlimatları aydın səsləndirir və şagirdlər onları həyata keçirirlər. **Nümunə:** Listen to the track and cross the wrong word/phrase**.** |
| 6-1.2.2. Aydın səsləndirilən mesaj və elanlarda rəqəm, qiymət, vaxt bildirən ifadələri anlayır. | Şagirdlər məktəb klubunun görüşü və ya başqa hadisələr ilə bağlı elanı dinləyirlər. Şagirdlər bu tədbirin vaxtını və yerini qeyd edirlər. **Nümunə:** *The Drama Club meets at 2:15 p.m. in Room 35, The Chess Club meets at 2:00 p.m. in the cafeteria*, etc. |
| 6-1.2.3. Aydın səsləndirilən dinləmə mətnində əşyanın yaxın ətrafdakı yerinin ifadə olunduğu cümlələri anlayır. | Şagirdlər xəritəyə əsasən şəhərdə yerləşən müxtəlif yerlərdən məlumat verirlər. Şagirdlər xəritədə adı çəkilən yeri göstərməlidir. **Nümunə:** S1: *The post office is in front of the bank.* → S2 points at the building across the street from the bank. S2: *The sandwich shop is between the cinema and the library.* → S1 points at the building between the cinema and the library. |
| **Standart 6-1.3.** Canlı və ya lentə yazılmış materialları dinləyib anlayır. | |

| | |
|---|---|
| 6-1.3.1. Aydın, asta sürətlə və qısa fasilələrlə səsləndirilən nitqdə gündəlik mövzulara dair qısa monoloq və dialoqlarda konkret detalları anlayır. | Şagirdlər üç qısa dialoqu dinləyir və təqdim olunan cədvəli doldururlar. Cədvəlin bəzi hissələri zaman və bəziləri tədbirlərə aiddir. **Nümunə:** *Elizabeth comes home at 4:00, She eats dinner at* 5:30, etc. |
| 6-1.3.2. Aydın, çox asta və qısa fasilələrlə səsləndirilən nitqdə öyrənilən mövzularla bilavasitə bağlı olan öngörülən situasiyada izah edilən çox sadə məlumatları anlayır. | Şagirdlər video çarxa baxır və dialoqu dinləyir. Ondan sonra cütlər ilə müzakirə edir, gördükləri video çarxda əks olunan hadisələr ilə bağlı söhbət aparırlar. **Nümunə:** Video çarxda iki şagird muzeyin girişində dayanıb. Çöldə qar yağır. Onlar nə edəcəklərini müzakirə edir,15 dəqiqə içəridə gözləmək qərarına gəlir və qarın dayanacağına ümid edirlər. Şagirdlər cütlərlə söhbətin iki və ya üç cümlədən ibarət xülasə hazırlayırlar. (Qar yağdığı üçün muzeydə 15 dəqiqə qalacaqlarına qərar verirlər). |
| **Standart 6-1.4.** Dialoq və söhbətləri dinləyib anlayır. | |
| 6-1.4.1. Aydın, birbaşa, çox asta sürətlə, çoxsaylı təkrar və ya fərqli formada səsləndirilən nitqdə söhbət əsnasında gündəlik həyata və konkret tanış mövzulara aid olan çox sözləri, söz birləşmələrini və ifadələri anlayır. | Dialoq bir neçə qısa cümlələrdən ibarətdir. Şagirdlər 4 qısa dialoqu dinləyir. Hər dialoqda bir şəxs səyahətləri zamanı olan hava haqqında söhbət aparır. Şagirdlər şəxsin hara getdiyini, havanın necə olduğu haqqında eşitdiyini yazırlar. Hər bir dialoqdan sonra onlar cavabları müzakirə edirlər. **Nümunə:** *She was in Guba. It was raining.* |
| 6-1.4.2. Aydın, birbaşa, çox asta sürətlə, çoxsaylı təkrar və ya fərqli formada səsləndirilən nitqdə söhbət əsnasında gündəlik həyata və konkret tanış mövzulara aid olan detalların çoxunu anlayır. | Şagirdlər Yusif və Fidanın məktəbdənkənar fəaliyyətləri haqqında mətni dinləyirlər. Hər bir dialoq üzvünə aid məlumatları yazırlar. Daha sonra 3-4 nəfərdən ibarət kiçik qruplarda şagirdlər yazılarını müzakirə edirlər. |
| **Standart 6-1.5.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 6-1.5.1. Sadə, tanış və gündəlik mövzuya dair mətndə bəzi tanış olmayan sözlərin mənasını monoloq və ya söhbətdə işləndiyi yerdən və ya başqa kontekst ipuclarının köməyi ilə anlayır. | **Nümunə:** Şagirdlər dialoqa qulaq asır və söhbətdə bəzi tanış olmayan ifadələrin mənasını çıxarırlar. Söhbətdə bir natiq *'Tsup!* (*What's up?* ifadəsinin qısaltması) deyir və şagirdlər ifadənin söhbətin əvvəlindəki mövqeyindən belə nəticə çıxarırlar ki, bu, *Hello* və ya *How are you?* deməkdir. Eynilə, şagird daha sonra *Later gator!* deyərək söhbəti bitirir və şagirdlər bunun *Goodbye* üçün jarqon ifadəsi olduğu qənaətinə gəlirlər. |
| **Məzmun xətti 2. Danışma** | |
| **Standart 6-2.1.** Sait və samitləri düzgün tələffüz edir. | |

| | |
|---|---|
| 6-2.1.1. Cüzi istiqamət verildikdə tanış sözlərin çoxunda ana dilində olmayan bir sıra səsləri qismən uyğunlaşdıraraq tələffüz edir. | Şagirdlər tərkibində hədəf səslərlə (və adətən qarışdırıla bilən səslər) olan sözlərdən ibarət məlumat boşluğu fəaliyyəti həyata keçirirlər. **Nümunə:** For [ɛ] vs. [æ], *pet*, *fat, bat, cat, rat, get, rabbit, elephant, red, heavy, black*, etc. |
| 6-2.1.2. Cüzi istiqamət verildikdə tanış sözlərin çoxunda ana dilində olmayan bir sıra səs birləşmələrini qismən uyğunlaşdıraraq tələffüz edir. | Şagirdlər tərkibində hədəf səs birləşmələri ilə (və adətən qarışdırıla bilən səslər) olan sözlərdən ibarət məlumat boşluğu fəaliyyəti həyata keçirirlər. **Nümunə:** [-ld] and [-lt] hərf birləşmələrinin oxu qaydasını öyrətmək üçün məktəb klubunun 2 üzvü növbə ilə bir-birindən sinif yoldaşlarının şənbə günü tədbirdə iştirak edib- etməyəcəyini soruşurlar. Tədbirdə iştirak etmək istəməyən şagirdlər hamısı bəhanələr gətirirlər. S1: *Walt—told me yes. Susie—no—has a cold. Gulnara—no—the snow will melt, and her shoes will get wet.* S2: *Harry—no—needs to go buy a new belt. Samira—she told me yes. Fatima—no—has to see an old friend.* |
| **Standart 6-2.2.** Vurğu və intonasiyadan düzgün istifadə edir. | |
| 6-2.2.1. Cüzi istiqamət verildikdə, tanış sözlərin çoxunun vurğusunu düzgün qoyur. | Şagirdlər cüt-cüt növbə ilə şəkillərdəki əşyaların və ya insanların adlarını (münasibət, peşə və s.) düzgün vurğu istifadə edərək tələffüz edirlər və tərəfdaşları şəxs və ya əşyaya işarə edirlər. **Nümunə:** *three friends, a pretty girl, an exciting trip, an interesting lesson,* etc. |
| 6-2.2.2. Cüzi istiqamət verildikdə, tanış frazeoloji birləşmələrin çoxunun vurğusunu düzgün qoyur. | Şagirdlər cüt-cüt növbə ilə insanların və əşyaların harada olduğu barədə suallar verir, ifadə və cümlələrdə düzgün vurğu istifadə edirlər. Onların tərəfdaşları düzgün vurğudan istifadə edərək, şəxsin və ya əşyanın harada olduğu sualına cavab verirlər. **Nümunə:** S1: *WHO is the TALLest STUDent in the GROUP?* S2: *MURAD is the TALLest STUdent in the GROUP.* |
| 6-2.2.3. Çox məhdud sayda müxtəlif növ intonasiya və cümlə vurğusu nümunələrini düzgün tələffüz edir. | Bax 6-2.1.2. və 6-2.2.2. |
| **Standart 6-2.3.** Monoloji nitqdən istifadə edir. | |
| 6-2.3.1. Tanış sözlər, sadə, bir-biri ilə əlaqəsiz (bağlayıcısız) söz birləşmələri və sadə cümlələrdən istifadə edərək asta sürətlə və qısa danışır. | Şagirdlərin hər birinin müxtəlif şəkilləri və ya əşyaları var. Onlar şəkilləri və ya əşyaları öz tərəfdaşına göstərirlər, əşyanın nə olduğunu söyləyirlər və əşya barədə bir təsviredici söz söyləyirlər. **Nümunə:** *These are flowers. They are beautiful.* |
| **Standart 6-2.4** Məlumat mübadiləsi apararaq müsahibədə iştirak edir. | |

| | |
|---|---|
| 6-2.4.1. Öyrənilən mövzular üzrə aydın şəkildə və aramla sadə suallar verir. | Şagirdlərin hər birinin fərqli şəkilləri və ya əşyaları var. Onlar növbə ilə bu şəkilləri və ya əşyaları tərəfdaşına göstərir, onlardan adlandırmağı xahiş edir və onlar haqqında suallar verirlər. **Nümunə:** S1: *What are these?* S2: *These are flowers.* |
| 6-2.4.2. Öyrənilən mövzular üzrə aydın şəkildə və aramla sadə suallara cavab verir. | Bax 6-2.4.1. |
| 6-2.4.3. Öyrənilən mövzular üzrə sadə fikirləri aydın şəkildə və aramla ifadə edərək cavablandırır. | Bax 6-2.1.1., 6-2.1.2., 6-2.2.1., 6-2.2.2., 6-2.3.1., 6-2.4.1. |
| **Məzmun xətti 3.Oxu** | |
| **Standart 6-3.1.** İnformativ mətnləri oxuyub anlayır. | |
| 6-3.1.1. Çox qısa və sadə informativ mətnlərdə bəzi mövcud detalları tapır. | "Bəzi" sözü detalları ehtiva edən orijinal mətnlərə aiddir, lakin bu nə çox, nə də çox az mənasına gəlməməlidir.<br>Şagirdlər 6 məktəb dərnəyinin sadalandığı elanı oxuyurlar. Elanda dərnəyin adı, onun fəaliyyətinin nə vaxt və harada baş tutduğu bildirilir və dərnəyin 2 cümləlik təsviri verilir. Şagirdlərə hər dərnək haqda bir detal verilir (məsələn, görüş vaxtı, görüş yeri və ya dərnəyin maraq dairəsi) və mətndə o sözün altından xətt çəkilməsi tələb olunur. |
| 6-3.1.2. Çox qısa və sadə informativ mətnlərdə bəzi mövcud detalları anlayır. | 6-3.1.1.-dən istifadə edərək, mətnin xüsusi təfərrüatları barədə (hər dərnək üçün 2), o cümlədən, görüş vaxtı və yeri və ya dərnəyin maraq dairəsi haqqında anlama suallarına cavab verir; və ya həmin məlumatlardan birini nəzərə alaraq, onun hansı dərnəyə aid olduğunu müəyyən edirlər. |
| **Standart 6-3.2.** Bədii mətnləri oxuyub anlayır. | |
| 6-3.2.1. Çox qısa və sadə bədii mətnlərdə bəzi mövcud detalları tapır. | "Bəzi" sözü detalları ehtiva edən orijinal mətnlərə aiddir, lakin bu nə çox, nə də çox az mənasına gəlməməlidir.<br>Şagirdlər dərsdən sonra dərnək toplantısına, sonra isə anası üçün bəzi əşyalar almaq üçün mağazaya gedən şagird haqqında qısa hekayə oxuyurlar. Şagirdlər mətndə verilmiş 5 təfərrüatı tapır və altından xətt çəkirlər. |
| 6-3.2.2. Çox qısa və sadə bədii mətnlərdə bəzi mövcud detalları anlayır. | 6-3.2.1.-dən istifadə edərək, şagirdlər mətnin xüsusi təfərrüatları (məsələn, dərnək iclasında baş verənlər, qızın mağazaya və sonra evə necə getdiyi, və yaxud nə alması) haqqında anlama suallarına cavab verirlər. |
| **Standart 6-3.3.** Nəticə çıxararaq proqnozlaşdırır. | |

| | |
|---|---|
| 6-3.3.2. Sadə, tanış və gündəlik mövzulara dair mətndə konkret hərəkətə və ya obyektə uyğun tanış olmayan sözlərin mənasını kontekstdən anlayır. | Şagirdlər 6-3.2.1.-də göstərilən qısa hekayəni oxuyurlar. Həmin hekayə qızın mağazaya gedişi haqqındadır və şagirdlərə tanış olmayan 6 lüğət sözünü (bir neçəsi A2, lakin əsasən B1 və yuxarı olan səviyyə) ehtiva edir. Sözlərin mənasını anlamaq üçün mətn şagirdlərə kifayət qədər məlumat verir. **Nümunə:** *Angela also bought some aubergines, or eggplants. Her mother wanted the purple vegetables to cook with meat and tomatoes on kabobs. She also bought hamburger buns—her father says that a hamburger is OK on bread, but it is always better on a bun.* |
| 6-3.3.3. Yazılı mətndə rastlaşdığı bəzi sadə, tanış olmayan şablon ifadələrin məna və funksiyasını işləndiyi yerindən asılı olaraq anlayır. | Şagirdlər restoranda şam yeməyi sifariş edən iki nəfər haqqında hekayə oxuyurlar. Müəllim ana dilində əvvəlcədən öyrədir ki, rəsmi və ya yarı rəsmi nahar zamanı insanlar adətən qəlyanaltılar (bəzən başlanğıc adlanan), ehtimal ki, şorba və ya salat, əsas yemək və desert sifariş edirlər. Hekayədə şagirdlərin bilmədiyi ehtimal olunan bir neçə ifadə var; onlar sözlərin mənasını işləndiyi yerindən asılı olaraq anlayırlar. **Nümunə:** *The waitress asked, "Are you ready to order?" "Yes, please," David answered. "We are really hungry!" "OK," she said. "Let's start with drinks. What would you like to have?" "I'll have iced tea." Daniela said, "Me too, please." → 1. "Ready to order" means ___. **A.** want to tell the waitress what to give them **B.** finished eating **C.** need more tea 2. "Let's start with drinks" means ___. **A.** the waitress will give them their drinks before she gives drinks to other people **B.** first, tell the waitress what they want to drink **C.** start drinking before they ask for food* |
| **Məzmun xətti 4. Yazı** | |
| **Standart 6-4.1.** Bağlayıcılardan istifadə edərək rabitəli mətn yazır. | |
| 6-4.1.1. Bir sıra sadə söz birləşmələri və yaxud sadə cümlələri sadə tabesizlik bağlayıcılarından istifadə edərək birləşdirir. | Şagirdlər gündəlik iş rejimləri haqqında 4-5 cümlə yazır. Onlar cümlələri sadə tabesizlik bağlayıcılarının köməyilə əlaqələndirirlər. İlk qaralamanı yazdıqdan sonra bir sinif yoldaşı ilə iş vərəqlərinin mübadiləsini aparır və bağlayıcılardan daha yaxşı istifadə etmək üçün bir-birinə təkliflər verirlər. Sonra yenidən düzəliş aparılmış qaralama yazırlar. |
| **Standart 6-4.2.** Söz, söz birləşmələri və cümlələrdən istifadə edərək müxtəlif həcmli mətnlər yazır. | |

| | |
|---|---|
| 6-4.2.1. Bəzən çox sadə tabesizlik bağlayıcılarından istifadə edərək bir sıra sadə söz birləşmələri yazır. | Şagirdlər 6 şəkil dəstinə baxırlar. Hər şəkil iki nəfərin hər hansı bir hərəkət etdiyini və ya baş verən iki hadisəni əks etdirir. Şagirdlər *bağlayıcılardan* istifadə edərək hər bir şəkli təsvir edirlər. **Nümunə:** *Ali is playing basketball, and Sally is playing the piano. Mary is drinking coffee, and John is drinking coffee too.* |
| 6-4.2.2.Bəzən çox sadə tabesizlik bağlayıcılarından istifadə edərək bir sıra sadə cümlələr yazır. | Bax 6-4.1.1. |
| 6-4.2.3. Çox qısa və çox sadə qeyd yazır. | Şagirdlər valideyn adından uşağa qeyd yazaraq ondan bəzi ev işlərini yerinə yetirməyi xahiş edirlər. Qeyd ən azı 2-3 cümlədən və bir neçə çox sadə tabesizlik bağlayıcılarından ibarət olmalıdır. |
| 6-4.2.4. Çox qısa və çox sadə mesaj yazır. | Şagirdlər kağız üzərində dostuna simulyasiya edilmiş mesaj yazır. Mesaj 2 cümlədən ibarət olmalı və onlara dərsdən sonrakı fəaliyyət (dərnək iclası, idman məşqi və ya oyun və s.) haqqında məlumat verməlidir. |
| 6-4.2.5. Çox qısa və çox sadə elektron məktub yazır. | Şagirdlər başqa ölkədə yaşayan xəyali əmisi oğluna və ya dostuna elektron məktub yazır. Elektron məktubda 2 gün əvvəl olan, dünən, bu gün və sabah olacaq hava şəraiti təsvir edilir. Şagirdlər bir neçə çox sadə tabesizlik bağlayıcılarını məktuba əlavə etməlidirlər. Bitirdikdən sonra şagirdlər öncə bağlayıcıları, sonra isə feilin zaman formalarını bir-birinin yazı işini yoxlayaraq redaktə etməlidirlər. |
| **Standart 6-4.3.** Əsas məlumatı, fikirləri yazılı formada çatdırır. | |
| 6-4.3.1. Dəqiq məlumatı çox sadə formada və birbaşa çatdırır. | Bax 6-4.2.1., 6-4.2.3., 6-4.2.4., 6-4.2.5. |
| **VII SİNİF** | |
| **Məzmun xətti 1. Dinləmə** | |
| **Standart 7-1.1.** Sözləri, söz birləşmələrini, nəqli və sual cümlələrini anlayır. | |
| 7-1.1.1. Qısa, aydın və çox asta sürətli nitqin əsas mənasını anlayır. | Şagirdlər bir neçə qısa mətni dinləyir və onların əsas mənasını müzakirə edirlər; lüğətin öncədən öyrədilməsi mühüm əhəmiyyət kəsb edə bilər. Şagirdlər hər bir mətnin əsas ideyası ilə bağlı olan sualı cavablandırırlar.<br>**Nümunə:** *The passage is about… (3-4 options)* |

<table>
<tr><td>7-1.1.2. Aydın və çox asta sürətli, bəzi fasilələrlə olan nitqdə həyatının mühüm sahələrinə aid olan  söz birləşmələri və ifadələrin mənasını anlayır.</td><td>Mətni dinləyərkən şagirdlər insanlar, məkan və həyatın mühüm sahələrinə aid olan fəaliyyətlər barədə xüsusi məlumatları anlayırlar. Nümunə: Şəkildə 5 şagird var. Müəllim onları təsvir edir. Şagirdlərə aşağıdakı suallardan ibarət iş vərəqi verilir. 1. Which student is surprised? 2. Which student is excited? They answer the questions while listening, with time to finish writing afterwards.</td></tr>
<tr><td>7-1.1.3. Aydın nitqdə qısa sualları və bəyanatları anlayır.</td><td>Müəllim və ya şagirdlər əvvəlcədən oxuduqları, öyrəndikləri və yaxud tanış mövzulara aid cümlə deyərkən və ya qısa sual verərkən şagirdlər onları anlayır və düzgün cavablandırırlar. Nümunə: T: What is John’s job? Where does he work? Students then write or select the correct answers.</td></tr>
<tr><td>7-1.1.4. Mənanı mənimsəmək üçün bəzi fasilələrlə verilən asta və anlaşılan nitqi dinləyərək qeyd aparır.</td><td>“Bəzi fasilələrlə” pauza uzunluğundan asılı olaraq hər cümlədə 1-2 dəfə deməkdir. Pauzalar 1-2 saniyəyə qədər davam edir.<br>Şagirdlər 2-3 nəfərin asudə vaxtlarında həyata keçirdikləri sevimli fəaliyyətləri ilə bağlı söhbətə qulaq asırlar. Hər danışanın sözlərindən sonra fasilə verilir.  var. Şagirdlər hər bir danışana aid hərəkətlərin adlarını yazırlar.</td></tr>
<tr><td colspan="2">Standart 7-1.2. Təlimat, istiqamət, elan və sinifdaxili müraciətləri dinləyib anlayır.</td></tr>
<tr><td>7-1.2.1. Gündəlik tapşırıqlar üzrə çox bəsit təlimatları anlayır.</td><td>Müəllim gündəlik tapşırıqlar üzrə çox bəsit təlimatlar səsləndirir (sinifdaxili fəaliyyətlər, sinfi təmizləmə və səliqəyə salma və s.) və şagirdlər onları həyata keçirirlər.</td></tr>
<tr><td>7-1.2.2. Qısa, aydın, çox sadə mesaj və elanlarda əsas məqamı anlayır.</td><td>Şagirdlər bir neçə səsli mesajı dinləyir və əsas fikri anlayırlar. Onlar hər mesaja ya qısa cavab verir ya da çoxseçimli sual kimi cavablandırırlar.<br>Nümunə: 1. The message is about A. meeting a friend for pizza B. getting a job C. helping a friend with homework D. an invitation to a birthday party 2. The message is asking Amy to go to a <u>movie</u>.</td></tr>
<tr><td>7-1.2.3. Çox sadə istiqamətləri (A nöqtəsindən B nöqtəsinə qədər) anlayır.</td><td>Şagirdlər istiqamət verən insanların qısa söhbətlərinə qulaq asır və bir yerdən başqa yerə necə getməyi anlayırlar. Nümunə:  S1: How do you get from the library to the park? S2: Turn left. Then go straight.The park is opposite the bank.</td></tr>
<tr><td colspan="2">Standart 7-1.3. Canlı və ya lentə yazılmış materialları dinləyib  anlayır.</td></tr>
</table>

| | |
|---|---|
| 7-1.3.1. Aydın, asta sürətlə və bəzi fasilələrlə səsləndirilən nitqdə öngörülən gündəlik və ya öyrənilən mövzularla bilavasitə bağlı olan qısa hekayə, monoloq və dialoqlarda əsas məlumat və ya vacib məqamların çoxunu anlayır. | Şagirdlər gündəlik və ya öyrənilən mövzularla bilavasitə bağlı olan dörd qısa dialoqu dinləyir və təqdim olunan cədvəldə boşluqları doldururlar. Bəzi boşluqlar zamana, bəziləri isə fəaliyyətlərə aiddir. **Nümunə:** *Jane_______ at 7:00 a.m., She goes to school at* **_____**, etc. |
| 7-1.3.2. Aydın, asta sürətlə və bəzi fasilələrlə səsləndirilən nitqdə öngörülən gündəlik və ya öyrənilən mövzularla bilavasitə bağlı olan yayımlarda əsas məlumat və ya vacib məqamların çoxunu anlayır. | Şagirdlər video çarxa baxır və dialoqu dinləyir. Cütlər ilə video çarxda əks olunan hadisələri ümumiləşdirirlər. **Nümunə:** In the video, 3 classmates are standing near the school. They discuss tomorrow's birthday party, and decide what to buy as a present. In pairs, the students agree on a 2-3 sentence summary of the conversation. *(They say they will buy flowers and a box of sweets.)* |
| 7-1.3.3. Aydın, asta sürətlə və bəzi fasilələrlə səsləndirilən nitqdə öngörülən gündəlik və ya öyrənilən mövzularla bilavasitə bağlı olan, əyani vasitələrlə verilən sadə təqdimat və nümayişlərdə əsas məlumat və ya vacib məqamların çoxunu anlayır. | Şagirdlər mətbəxdə nənə ilə birlikdə sıyıq bişirmək barədə təlimat verən video çarxa baxırlar. Onlar verilmiş boşluqları doldurmaq üçün qeydlər aparır və sualları qısa cavablandırırlar. **Nümunə:** *In the kitchen, the granny explains how to cook porridge using milk and cereals.* |
| **Standart 7-1.4.** Dialoq və söhbətləri dinləyib anlayır. | |
| 7-1.4.1. Aydın, birbaşa, çox asta sürətlə, tez-tez təkrar və ya fərqli formada səsləndirilən nitqdə sadə gündəlik söhbətləri anlayır, qısa və sadə gündəlik mövzularda edilən fikir mübadiləsinin icmalını dinləyərək qeyd aparır. | Şagirdlər sadə gündəlik söhbəti ümumilikdə anlayır, lakin söhbətin bütün detallarını başa düşmək tələb olunmur. Şagirdlər növbə ilə bazar günü etdiklərini bir-birlərinə danışırlar. Onlar bir-birlərinə həyata keçirdikləri bir fəaliyyət barədə danışırlar, həmsöhbətlərinin dediklərini qeyd edirlər və lazım olduqda aydınlıq gətirmələrini və ya təkrar etmələrini xahiş edirlər. Sonra öz qeydlərindən istifadə edərək deyilənləri təsdiqləyirlər. **Nümunə:** *On Sunday our family left for the countryside and visited grandparents.* |
| 7-1.4.2. Aydın, birbaşa, asta sürətlə, çoxsaylı təkrar və ya fərqli formada səsləndirilən nitqdə söhbət əsnasında gündəlik həyata və konkret tanış mövzulara aid olan detalların əksəriyyətini anlayır. | Şagirdlər iki nəfər arasında 2 qısa (45-60 saniyəlik) söhbətə qulaq asırlar. Bir oğlan yaxın dostu və onunla olan dostluq münasibətindən danışır. Şagirdlər oğlanların kimin haqqında danışdıqlarını tapır və 2 seçimdən ibarət olan suala cavab verirlər. **Nümunə:** 1 nömrəli söhbətdə oğlan öz yaxın dostu, dostluqlarının necə başlaması və bir-birilərinə necə dəstək olduqları barədə danışır. |

| | |
|---|---|
| **Standart 7-1.5.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 7-1.5.1. Tanış və gündəlik mövzuya aid olan mətndə bəzi tanış olmayan söz və şablon ifadələrin mənasını monoloq və ya söhbətdə işlənmə yeri və ya başqa kontekst ipuclarının köməyi ilə anlayır. | Şagirdlər 4 naməlum ifadədən ibarət dialoqa qulaq asır, ya işləndiyi yerindən, ya da digər kontekst ipuclarından çıxış edərək ifadələrin nə demək olduğunu müzakirə edirlər. Şagirdlər daha sonra ifadələri mənalarına uyğunlaşdırırlar (verilmiş ifadələrin izahı ifadələrin özündən daha çox olmalıdır). **Nümunə:** *S1: How's it going? S2: Not bad, how about you? … S1: Hey, did you hear about that concert last night? The band really <u>ate and left no crumbs</u>. S2: Yeah, I heard they were really good. → A. How are you doing? B. did an excellent job C. OK, for sure D. a really good song* |
| 7-1.5.2. Mətnlərdə verilən gizli məlumat haqqında bəzən sadə nəticələr çıxarır. | "Gizli" məlumat birbaşa ifadə olunmayan, lakin mətnlərdə aydın şəkildə nəzərdə tutulan məlumatdır. Şagirdlər ad günü olan bir adama hədiyyə seçən sinif yoldaşları arasında baş tutan 3 söhbətə qulaq asırlar. Onların dediklərinə əsaslanaraq, şagirdlər uşaqların hansı mağazada olduqları və ya nə aldıqları barədə nəticə çıxarmalıdırlar. **Nümunə:** S1: These ones smell good. Let's get five red ones and four white ones! S2: Yeah, but they are expensive. → *buying flowers*. S1: I need some cookies, too. S2: That's right, but get a packet of small ones. This box looks really good. → *buying pastries*. |
| 7-1.5.3. Çox sadə hekayə və söhbətlərdə bundan sonra nə baş verəcəyini bəzən proqnozlaşdırır. | Şagirdlər ticarət mərkəzində iki sinif yoldaşının 3 qısa söhbətini dinləyir və bundan sonra nə olacağını proqnozlaşdırmalıdırlar. **Nümunə:** S1: *Well, I'm interested in detective stories. What about you?* S2: *I'm looking for comics.* Q: *What will they do next? → go to a book shop* |
| **Məzmun xətti 2. Danışma** | |
| **Standart 7-2.1.** Sait və samitləri düzgün tələffüz edir. | |
| 7-2.1.1. Arabir istiqamət verildikdə əksər tanış sözlərdə ana dilində olmayan bir sıra səsləri əsasən uyğunlaşdıraraq tələffüz edir. | Şagirdlər tərkibində hədəf səslərlə (və adətən qarışdırıla bilən səslər) olan sözlərdən ibarət məlumat boşluğu fəaliyyəti həyata keçirirlər. **Nümunə:** For [ɛ] vs. [æ], *p<u>e</u>t, f<u>a</u>t, b<u>a</u>t, c<u>a</u>t, r<u>a</u>t, g<u>e</u>t, r<u>a</u>bbit, <u>e</u>lephant, r<u>e</u>d, h<u>ea</u>vy, bl<u>a</u>ck*, və s. |

| | |
|---|---|
| 7-2.1.2. Ehtiyac olduğu halda, arabir istiqamətləndirmək şərtilə, əksər tanış sözlərdə ana dilində olmayan bir sıra səs birləşmələrini əsasən uyğunlaşdıraraq tələffüz edir. | Şagirdlər tərkibində hədəf səs birləşmələri ilə (və adətən qarışdırıla bilən səslər) olan sözlərdən ibarət məlumat boşluğu fəaliyyəti həyata keçirirlər. **Nümunə:**[-ld] and [-lt], hərf birləşmələrinin oxu qaydasını öyrətmək üçün məktəb klubunun 2 üzvü növbə ilə bir-birinə sinif yoldaşlarının şənbə günü tədbirdə iştirak edib etməyəcəyini soruşurlar. Tədbirdə iştirak etmək istəməyən şagirdlər hamısı bəhanələr gətirirlər. S1: *Walt—told me yes. Susie—no—has a cold. Gulnara—no—the snow will melt, and her shoes will get wet.* S2: *Harry—no—needs to go buy a new belt. Samira—she told me yes. Fatima—no—has to see an old friend.* |
| **Standart 7-2.2.** Vurğu və intonasiyadan düzgün istifadə edir. | |
| 7-2.2.1. Ehtiyac olduğu halda, arabir istiqamətləndirmək şərtilə, tanış sözlərin çoxunun vurğusunu düzgün qoyur. | Şagirdlər cütlərlə növbə ilə şəkillərdəki əşyaların və ya insanların adlarını düzgün vurğu istifadə edərək tələffüz edirlər və tərəfdaşları şəxs və ya əşyaya işarə edirlər. **Nümunə:** *JaPAN-JapaNESE, CAnada-CaNAdian,* və s. |
| 7-2.2.2. Ehtiyac olduğu halda, arabir istiqamətləndirmək şərtilə, tanış frazeoloji birləşmələrin çoxunun vurğusunu düzgün qoyur. | Şagirdlər cütlərlə növbə ilə frazeoloji feili və "Feil + ön söz" və ya" Feil + zərf" birləşmələrindən istifadə edərək, hərəkətin istiqamətinə dair məlumat verirlər. **Nümunə:** *go down Main Street, walk up the street, turn left/right, go across the street* və s. Hər bir şagirdin əlində şəhər xəritəsi var, lakin bəzi yerlərin yerləşməsi xəritədə qeyd olunmayıb. |
| 7-2.2.3. Məhdud sayda müxtəlif növ intonasiya və cümlə vurğusu nümunələrini düzgün tələffüz edir. | 7-2.2.2.-də olduğu kimi eyni xəritədən istifadə edərək, qapalı seçimli alternativ sual intonasiyasını məşq etmək üçün şagirdlər növbə ilə bir-birindən şimala və ya cənuba, şərqə və ya qərbə, sola və ya sağa getməyi (hansı istiqamətdə hərəkət etmələrini) soruşurlar. Bu fəaliyyətdə A nöqtəsindən B nöqtəsinə gedən istiqamətlər həmişə iki yer kimi qeyd olunmalı və eyni küçədə yerləşməlidir. **Nümunə:** *S1: To get from the bank to the post office, should I go east↗ or west↘?* |
| **Standart 7-2.3.** Monoloji nitqdən istifadə edir. | |
| 7-2.3.1. Tanış sözlər, sadə söz birləşmələri və bir-biri ilə əlaqələndirilmiş sadə cümlələrdən istifadə edərək qısa danışır. | Şagirdlər layihəyə hazırlaşırlar. Vəzifələri bölüşdürdükdən sonra şagirdlər kimin nə edəcəyi barədə qısaca məlumat verirlər. **Nümunə:** *Ayan will draw pictures, and Maryam will interview people. Also, Tahir will take photos.* |
| **Standart 7-2.4.** Məlumat mübadiləsi apararaq müsahibədə iştirak edir. | |

| | |
|---|---|
| 7-2.4.1. Öyrənilən mövzular üzrə aydın şəkildə sadə və birbaşa suallar verir. | Şagirdlər növbə ilə öyrənilən mövzular üzrə sadə və birbaşa suallar verirlər. **Nümunə:** *What causes water pollution?* |
| 7-2.4.2. Öyrənilən mövzular üzrə aydın şəkildə sadə və birbaşa suallara cavab verir. | Şagirdlər növbə ilə öyrənilən mövzular üzrə sadə və birbaşa suallara cavab verirlər. **Nümunə:** S1: *What causes water pollution? S2: Trash and chemicals.* |
| 7-2.4.3. Öyrənilən mövzular üzrə sadə fikirləri aydın şəkildə ifadə edir və cavablandırır. | Şagirdlər növbə ilə öyrənilən mövzu haqqında öz fikirlərini tərəfdaşı ilə bölüşürlər. **Nümunə:** *S1: We should take care of nature. S2: Sure, nature protection is very important.* |
| **Məzmun xətti 3.Oxu** | |
| **Standart 7-3.1.** İnformativ mətnləri oxuyub anlayır. | |
| 7-3.1.1. Çox qısa və sadə informativ mətnlərdə olan detalların çoxunu tapır. | Şagirdlər bir neçə restoran, hədiyyə mağazası, kişi və qadın geyim mağazası və şirniyyat mağazasının təsviri daxil olmaqla, böyük beynəlxalq oteldə mağaza və restoranların siyahısını oxuyurlar. Şagirdlər hər bir müəssisəni təsvir edən açar sözün və ya ifadənin altından xətt çəkməlidirlər. **Nümunə:** *Sakura: If you are looking for amazing <u>Japanese food</u>, this is the place. Our sushi and noodles are the best!* |
| 7-3.1.2. Çox qısa və sadə informativ mətnlərdə olan detalların çoxunu anlayır. | Bax 7-3.1.1.<br>Şagirdlər mətndəki təfərrüatlar haqqında suallara cavab verirlər.**Nümunə:** *1. People should go to Sakura if they like to eat ___ or ___.* |
| 7-3.1.3. Çox qısa və sadə informativ mətnlərdə olan əsas ideyanı və vacib fikirləri anlayır. | Bax 7-3.1.1. Şagirdlər hər bir müəssisənin adını onun təsvirinə uyğunlaşdırır. Təsvirlər adlardan daha çox (2 əlavə) olmalıdır. **Nümunə:** *Japanese restaurant—Sakura, gift shop—Thinking of You, Mexican restaurant—Comida, Italian restaurant—Paisano, American steakhouse—Roundup, fitness center—Big Sweat, candy store, women's clothing shop.* |
| **Standart 7-3.2.** Bədii mətnləri oxuyub anlayır. | |

| | |
|---|---|
| 7-3.2.1. Çox qısa və sadə bədii mətnlərdə olan detalların çoxunu tapır. | Çox qısa və sadə olmasına baxmayaraq, çox detalları əks etdirən mətnlərə aiddir.<br>Şagirdlər şənbə gününü birlikdə keçirən iki dost haqqında hekayə oxuyurlar. Hekayə onların hara getdiyini, nə etdiklərini və müxtəlif vaxtlarda havanın necə olduğunu izah edir. Sonra onlar hekayədəki adı çəkilən hər bir yerin adının altından xətt çəkirlər.<br>**Nümunə:** *Bill and Bob met at the park at 11:00 on a cloudy Saturday morning. They sat outside and talked about basketball. Then they went to Fish House to eat some fish for lunch. It got sunny after lunch, so they got some tea from the…* |
| 7-3.2.2. Çox qısa və sadə bədii mətnlərdə olan detalların çoxunu anlayır. | Şagirdlər 7-3.2.1.-dəki təfərrüatlar haqqında suallara cavab verirlər. |
| 7-3.2.3. Çox qısa və sadə bədii mətnlərdə olan əsas ideyanı və vacib fikirləri anlayır. | Şagirdlər 7-3.2.1.-də verilmiş mətnin əsas ideyası ilə bağlı çoxseçimli suala cavab verirlər. |
| **Standart 3.3** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 7-3.3.2. Aydın ipucları verildikdə, mətnin ümumi məzmununa əsaslanaraq bəzi tanış olmayan sözlərin və ifadələrin mənasını kontekstdən anlayır. | Şagirdlər 7-3.1.1.-də oteldə baş verən hadisə haqda hekayəni oxuyurlar. Hekayə bu oteldə valideynləri ilə birgə qalan bir qardaş və bacı haqqındadır. Mətndə şagirdlərə tanış olmayan 5 söz var və onlar sözlərin mənasını aydınlaşdırmaq üçün kontekst ipuçlarından istifadə etməlidirlər. **Nümunə:** They were hungry, so they went to Comida, the Mexican restaurant, to have a snack (A2). They ordered tortilla chips with queso (off-list). The Mexican cheese sauce tasted very good. Lisa said that she wanted to get the recipe (B1), so she could make the queso at home. |
| 7-3.3.3. Yazılı mətndə rastlaşdığı çoxsaylı sadə, tanış olmayan şablon ifadələrin mənasını və funksiyasını işləndiyi yerindən asılı olaraq anlayır. | Şagirdlərə simulyasiya edilmiş restoran menyusu verilir. Onlara menyunun müxtəlif bölmələri haqqında 3 variantdan ibarət çoxseçimli suallar verilir. Şagirdlər qəlyanaltı (siyahıdan kənar), yemək (siyahıdan kənar), məzə (siyahıdan kənar) və desertləri ifadə edən sözlərin mənasını çıxarmalıdırlar. (A2). |
| 7-3.3.5. Bəzi tanış olan mətn növlərini müəyyən edir. | Şagirdlər həftəlik supermarket satış broşüru, menyu, otel kataloqu və hekayəni bir-birindən fərqləndirirlər. |
| **Məzmun xətti 4.Yazı** | |
| **Standart 7-4.1.** Bağlayıcılardan istifadə edərək rabitəli mətn qurur. | |

| | |
|---|---|
| 7-4.1.1. Bir neçə sadə söz birləşmələri və ya sadə cümlələri sadə bağlayıcılardan istifadə edərək birləşdirir. | Şagirdlər bəyəndikləri və bəyənmədikləri şeylər (yemək, boş vaxtlarında fəaliyyətlər və s.) haqqında bir neçə cümlə yazırlar. Onlar ifadə və cümlələri sadə bağlayıcılarla əlaqələndirirlər. |
| **Standart 7-4.2.** Söz, söz birləşmələri və cümlələrdən istifadə edərək müxtəlif həcmli mətnlər yazır. | |
| 7-4.2.1. Sadə bağlayıcılardan istifadə edərək bir sıra sadə cümlələr yazır. | Bax 7-4.1.1. |
| 7-4.2.2. Sadə bağlayıcılardan istifadə edərək çox qısa, sadə, bir abzasdan ibarət mətn yazır. | Şagirdlər 7-3.1.1.-də otel haqqında çox qısa bir abzasdan ibarət mətn yazır. Oteldə hansı 3 yerə və nə üçün getmək istədiklərini izah edirlər. |
| 7-4.2.3. Çox qısa və sadə qeyd yazır. | Bax 7-3.1.1. Şagirdlər onlarla səyahət edən dost və ya ailə üzvünə qeyd yazır və qeydi otel otağında qoyurlar. Qeyddə şagirdin oteldə hara getdiyi izah edilir (məsələn, hovuza və ya hədiyyə mağazasına). |
| 7-4.2.4. Çox qısa və sadə mesaj yazır. | Bax 7-3.1.1., 7-4.2.3.: Şagirdlər bir-birlərinə kağız üzərində simulyasiya edilmiş mesajlar yazırlar və otelin hansı məkanına baş çəkəcəklərini müzakirə edirlər. |
| 7-4.2.5. Çox qısa və sadə elektron məktub yazır. | Bax 7-3.1.1., 7-4.2.3., 7-4.2.4.: Şagirdlər simulyasiya edilmiş elektron məktub mesajları yazırlar. Onlar digər şagirdlərə 7-3.1.1.-də göstərilən siyahıda hansı iki yeri ziyarət etmək istədiklərini və niyə ziyarət etmək istədiklərini söyləməyi öyrədirlər. |
| **Standart 7-4.3.** Əsas məlumatı, fikirləri yazılı formada çatdırır. | |
| 7-4.3.1. Dəqiq məlumatı sadə formada və birbaşa çatdırır. | Bax 7-4.2.1., 7-4.2.3., 7-4.2.4., 7-4.2.5. |
| **VIII SİNİF** | |
| **Məzmun xətti 1. Dinləmə** | |
| **Standart 8-1.1.** Sözləri, söz birləşmələrini, nəqli və sual cümlələrini anlayır. | |
| 8-1.1.1. Qısa, aydın və asta sürətli nitqin əsas mənasını anlayır. | Şagirdlər mətni dinləyir və onun əsas mənasını müzakirə edirlər; lüğətin öncədən öyrədilməsi mühüm əhəmiyyət kəsb edə bilər. Şagirdlər mətnin əsas ideyası ilə bağlı olan sualları cavablandırırlar.<br>**Nümunə:** *The passage is about… (3-4 options)* |

| | |
|---|---|
| 8-1.1.2. Aydın və asta sürətli, arabir fasilələr olan nitqdə həyatının mühüm sahələrinə aid olan söz birləşmələri və ifadələrin mənasını anlayır. | Mətni dinləyərkən şagirdlər insanlar, məkan və həyatın mühüm sahələrinə aid olan fəaliyyətlər barədə xüsusi məlumatları anlayırlar. **Nümunə:** Müəllim bir neçə şəkildəki adamları təsvir edir. Dinləmə zamanı şagirdlər suallara cavab verir və iş vərəqlərində cavabları yazırlar. . Picture 1: *1. Who is riding a bus? 2. Who is waiting at the bus stop?* Picture 2: *3. Where are the children? 4. What are they doing?* |
| 8-1.1.3. Qısa sualları və bəyanatları anlayır. | Müəllim və ya şagirdlər cümlə deyərkən və ya qısa sual verərkən şagirdlər onları anlayır və düzgün cavablandırırlar. **Nümunə:** T: *Who enjoys reading?* |
| 8-1.1.4. Mənanı mənimsəmək üçün arabir fasilələrlə verilən asta və anlaşılan nitqi dinləyərək qeyd aparır. | "Arabir" pauza hər 1-3 cümlədə bir dəfə deməkdir. Pauzalar 1-2 saniyəyə qədər davam edir.<br>Şagirdlər 2-3 nəfərin arasında baş verən sevimli yemək növləri ilə bağlı söhbətə qulaq asırlar.<br>Hər bir danışanın sözlərindən sonra fasilə verilir. Şagirdlər hər bir danışana aid olan sevimli yemək növünün adlarını yazırlar. |
| **Standart 8-1.2.** Təlimat, istiqamət, elan və sinifdaxili müraciətləri dinləyib anlayır. | |
| 8-1.2.1. Gündəlik tapşırıqlar üzrə sadə təlimatları anlayır. | Müəllim gündəlik tapşırıqlar üzrə bəsit təlimatlar səsləndirir (sinifdaxili fəaliyyətlər, sinfi təmizləmə və səliqəyə salma, məktəbə getmə, idman forması geyinmə, komandalara bölünmə və s.) və şagirdlər həmin hərəkətləri həyata keçirirlər. |
| 8-1.2.2. Qısa, aydın, sadə mesaj və elanlarda əsas məqamı tutur. | Şagirdlər endirimlər haqqında ticarət mərkəzinin elanına qulaq asırlar. Şagirdlər elanın əsas mövzusunu müzakirə edirlər. Hər bir elanda onun əsas məqamı ilə bağlı çoxseçimli sual var. **Nümunə:** *Attention shoppers! LK Honolulu is having a sale on women's socks, up to 25% off! Come in now and save!* Or *Come watch a movie today, and buy one popcorn, get a second popcorn for half price.* |
| 8-1.2.3. Sadə istiqamətləri (A nöqtəsindən B nöqtəsinə qədər) anlayır. | Şagirdlər söhbətə qulaq asır və bir yerdən başqa yerə necə gedilməsini başa düşürlər. **Nümunə:** *S1: How do I get to the park from here? Do you see the post office? Turn left there, and you will see the library. Go straight past the library, and then pass the museum. The park is between the kindergarten and the bank.* |
| **Standart 8-1.3.** Canlı və ya lentə yazılmış materialları dinləyib anlayır. | |

| | |
|---|---|
| 8-1.3.1. Aydın, asta sürətlə və arabir fasilələrlə səsləndirilən nitqdə öngörülən gündəlik və ya öyrənilən mövzularla bilavasitə bağlı olan qısa hekayə, monoloq və dialoqlarda əsas məlumat və ya vacib məqamların əksəriyyətini anlayır. | Şagirdlər gündəlik iş rejiminə aid olan 4-5 qısa dialoqu dinləyir və təqdim olunan cədvəldə boşluqları doldururlar. Bəzi boşluqlar zamana, bəziləri isə fəaliyyətlərə aiddir. **Nümunə:** _______ *wakes up at 7:00 a.m., He _____ for school at _____a.m., He usually has _____ lessons a day, etc.* |
| 8-1.3.2. Aydın, asta sürətlə və arabir fasilələrlə səsləndirilən nitqdə öngörülən gündəlik və ya öyrənilən mövzularla bilavasitə bağlı olan yayımlarda əsas məlumat və ya vacib məqamların əksəriyyətini anlayır. | Şagirdlər video çarxa baxır və dialoqu dinləyir. Cütlər ilə video çarxda əks olunan hadisələri ümumiləşdirirlər. **Nümunə:** Video çarxda 4 sinif yoldaşı məktəbin yanında dayanıb. Onlar sabahkı ad günü yığıncağını müzakirə edirlər və alacaqları hədiyyə ilə bağlı qərar verirlər. Cütlərlə işləyərək şagirdlər söhbəti 3-4 cümlə ilə ümumiləşdirirlər. (*Onlar bir detektiv kitab və bir qutu şirniyyat alacaqlarına qərar verirlər.)* |
| 8-1.3.3. Aydın, asta sürətlə və arabir fasilələrlə səsləndirilən nitqdə öngörülən gündəlik və ya öyrənilən mövzularla bilavasitə bağlı olan, əyani vasitələrlə verilən sadə təqdimat və nümayişlərdə əsas məlumat və ya vacib məqamların əksəriyyətini anlayır. | Şagirdlər bir qadının salat hazırlamaq və kartof qızartmaq haqqında təlimat verdiyi video çarxa baxırlar. Onlar iş vərəqində verilmiş boşluqları doldurmaq üçün qeydlər aparır və sualları qısa cavablandırırlar. **Nümunə:** *In the kitchen, a woman explains which vegetables to select for a salad and how to slice potatoes and fry them.* |
| **Standart 8-1.4.** Dialoq və söhbətləri dinləyib anlayır. | |
| 8-1.4.1. Aydın, birbaşa, asta sürətlə, bəzən təkrarla və yaxud fərqli formada səsləndirilən nitqdə sadə gündəlik söhbətləri anlayır; qısa və sadə gündəlik mövzularda edilən fikir mübadiləsinin icmalını dinləyərək qeyd aparır. | Şagirdlər sadə gündəlik söhbəti ümumilikdə başa düşür, lakin şagirdlərdən söhbətin bütün detallarını anlamaq tələb olunmur. Onlar növbə ilə həftə sonu etdiklərini bir-birlərinə danışırlar. Onlar bir-birlərinə həyata keçirdikləri ən azı iki fəaliyyət söyləyirlər, tərəfdaşlarının dediklərini qeyd edirlər və lazım olduqda aydınlıq və ya təkrar tələb edirlər. Sonra öz qeydlərindən istifadə edərək deyilənləri təsdiqləyirlər.<br>**Nümunə:** *On Saturday I did chores.On Sunday I went to the cinema with my friends.* |

| | |
|---|---|
| 8-1.4.2. Aydın, birbaşa, asta sürətlə, bəzən təkrarla və yaxud fərqli formada səsləndirilən nitqdə söhbət əsnasında gündəlik həyata və konkret tanış mövzulara aid olan detalların əksəriyyətini başa düşərək müzakirənin mövzusunu adətən müəyyənləşdirir. | Şagirdlər iki nəfər arasında 3 qısa (45-60 saniyədən ibarət) söhbətə qulaq asırlar. Bir nəfər sinif yoldaşı haqqında danışır. Şagirdlər həmin insanların kimin haqqında danışdıqlarını tapır və hər söhbətə aid 2 seçimdən ibarət olan suala cavab verirlər. **Nümunə:** Birinci söhbətdə bir qız öz sinif yoldaşı haqqında və onun dərsdən sonraki asudə vaxtını necə keçirdiyindən danışır. |
| **Standart 8-1.5.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 8-1.5.1. Tanış olmayan söz və şablon ifadələrin çoxunun mənasını və quruluşunu monoloq və ya söhbətdə işləndiyi yerindən, və ya başqa kontekst ipuclarının köməyi ilə anlayır. | Şagirdlər təbiət tarixi muzeyində dinozavrın qısa təsvirini dinləyir və mənası mətndə aydın şəkildə ifadə olunan bir neçə tanış olmayan terminin mənasını çıxarırlar.<br>**Nümunə:** *The dinosaur bones that we see here are not really bones, they are <u>fossils</u>. Over millions of years, the bones became stone, and we call these fossils. This dinosaur here was a <u>carnivore</u>, or meat-eater. You can see it had long, <u>sharp</u> teeth, good for eating other dinosaurs. → 1. <u>Fossils</u> are made from ____. 2. A <u>carnivore</u> eats ____. 3. <u>Sharp</u> means like a(n) A. knife B. bone C. animal D. Stone* |
| 8-1.5.2. Mətnlərdə verilən gizli məlumat haqqında çox vaxt sadə nəticələr çıxarır. | Şagirdlər insanlar arasında baş tutan 4 söhbətə qulaq asırlar. Onların dediklərinin əsasında şagirdlər həmin insanların harada və ya nə üçün orada olduqlarını müəyyən etməlidirlər. **Nümunə:**<br>S1: These flowers and trees are so beautiful! S2: Yeah, but they need everyday care. → *in the garden* |
| 8-1.5.3. Çox sadə hekayə (nəql etmə) və söhbətlərdə bundan sonra nə baş verəcəyini çox vaxt proqnozlaşdırır. | Şagirdlər səyahət agentliyində iki nəfər arasında baş verən 4 qısa söhbətə qulaq asır və bundan sonra nə olacağını proqnozlaşdırırlar. **Nümunə:** S1: *Well, I'm interested in active holiday. What about you?* S2: *Me too, and I like nature a lot.* Q: *What will they do next? → go on holiday* |
| 8-1.5.4. Bəzi tanış mətn növlərinə əsasən mətnin növünü müəyyən edir. | Tanış mətn növlərinə söhbətlər, kütləvi elanlar və ya sinifdaxili təlimatlar daxildir.<br>Şagirdlər bir neçə fərqli mətn növündən (məsələn, hava məlumatı, metro elanı, iki dost arasında söhbət) 2-3 qısa fraqmentə (hər biri 10-15 saniyədən ibarət) qulaq asır və hansı mətn növü olduğuna qərar verirlər (3 variantlı çoxseçimli tapşırıq). |
| **Məzmun xətti 2. Danışma** | |
| **Standart 8-2.1.** Sait və samitləri düzgün tələffüz edir. | |

| | |
|---|---|
| 8-2.1.1. Əksər tanış sözlərdə ana dilində olmayan bir sıra səsləri əsasən uyğunlaşdıraraq tələffüz edir. | Şagirdlər cütlərlə onlardan [v] və [w] olan sözlərdən istifadə etməyi tələb edən məlumat boşluğu fəaliyyəti həyata keçirirlər. **Nümunə:** Hər şagirdin əlində ev şəkli və orada yaşayan ailə üzvlərinin şəkli var.Eyni zamanda onların hərəkətlərini əks etdirən cümlələr var. Şagirdlərə tərəf müqabilinin şəkillərindəki adamların hərəkətləri barədə sual vermək üçün ipucları verilmişdir. *Vagif is wearing glasses. Wanda is playing video games. Vera is washing dishes. Evan is using the washing machine. Valentina is watching TV. Vince is worrying about his homework. Winnie is chopping vegetables.* |
| 8-2.1.2. Əksər tanış sözlərdə ana dilində olmayan bir sıra səs birləşmələrini əsasən uyğunlaşdıraraq tələffüz edir. | Şagirdlər cütlərlə tərkibində samit + [r] və [r] olmayan eyni samit arasındakı ziddiyyətə diqqət yetirən məlumat boşluğu fəaliyyəti həyata keçirirlər.<br>**Nümunə:** Hər şagirdin əlində bazarlıq etmək üçün siyahı var və tərəf müqabili onlardan nə alacaqlarını soruşur.Əgər onlar bu suala birinci dəfə cavab verməkdə çətinlik çəksələr, aydinlaşdırmağı xahiş edirlər.<br>S1: *What do you need to get?* S2: *I need to get some green grapes.* S2: *What do you need to buy?* S1: *I need to buy some brown bread.* |
| **Standart 8-2.2.** Vurğu və intonasiyadan düzgün istifadə edir. | |
| 8-2.2.1. Tanış sözlərin çoxunun vurğusunu düzgün qoyur. | Şagirdlər bir sıra tanış çoxhecalı sözlərdən istifadə edərək boşluqları doldururlar. **Nümunə:** Şagirdlərin hər birində digər şagirdlərin özünün və onların boş vaxtlarında etdikləri fəaliyyətin siyahısı var. Onlar bir-birlərinə bu fəaliyyətlər haqqında sual verirlər. *MuRAD plays BASketball. BRIan likes WAtching MOvies in the EVEnings. STEphen enJOYS skateBOARding.* |
| 8-2.2.2. Tanış frazeoloji birləşmələrin və ifadələrin çoxunun vurğusunu düzgün qoyur. | Şagirdlər bir sıra tanış frazeoloji feili tələb olunan məlumat boşluğu fəaliyyəti həyata keçirirlər. **Nümunə:** Şagirdlərin hər birinin əlində yeniyetmələrin siyahısı və nənə və babalarının onlara nə etməli olduqları ifadə edilmişdir. Siyahıya əsasən şagirdlər bir-birilərinə suallar verirlər.<br><br>*Ann—wash up the dishes. Susan—switch on/off the light. Andrea—look after the pets. Robert—pick up some fruit.* |

| | |
|---|---|
| 8-2.2.3. Müxtəlif növ intonasiya və cümlə vurğusu nümunələrini düzgün tələffüz edir. | Şagirdlər müəyyənlik və qeyri-müəyyənlik ifadə edən ayırıcı sualları tətbiq etmək üçün cütlərlə nitq fəaliyyəti həyata keçirirlər. Şagirdlərin hər birinin sinif yoldaşını sorğulamaq üçün gündəlik həyatla bağlı əşyalar siyahısı olan iş vərəqi var. Cavabına tam əmin olduğu hər bir sualın yanında (+) və ya cavabına əmin olmadığı halda, (-) yazmalıdır. **Nümunə:** Ş1-in iş vərəqində *not eat horse meat (+)*. Ş2-in iş vərəqində *like vanilla ice cream (-). Ş1: You don't eat horse meat, do you? Ş2: No, I don't. Of course not! You like vanilla ice cream, don't you? Ş1: No, I don't. I only like chocolate.* |
| **Standart 8-2.3.** Monoloji nitqdən istifadə edir. | |
| 8-2.3.1. Bir-biri ilə əlaqələndirilmiş bir sıra sadə söz birləşmələri və cümlələrdən istifadə edərək məlumatı paylaşır. | Şagirdlər ətraf mühitlə bağlı ekoloji layihəyə hazırlaşırlar. Vəzifələri bölüşdürdükdən sonra şagirdlər kimin nə edəcəyi barədə qısaca məlumat verirlər. **Nümunə:** *Ali will search for information, and Mary will prepare questions for a survey. Also, Tahir will organize a meeting, and Ayla will invite volunteers.* |
| 8-2.3.2. Əvvəlcədən istiqamət verildikdə tanış mövzularda çox qısa və sadə təqdimatlar edir. | Şagirdlər məktəb layihəsi üçün nə almaq lazım olduğunu planlaşdırırlar. Onların 200 manat büdcəsi var. Əvvəlcə onlar bir sinif yoldaşı ilə ehtiyacların siyahısını tərtib edirlər. Sonra vəzifələri necə bölüşdürəcəklərinə qərar verirlər və işləri görmək üçün tarixləri təyin edirlər. Bundan sonra hər bir cütlük digər cütlük ilə nə alacaqlarını, nə edəcəklərini və bunu nə vaxt edəcəklərini müzakirə edirlər. Hər bir şagird qrupa planın təxminən yarısını izah edir. |
| **Standart 8-2.4.** Məlumat mübadiləsi apararaq müsahibədə iştirak edir. | |
| 8-2.4.1. Öyrənilən mövzular üzrə aydın şəkildə birbaşa suallar verir. | Şagirdlər növbə ilə öyrənilən mövzular üzrə birbaşa suallar verirlər.<br>**Nümunə:** *What do you think causes air pollution?* |
| 8-2.4.2. Öyrənilən mövzular üzrə aydın şəkildə birbaşa suallara cavab verir. | Şagirdlər növbə ilə öyrənilən mövzular üzrə birbaşa suallara cavab verirlər. **Nümunə:** S1: *What do you think causes air pollution? S2: Fumes and chemicals.* |
| 8-2.4.3. Öyrənilən mövzular üzrə fikirləri aydın şəkildə ifadə edərək cavablandırır. | Şagirdlər hələ də əsasən ayrı- ayrı cümlələr qurur və sadə cavablar verirlər, lakin onlar bəzən məlumat mübadiləsi də edə bilərlər.<br>Şagirdlər növbə ilə öyrənilən mövzular üzrə bəyanatlar hazırlayır və onlara cavab verirlər.<br>**Nümunə:** *S1: We should use public transport to keep the air clean. S2: Sure, using public transport is much better than using your own cars.* |

| **Məzmun xətti 3. Oxu** | |
|---|---|
| **Standart 8-3.1.** İnformativ mətnləri oxuyub anlayır. | |
| 8-3.1.1. Qısa və sadə informativ mətnlərdə olan detalların çoxunu tapır. | Bu altstandart çox detalları əks etdirən mətnlərə aiddir.<br>Şagirdlər yeməkxanalarda təqdim olunan sıravi Amerika qəlyanaltı yeməklərinin təsvirini və "gün ərzində qəlyanaltı" termini də daxil olmaqla, yeməkxana sözünün izahını oxuyurlar. Aşağıda verilənlərin hər biri haqqında qısa mətn var: yumurta, omlet, qəlyanaltıya daxil olan ət məhsulları, kökə və vafli bişirmə qaydası. Şagirdlər hər bir mətnin bəhs etdiyi yemək növü və yeməkxana sözünün tərifi altından xətt çəkirlər. **Nümunə:** *Most kinds of breakfast meat in America are pork, although there are a few kinds that are beef. The most popular is probably bacon, which is from the front of a pig.* |
| 8-3.1.2. Qısa və sadə informativ mətnlərdə olan detalların çoxunu anlayır. | Şagirdlər 8-3.1.1.-dəki mətndə olan təfərrüatlar haqqında suallara cavab verirlər. **Nümunə:** *Chicken-fried steak is made from A. chicken B. French fries C. beef.* |
| 8-3.1.3. Qısa və sadə informativ mətnlərin əsas ideyasını və orada olan bəzi vacib fikirləri anlayır. | Şagirdlər mətnin əsas ideyası ilə bağlı suala cavab verirlər. **Nümunə:** *This text is about ___. A. American breakfast foods B. kinds of restaurants in America C. eating all day* |
| **Standart 8-3.2.** Bədii mətnləri oxuyub anlayır. | |
| 8-3.2.1. Qısa və sadə bədii mətnlərdə olan detalların çoxunu tapır. | Bu altstandart çox detalları əks etdirən mətnlərə aiddir.<br>Şagirdlər ər və arvadın restorana nahara getməsi haqqında hekayə oxuyurlar. Mətndə onların sevimli yeməkləri, bəyənmədikləri yeməklər və hara getmək və nə yemək istədikləri haqqında məlumat verilir. Şagirdlər hekayədəki bəyənmə, bəyənməmə və nəyisə istəmək və ya istəməmək haqqında verilən hər ifadənin altından xətt çəkirlər. **Nümunə:** *Abigail answered, "You know I don't like Thai food that much. Let's have something else. Maybe sushi?" Oliver said "I like sushi, but it's raining. Let's have something warm."* |
| 8-3.2.2. Qısa və sadə bədii mətnlərdə olan detalların çoxunu anlayır. | Şagirdlər 8-3.2.1.-də verilən mətndəki təfərrüatlar haqqında suallara cavab verirlər. **Nümunə:** *Oliver doesn't want to have sushi because ___. A. he doesn't like it B. it is warm C. the weather is rainy* |

| | |
|---|---|
| 8-3.2.3. Qısa və sadə bədii mətnlərdə əsas ideyanı və bəzi vacib fikirləri anlayır. | Şagirdlər 8-3.2.2.-də mətnin əsas ideyası və və oradakı vacib fikirlər ilə bağlı suallara cavab verirlər. **Nümunə:** *1. This passage is mostly about two people ___. A. finding a place to eat dinner B. talking about different kinds of food C. going to different restaurants 2. Which of these are important parts of the story? (Choose 3 answers.) A. discussing what to eat B. Abigail doesn't like Thai food C. driving to a steak restaurant that was closed D. driving in the rain E. deciding to eat a pizza at home* |
| **Standart 8-3.3.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 8-3.3.2. Mətnin ümumi məzmununa əsaslanaraq tanış olmayan sözlərin və ifadələrin çoxunun mənasını kontekstdən anlayır. | Şagirdlər 8-3.2.1-də verilən hekayənin hissələrinin genişləndirilmiş formasını oxuyur və tanış olmayan sözlərin mənalarını mətnin kontekstindən çıxarırlar. Hər hədəf sözə aid üç şəkilli çoxseçimli sual verilir. **Nümunə:** *Abigail answered, "You know I don't like Thai food that much. I don't like spicy (B1) food. My mouth feels like it is on fire, and my lips get red. → pictures of a hot pepper, a salt shaker, and a pot cooking over a fire.* |
| 8-3.3.3. Yazılı mətndə rastlaşdığı çoxsaylı tanış olmayan şablon ifadələrin mənasını və funksiyasını işləndiyi yerindən asılı olaraq anlayır. | Şagirdlərin simulyasiya edilmiş menyusu var və onların mövqeyinə əsasən müxtəlif yemək adlarına aid sözlərin mənasını çıxarırlar. Əsas diqqət yeni sözləri öyrənmək və yadda saxlamaq deyil, yeni sözləri anlamağı öyrənməkdir. Suallar qısa cavablı və ya çoxseçimli ola bilər. **Nümunə:** *Soups: beef vegetable soup, clam chowder, chicken gumbo → 1. The words* chowder *and* gumbo *are types of _soup_.waitress will give them their drinks before she gives drinks to other people B. first, tell the waitress what they want to drink C. start drinking before they ask for food* |
| 8-3.3.5. Tanış olan mətn növlərinin çoxunu müəyyən edir. | Şagirdlər həmin mətn növü göstərildikdə menyunu, film adları verilən siyahını, hekayəni, mesajı və ya elektron məktubu müəyyənləşdirirlər. |
| **Məzmun xətti 4.Yazı** | |
| **Standart 8-4.1.** Bağlayıcılardan istifadə edərək rabitəli mətn yazır. | |
| 8-4.1.1. Sadə söz birləşmələri və yaxud sadə cümlələri sadə bağlayıcılardan istifadə edərək birləşdirir. | 7-ci sinifdə şagirdlər bir neçə sadə cümləni əlaqələndirdilər. 8-ci sinifdə isə onlar əlaqələndirici bağlayıcılardan istifadə edərək daha rabitəli yazı nümunələri nümayiş etdirirlər.<br>Şagirdlər hara getmək istədikləri və niyə getmək istədikləri, o cümlədən getmək istəmədikləri məkan haqqında bir neçə cümlə yazırlar. |

| | |
|---|---|
| **Standart 8-4.2.** Söz, söz birləşmələri və cümlələrdən istifadə edərək müxtəlif həcmli mətnlər yazır. | |
| 8-4.2.1. Sadə bağlayıcılardan istifadə edərək cümlələr yazır. | Bax 8-4.1.1. |
| 8-4.2.2. Sadə bağlayıcılardan istifadə edərək qısa, sadə, bir abzasdan ibarət mətn yazır. | Şagirdlər qəlyanaltı yeməkləri haqqında sadə bağlayıcılar işlədərək qısa bir abzasdan ibarət mətn yazır. 8-3.1.1.-dəki təsvirlərdən istifadə edərək, onlar yeməkxanaya getdikləri təqdirdə hansı növ yumurta, qəlyanaltıya aid ət məhsulları, vafli və ya kökə yemək istədikləri və nə içmək istədikləri haqda yazırlar. |
| 8-4.2.3. Qısa və sadə qeyd yazır. | Şagirdlər dostlarına şənbə axşamı şam yeməyində qəlyanaltı yeməyi təklif edən bir qeyd yazır. Onlar yeyə biləcəkləri ən azı bir yeməyi qeyd etməlidirlər. |
| 8-4.2.4. Qısa və sadə mesaj yazır. | Şagirdlər eyni kağız parçasına yazı yazaraq qısa, simulyasiya edilmiş mesajlarla söhbət aparırlar. Onlar nahar üçün hansı restorana gedəcəklərinə qərar verirlər. |
| 8-4.2.5. Qısa və sadə elektron məktub yazır. | Şagirdlər dost və ya ailə üzvünə elektron məktub yazır. Onlar İngiltərədə tətildədirlər və dünən axşam yeməkxanada qəlyanaltı ediblər. Onlar nə yediklərini söyləyirlər və nəyi bəyəndikləri haqda məlumat verirlər. |
| **Standart 8-4.3.** Əsas məlumatı, fikirləri yazılı formada çatdırır. | |
| 8-4.3.1. Tanış və rutin məsələlərlə bağlı məhdud sayda məlumatı çatdırmaq üçün fikrini çox sadə formada və birbaşa ifadə edir. | Bax 8-4.2.2., 8-4.2.4., 8-4.2.5.<br>Şagirdlər onlara tanış olan və gündəlik mövzularla bağlı məhdud sayda məlumatı yazılı ifadə etməyi öyrənirlər. |
| **IX SİNİF** | |
| **Məzmun xətti 1. Dinləmə** | |
| **Standart 9-1.1.** Sözləri, söz birləşmələrini, nəqli və sual cümlələrini anlayır. | |
| 9-1.1.1. Qısa və aydın nitqin əsas mənasını anlayır. | Şagirdlər söhbəti və ya monoloqu dinləyir və əsas fikri müzakirə edirlər. |
| 9-1.1.2. Aydın və asta sürətli nitqdə həyatının mühüm sahələrinə və konkret ehtiyaclarına aid olan söz birləşmələri və ifadələrin çoxunun mənasını anlayır. | Şagirdlər danışanların 5 əşyanı evdə hansı otağa yerləşdirməli olduqları barədə söhbətə qulaq asırlar. Söhbəti dinləyərkən şagirdlər hər bir əşyanın nə olduğunu və hansı otağa qoyulacağı barədə yazırlar. |
| 9-1.1.3. Sualları və bəyanatları anlayır. | Şagirdlər növbə ilə müxtəlif ev əşyalarının hansı otağa qoyulacağı barədə soruşmaq və cavab vermək üçün “information gap” tipli fəaliyyət növünü həyata keçirirlər. |

| | |
|---|---|
| 9-1.1.4. Geniş müzakirələrin, qısa danışıqların və ya tanış mövzularda qısa hekayələrin bəzi əsas məqamlarını və ya konturlarını dinləyərək qeyd aparır. | Şagirdlər iş müsahibəsinin bir hissəsinin səsyazmasını dinləyirlər, müsahibə verən şəxs öz iş tarixçəsini təsvir edir. Şagirdlər natamam cədvəli həmin şəxsin hansı vəzifələrdə olduğu, harada işlədiyi və nə qədər müddət işlədiyi barədə məlumatla doldururlar. |
| **Standart 9-1.2.** Təlimat, istiqamət, elan və sinifdaxili müraciətləri dinləyib anlayır. | |
| 9-1.2.1. Aydın və asta sürətlə çatdırılan tanış və gündəlik fəaliyyətlər üçün təlimatları anlayır. | Şagirdlər ofis menecerinin üç tapşırığını yerinə yetirmək üçün verdiyi təlimatları dinləyirlər.<br>**Nümunə:** *Put paper in the copy machine, call the office supply store to order a box of pens, make coffee for the meeting*, etc.<br>Şagirdlər ediləcək işlərin siyahısını hazırlayır və tərəf müqabili ilə müqayisə edirlər. |
| 9-1.2.2. Aydın və asta sürətlə səsləndirilən, asan başa düşülən elanları anlayır. | Şagirdlər 5 qısa dinləmə mətninə qulaq asırlar. Hər dinləmə mətnində iki və ya üç qatar cədvəli haqqında məlumat var. Şagirdlərə iş vərəqlərində diqqəti nəyə yönəltməli olduqları bildirilir və onlar mətnləri dinləyərkən cədvələ təsir edən fərqləri qeyd edirlər. **Nümunə:** *1. You are taking the 9:35 train to Vienna.* (Track 2B –yə çatacaq qatar 10 dəqiqə gecikir. Budapeşt və Krakov qatarları haqqında da elanlar verilir.) |
| **Standart 9-1.3.** Canlı və ya lentə yazılmış materialları dinləyib anlayır. | |
| 9-1.3.1. Aydın, asta sürətlə səsləndirilən nitqdə öngörülən gündəlik və ya öyrənilən mövzularla bilavasitə bağlı olan qısa hekayə, monoloq və dialoqlarda əsas məlumat və ya vacib məqamları anlayır. | Şagirdlər həftəsonu nə etdikləri barədə danışan yeniyetmələrin üç söhbətinə qulaq asırlar. Onlar hər bir danışanın etdiyi bir hərəkəti yazmalıdırlar.<br>**Nümunə:** *Mary saw a movie with a friend. Joe stayed home and played video games.* |
| 9-1.3.2. Aydın və asta sürətlə səsləndirilən nitqdə öngörülən gündəlik və ya öyrənilən mövzularla bilavasitə bağlı olan yayımlarda əsas məlumat və ya vacib məqamları anlayır. | Şagirdlər hava proqnozunu dinləyirlər. Onlar dinləyərkən sabahkı hava ilə bağlı əsas təfərrüatları və eləcə də həftənin qalan günlərində havanın necə olacağı ilə bağlı bəzi ümumi məlumatları iş vərəqində yazırlar. |
| 9-1.3.3. Aydın və asta sürətlə səsləndirilən nitqdə öngörülən gündəlik və ya öyrənilən mövzularla bilavasitə bağlı olan, əyani vasitələrlə verilən sadə təqdimat və nümayişlərdə əsas məlumat və ya vacib məqamları anlayır. | Şagirdlər üç yeməyin necə bişirilməsi barədə təlimat verən video çarxa baxırlar. Onlar natamam icmaldan istifadə edərək qeydlər aparır və daha sonra qısa cavab tələb edən suallara cavab verirlər. **Nümunə:** *The cook explains how to make porridge, breadsticks, and chicken soup.* |

| | |
|---|---|
| **Standart 9-1.4.** Dialoq və söhbətləri dinləyib anlayır. | |
| 9-1.4.1. Aydın, asta sürətlə, arabir təkrar və ya fərqli formada tələffüz edilən dinləmə mətnində sadə gündəlik söhbətləri, qısa və sadə gündəlik mövzularda edilən fikir mübadiləsinin icmalını anlayaraq qeyd aparır. | Əvvəlki dil səviyyələrində şagirdlərin təkrar və yaxud fərqli formada tələffüzə ehtiyacı var idi, indi isə onların verilən dil materiallarını özlərinin anlaması, ehtiyac hiss etdikləri təqdirdə isə sualla müraciət edib soruşmaları gözlənilir.<br>Şagirdlər növbə ilə həftəsonu nə etdikləri barədə bir-birlərinə danışırlar. Onlar bir-birlərinə ən azı üç şey söyləyirlər, sinif yoldaşlarının dediklərini qeyd edirlər və lazım olduqda aydınlıq gətirmək üçün təkrar etmələrini xahiş edirlər. Sonra öz qeydlərindən istifadə edərək deyilənləri təsdiqləyirlər. |
| 9-1.4.2. Aydın və asta sürətlə səsləndirilən, arabir təkrar və ya fərqli formada tələffüz edilməsi istənilən nitqdə müzakirənin mövzusunu müəyyən edir. | Şagirdlər iki nəfər arasında dörd qısa (45-60 saniyəlik) söhbətə qulaq asırlar. Bir nəfər yaxın qohumundan və onlarla qohumluq münasibətindən danışır. Şagirdlər insanların kimin haqqında danışdığını yazır və anlamaq üçün 2 çox seçimli suala cavab verirlər (9-1.4.1.-ə bax). **Nümunə:** 1-ci söhbətdə bir qız öz böyük qardaşından danışır. Onun qardaşı işə düzəlib və özünün şəxsi mənzili var. Bacı bilir ki, qardaşının xasiyyəti ağırdır, lakin buna baxmayaraq, o, qardaşı üçün darıxır. |
| **Standart 9-1.5.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 9-1.5.1. Tanış olmayan söz və şablon ifadələrin mənasını və quruluşunu monoloq və ya söhbətdə işləndiyi yerindən və ya başqa kontekst ipuclarının köməyi ilə anlayır. | Şagirdlər turistik məkanın qısa təsvirini dinləyir və tanış olmayan terminin mənasını kontekstdən anlayırlar, terminlərin mənası dinləmə mətnində aydın şəkildə ifadə olunur. **Nümunə:** Mətn Polşadakı bir qala haqqındadır. Bu mətn yaramaz insanların qalanın altındakı zindana dustaq kimi atılmasından bəhs edir. |
| 9-1.5.2. Mətnlərdə verilən gizli məlumat haqqında adətən sadə nəticələr çıxarır. | Şagirdlər alış-veriş edən insanlar arasında bir sıra söhbətləri dinləyirlər. Dinlədikləri mətnə əsasən şagirdlər hansı mağazada olduqlarını və ya nə üçün alış-veriş etdiklərini müəyyən etməlidirlər. **Nümunə:** S1 These plates are beautiful! S2: Yeah, but the bowls are too small. → *shopping for dishes*. S1: I need some blue ones to match my new dress. S2: That's right, but get a different pair. This pair looks really uncomfortable. → *shopping for shoes*. |

| | |
|---|---|
| 9-1.5.3. Sadə hekayə (nəql etmə) və söhbətlərdə bundan sonra nə baş verəcəyini çox vaxt proqnozlaşdırır. | Şagirdlər alış-veriş mərkəzində iki nəfər arasında bir sıra qısa söhbətləri dinləyib daha sonra nə baş verəcəyini proqnozlaşdırmalıdırlar. **Nümunə:** S1: *Well, I'm tired of looking at clothes. What about you?* S2: *Me too, but my work shoes got a hole in them yesterday.* Q: *What will they do next?* → *go shoe shopping/go to a shoe store* |
| 9-1.5.4.Mətnin növünü əksər tanış mövzulara əsasən müəyyən edir. | Tanış mətn növlərinə söhbətlər, kütləvi elanlar və ya sinifdaxili təlimatlar daxildir.<br>Şagirdlər müxtəlif mövzularda (məsələn: hava məlumatı, supermarket elanı, qatar stansiyası elanı, nəqliyyat hesabatı, bank işçisi ilə söhbət, iki yaxşı dost arasında söhbət) bir sıra qısa fraqmentləri (10-15 saniyə) dinləyir və dinlədiklərinin nə olduğuna qərar verirlər (3 çox seçimli). |
| **Məzmun xətti 2. Danışma** | |
| **Standart 9-2.1.** Sait və samitləri düzgün tələffüz edir. | |
| 9-2.1.1. Əksər tanış sözlərdə ana dilində olmayan səslərin çoxunu əsasən uyğunlaşdıraraq tələffüz edir. | Şagirdlər cütlərlə işləyərək tərkibində [v] və [w] olan sözləri ünsiyyət zamanı istifadə edirlər. **Nümunə:** Hər bir şagirddə ailə üzvləri əks olunan ev şəkilləri və nə etdiklərini bildirən cümlələr var. Hər birində sinif yoldaşlarının şəkillərindəki insanların nə etdiklərini soruşmaq üçün göstərişlər var.*Vince is playing video games. Wanda is washing dishes. Evan is using the washing machine. Valerie is watching TV.* |
| 9-2.1.2. Əksər tanış sözlərdə ana dilində olmayan səs birləşmələrinin çoxunu əsasən uyğunlaşdıraraq tələffüz edir. | Şagirdlər cütlərlə işləyir və samit + [r] və eyni samitdən sonra [r] olmayan birləşmələrin arasındakı fərqə diqqət yetirir və ünsiyyət qururlar. **Nümunə:** Hər bir şagirdin supermarketdə alış-veriş etmək üçün siyahısı var və onların sinif yoldaşları onlardan nə almalı olduqlarını soruşurlar. İlk dəfə başa düşmədiklərində, aydınlıq gətirmələrini xahiş edirlər. S1: *What do you need to buy?* S2: *I need to get some green grapes.* S2: *What do you need to buy?* S1: *I need to buy some brown bread.* |
| **Standart 9-2.2.** Vurğu və intonasiyadan düzgün istifadə edir. | |
| 9-2.2.1. Tanış sözlərin çoxunun vurğusunu müəyyən səlisliklə düzgün qoyur. | Şagirdlər bir sıra tanış çoxhecalı sözlərdən istifadə edərək ünsiyyət qururlar.<br>**Nümunə:** Şagirdlərin hər birində insanların və onların hobbilərinin siyahısı var. Onlar bir-birlərinə bu haqda sual verirlər. *MiCHELLE plays the vioLIN. BRIan likes WAtching MOvies with his GIRLfriend. STEven likes EAting BARbecue.* |

| | |
|---|---|
| 9-2.2.2. Tanış frazeoloji birləşmələrin və ifadələrin çoxunun vurğusunu müəyyən səlisliklə düzgün qoyur. | Şagirdlər bir neçə tanış frazeoloji feillərdən istifadə edərək ünsiyyət qururlar. **Nümunə:** Şagirdlərin hər birində yeniyetmələrin siyahısı və valideynlərinin onlara tapşırdıqları iş siyahısı var və şagirdlər bir-birinə bu işlər haqqında suallar verirlər. *Michael—clean up his room. Susan—pick up some medicine. Andrea—chop up some vegetables. Robert—take out the trash.* |
| 9-2.2.3. Müxtəlif növ intonasiya və cümlə vurğusu nümunələrini müəyyən səlisliklə düzgün tələffüz edir. | Şagirdlər bir-birlərinə *Wh* ilə başlayan suallardan istifadə edərək ünsiyyət qururlar. 2-3 müxtəlif iş vərəqi dəstləri olduğuna görə müxtəlif cütlər müxtəlif məlumatlarla işləyir. **Nümunə:** Hər bir şagirdin şənlik başlamazdan əvvəl görməli olduğu işlərin siyahısı var. Hər siyahıda ya boş buraxılmış iş adları və ya şəxs adları verilmişdir. S1: *Who will buy the birthday cake?* S2: *Bob will*. S2: *What will Mary do?* S1: *She'll make lemonade.* |
| **Standart 9-2.3.** Monoloji nitqdən istifadə edir. | |
| 9-2.3.1. Bir-biri ilə əlaqələndirilmiş söz birləşmələri və cümlələrdən istifadə edərək məlumatı paylaşır. | 9-2.2.3.-də verilmış nümunəyə əsasən fəaliyyət başa çatdıqdan sonra şagirdlər partnyorlarını dəyişəcək və fərqli cütlükdən olan şagirdlə keçirəcəkləri qonaqlıqda nəyə cavabdeh olduğunu söyləyəcəklər. **Nümunə:** *Bob will buy the birthday cake, and Mary will make lemonade. Also, Tom will order some pizzas.* |
| 9-2.3.2. Əvvəlcədən müəyyən istiqamət verildikdə tanış mövzularda qısa və sadə təqdimatlar edir. | Şagirdlər ziyafət üçün nə almaq lazım olduğunu planlaşdırırlar. Onların 500 manat büdcəsi var. Əvvəlcə onlar bir siyahı hazırlayırlar, sonra növbə ilə onu sinif yoldaşları ilə paylaşırlar və bir-birlərinə məsləhətlər verirlər. Sonra növbə ilə 6 şagirddən ibarət olan qrupa nə alacaqlarını deyirlər. |
| **Standart 9-2.4.** Məlumat mübadiləsi apararaq müsahibədə iştirak edir. | |
| 9-2.4.1. Öyrənilən mövzular üzrə aydın şəkildə birbaşa suallar verir. | Bax 9-2.2.3. |
| 9-2.4.2. Öyrənilən mövzular üzrə aydın şəkildə birbaşa suallara cavab verir. | Bax 9-2.2.3. |
| 9-2.4.3. Tanış olan mövzular üzrə hazırlaşıb söhbət edərək məlumat mübadiləsi aparır. | Bax 9-2.2.3. Əvvəlki siniflərdə şagirdlər ayrı- ayrı cümlələr qurur və sadə cavablar verirdilər. İndi onlar söhəti növbə ilə davam etdirə bilirlər.<br>Şagirdlər tərəf müqabilini dəyişir və yenisi ilə keçirəcəkləri qonaqlıqda hansı işləri görəcəklərini söyləyirlər. |
| **Məzmun xətti 3. Oxu** | |
| **Standart 9-3.1.** İnformativ mətnləri oxuyub anlayır. | |

| | |
|---|---|
| 9-3.1.1. Tanış olan konkret mövzulara aid qısa və sadə informativ mətnlərdə olan detalların əksəriyyətini və ya hamısını tapır. | Bu, çox detalları ehtiva edən orijinal mətnlərə aiddir. Şagirdlər yeni restoran haqqında qısa bir qəzet materialını oxuyurlar. Şagirdlərə məqalədəki təfərrüatlarla bağlı sualların siyahısı verilir və onlar məqalədə restoranın növü, nə vaxt açıldığı, rəyçinin nə yediyi kimi suallara cavab verən sözlərin altından xətt çəkirlər. |
| 9-3.1.2. Tanış olan konkret mövzulara aid qısa və sadə informativ mətnlərdə olan detalları anlayır. | 9-3.1.1-dəki qəzet materialından istifadə edərək, şagirdlər qəzetdəki məqalədə təfərrüatlar haqqında qısa və çoxseçimli suallara cavab verirlər. |
| 9-3.1.3 Tanış olan konkret mövzulara aid qısa və sadə informativ mətnlərin əsas ideyasını və orada olan vacib fikirləri anlayır. | Şagirdlər 1906-cı ildə San-Fransiskoda baş vermiş zəlzələ və yanğınlar barəsində məlumat oxuyurlar. Hekayə üç əsas məqamı (zəlzələ, yanğınlar və yenidənqurma) diqqətə çatdırır; əsas ideya ondan ibarətdir ki, zəlzələ və yanğınlar çox pis fəlakətlər gətirib, lakin sonradan çox qısa zamanda yeni binalar tikilib. Şagirdlər vacib fikirləri əks etdirən sualları cavablandırırlar. |
| **Standart 9-3.2.** Bədii mətnləri oxuyub anlayır. | |
| 9-3.2.1. Gündəlik həyatda tez-tez işlənən dil vahidlərindən ibarət qısa və sadə bədii mətnlərdə olan detalları tapır. | Bu, çox detalları ehtiva edən mətnlərə aiddir. Şagirdlər restoranda yemək yeyən bir ailə haqqında qısa hekayə oxuyurlar. Onlara hekayənin natamam icmalı, təfərrüatlar üçün boş yerlər olan iş vərəqi verilir və onlar restoranın növü, nə vaxt getdikləri və ailə üzvlərinin nə yediyi kimi detallarla həmin boşluqları doldururlar. |
| 9-3.2.2. Gündəlik həyatda tez-tez işlənən dil vahidlərindən ibarət qısa və sadə bədii mətnlərdə mövcud olan detalları anlayır. | 9-3.2.1.-dəki hekayədən istifadə edərək, şagirdlər hekayədəki təfərrüatlar haqqında suallara cavab verirlər. |
| 9-3.2.3. Tanış olan konkret mövzulara aid qısa və sadə bədii mətnlərdə əsas ideyanı və bəzi vacib fikirləri anlayır. | Şagirdlər 1906-cı ildə San-Fransiskoda bir yeniyetmənin təcrübəsi haqqında hekayə oxuyurlar. Onlar hekayənin əsas ideyası və detalları haqqında suallara cavab verirlər. |
| **Standart 9-3.3.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 9-3.3.2. Mətnin ümumi məzmununa əsaslanaraq tanış olmayan sözlərin və ifadələrin mənasını kontekstdən anlayır. | San-Fransisko zəlzələsi və yanğınlar haqqında mətnində (bax 9-3.1.3) bir neçə tanış olmayan sözlər var (məsələn, zəlzələ (B2), dağılmış (B1) və yenidən qurmaq (B1/B2)). Şagirdlər sözlərin mənasına dair suallara cavab vermək üçün mətndəki kontekst ipuçlarından istifadə edirlər. |

| | |
|---|---|
| 9-3.3.3. Yazılı mətndə rastlaşdığı tanış olmayan şablon ifadələrin mənasını və funksiyasını işləndiyi yerindən asılı olaraq anlayır. | San-Fransisko zəlzələsi və yanğınlarını təsvir edən mətn (bax 9-3.3.2.) *at first* (B1) ifadəsi ilə başlayır (***At first***, *the morning of April 18, 1906 started like a normal morning in San Francisco.*) və onun yekun bəndi ***In conclusion*** (B2) hər iki ifadə qalın şriftlə başlayır. Şagirdlər bu sözlərin mənasını anlamaq üçün bu ifadələrin mətndə işlədildiyi yerə diqqət yetirirlər. |
| 9-3.3.5. Bütün tanış olan mətn növlərini müəyyən edir. | 9-3.1.1., 9-3.1.3., 9-3.2.1. və 9-3.2.3.-cü bəndlərdəki mətnləri oxumazdan əvvəl şagirdlər hər birinin hansı mətn növü olduğunu (qəzet məqaləsi, izahlı mətn və ya hekayə) müəyyənləşdirir və cavablarını cütlərlə müzakirə edirlər. Bu mərhələ başa çatdıqdan sonra müəllim müzakirəni bütün siniflə aparır. |
| **Məzmun xətti 4. Yazı** | |
| **Standart 9-4.1.** Bağlayıcılardan istifadə edərək rabitəli mətn yazır. | |
| 9-4.1.1. Əsas məqamları sadalamaq üçün ən çox işlənən bağlayıcılardan istifadə edərək, söz birləşmələrini  və sadə cümləleri birləşdirir. | Şagirdlər yay tətilində nə etdikləri barədə bir sıra cümlələr yazır. Onlar tərəf müqabili ilə yazdiqları cümlələri paylaşırlar, ifadələr və cümlələr arasında bağlayıcılardan daha yaxşı istifadə etmək üçün bir-birlərinə təkliflər verirlər. Şagirdlər daha sonra bağlayıcılardan daha yaxşı istifadə edərək öz yazdıqlarını lazım olduqda redaktə edirlər. |
| **Standart 9-4.2.** Söz, söz birləşmələri və cümlələrdən istifadə edərək müxtəlif həcmli mətnlər yazır. | |
| 9-4.2.1. Ən çox işlənən bağlayıcılardan istifadə edərək, cümlələr yazır. | Bax 9-4.1.1. |
| 9-4.2.2. Ən çox işlənən bağlayıcılardan istifadə edərək, bir abzasdan ibarət mətn daxilində əlaqəli cümlələr yazır. | Şagirdlər 9-4.1.1.-dən bir sıra cümlələr götürür və həmin cümlələrə uyğun olaraq giriş və yekun cümlələr əlavə edirlər. Şagirdlər bir-birlərinin yazılarını yoxladıqdan sonra, eytiyyac olduqda yazdıqları mətni yenidən nəzərdən keçirirlər. |
| 9-4.2.3. Qısa və müəyyən qədər sadə qeyd yazır. | Hər bir şagird dostuna şənlik haqqında qeyd yazır. Onlar qeyddə dostundan şənliyin hazırlanması üçün kömək istəyərək iki şey etməsini xahiş edir. |
| 9-4.2.4. Qısa və müəyyən qədər sadə mesaj yazır. | Hər bir şagird gün, saat və yer də daxil olmaqla, dostunu qonaqlığa dəvət etmək üçün mesaj (kağız üzərində) yazır. |
| 9-4.2.5. Qısa və müəyyən qədər sadə elektron məktub yazır. | Şagirdlər dostlarına ziyarət etdikləri yeni restoran haqqında elektron məktub yazır. Onlara restoranın növü, nə vaxt getdikləri, ailə üzvlərinin nə yediyi və həmin restoranı bəyənib-bəyənmədikləri kimi təfərrüatları daxil edir. |
| **Standart 9-4.3.** Əsas məlumatı, fikirləri yazılı formada çatdırır. | |

| | |
|---|---|
| 9-4.3.1. Tanış və rutin məsələlərlə bağlı məhdud sayda məlumatı çatdırmaq üçün fikrini sadə formada və birbaşa ifadə edir. | Şagirdlər tanış olan və rutin mövzular haqqında məlumat ötürməyi öyrənirlər, lakin bunu məhdud dərəcədə edirlər.<br>9-4.2.2.-dəki paraqraf, 9-4.2.3.-dəki qeyd və 9-4.2.5.-dəki elektron məktub kimi yazı tapşırıqlarına şagirdlər lazımi məlumatları daxil edirlər. Lakin bu adətən heç bir təfərrüat olmadan, sadə və birbaşa dillə ifadə edilir. |
| **X SİNİF** | |
| **Məzmun xətti 1. Dinləmə** | |
| **Standart 10-1.1.** Sözləri, söz birləşmələrini, nəqli və sual cümlələrini anlayır. | |
| 10-1.1.1. Qısa hekayələr də daxil olmaqla, tanış mövzularda asta və aydın səsləndirilən standart nitqdə əsas məqamları anlayır. | Şagirdlər səyahət edən bir nəfərin etdiyi səyahətin qısa təsvirini dinləyir və əsas məqamları müəyyənləşdirirlər. |
| 10-1.1.2. Səsləndirilən mətnin növündən asılı olaraq, aydın və asta səsləndirilən nitqi lazımi qədər anlayır. | Şagirdlər hər bir natiqin öz şəxsi təfərrüatlarını (məsələn, ad, yaş, yaşayış və doğulduğu yer, məşğuliyyət) verdiyi bir neçə qısa dinləmə materialına qulaq asırlar. Şagirdlər cədvəldəki boşluqları dinlədikləri məlumatlar ilə doldururlar. |
| **Standart 10-1.2.** Təlimat, istiqamət, elan və sinifdaxili müraciətləri dinləyib anlayır . | |
| 10-1.2.1. Kənar səslərin minimal müdaxiləsi olan standart nitqdə aydın və asta sürətlə çatdırılan təlimatları və ətraflı göstərişləri anlayaraq qeyd aparır. | Şagirdlər qaldıqları oteldən müəyyən bir yerə avtobus, metro və s. nəqliyyat növü ilə necə getmələri ilə bağlı bir neçə qısa təlimata qulaq asırlar. Şagirdlər əsas məlumatları qeyd edirlər. **Nümunə:** *If you want to get to the Tesco Supermarket, go to the bus stop across the street, and take bus N3. Get off at Dalhousie Rd. You can see the store, and then you walk about 5-10 minutes. → bus stop across the street, Bus N3, Dalhousie Rd., walk 5-10 minutes* |
| 10-1.2.2. Kənar səslərin minimal müdaxiləsi olan standart nitqdə aydın və asta sürətlə çatdırılan ictimai yerlərdə və nəqliyyatda olan elanları anlayaraq qeyd aparır. | Şagirdlər hava limanında səslənən 4 elana qulaq asırlar. Hər elanda verilən 3 məlumatın yalnız biri onlara aiddir. Şagirdlərin diqqətini nəyə yönəltməli olduğunu bildirən iş vərəqi var və onlar hər bir elandan sonra dəyişikliyin nə olduğunu həmin vərəqdə qeyd edirlər. **Nümunə:** *1. You are waiting for Flight AA83 to Dallas-Fort Worth.* (There are announcements about Flight AA23 to Las Vegas being delayed to 4:23 p.m., a gate change to Gate A93 for Flight AA74 to Orlando, and a gate change to Gate B73 for Flight AA83 to Dallas-Fort Worth.) |
| **Standart 10-1.3.** Canlı və ya lentə yazılmış materialları dinləyib anlayır. | |

| | |
|---|---|
| 10-1.3.1. Müsahibə və reklam çarxlarında nitq aydın və nisbətən asta olmaqla əsas məqamları və bəzi konkret detalları dinləyərək qeyd aparır. | Şagirdlər yeni fast-food məhsulları üçün 20 saniyəlik bir neçə radio reklamına qulaq asırlar. Reklam edilən yeməklərin növünü (hamburger, toyuq sendviçi, kolbasa sendviçi, balıq, pendir və kartof tərkibli yemək və s.) yazırlar. |
| 10-1.3.2. Hekayələr və digər rəvayətlərdə nitq aydın və nisbətən asta olmaqla əsas məqamları və bəzi konkret detalları dinləyərək qeyd aparır. | 10-1.1.1.-ə bax— Şagirdlər birlikdə getdikləri səyahəti təsvir edən qısa bir mətn parçasına qulaq asırlar. Onlar əsas məqamları (məsələn, şəxsin hara və nə vaxt getdiyini), eləcə də bəzi konkret təfərrüatları (məsələn, mehmanxanada otağı kiçik idi, nəqliyyat çox idi) müəyyən edirlər. |
| 10-1.3.3. Vizual dəstəklə, nitq aydın və nisbətən asta olmaqla tanış və ya proqnozlaşdırıla bilən mövzuda nümayişin və ya təqdimatın ümumi planını dinləyərək qeyd aparır. | Şagirdlər müxtəlif növ restoranlarda yemək bişirilməsi ilə bağlı bir neçə qısa video nümayişə baxırlar. Onlar qeydlər aparır, sonra 2-3 nəfərlik qruplarda qeydlərini müqayisə edirlər. Sonra, redaktə edilmiş qeydlərdən istifadə edərək, təlimat verərək və pantomimadan istifadə edərək onlardan birini nümayiş edirlər. **Nümunə:** how to make fried rice, how to mix the batter for fried chicken and then fry the chicken, or how to make gumbo. (*Batter* and *gumbo* will be unfamiliar words. This is similar to real life—students working in an international restaurant will have to learn new words when learning to cook things. The meanings will become clear from watching the videos.) |
| **Standart 10-1.4.** Dialoq və söhbətləri dinləyib anlayır. | |
| 10-1.4.1. Aydın və asta sürətlə , bəzən təkrar və yaxud fərqli formada səsləndirilən nitqdə mövzunu müəyyən edir, tanış olan mövzulara aid söhbətin bəzi əsas məqamlarını anlayır. | Şagirdlər cütlərlə işləyərək bir-birlərinə həftə sonu etdiklərini danışırlar. Onlar bir-birlərinə ən azı üç hadisə deyirlər, lazım gəldikdə bir-birindən nə deyildiyini aydınlaşdırır və ya təkrar etməsini xahiş edirlər. Sonra onlar tərəf müqabillərini dəyişirlər və ilk tərəf müqabilinin dediklərini yeni birinə söyləyirlər. |
| 10-1.4.2. Nitq aydın və asta sürətlə, bəzən təkrar və ya fərqli formada səsləndirildiyi halda müzakirələrdə olan razılıq və fikir ayrılığını tanıyır. | Şagirdlər 2 nəfər arasında baş tutan bir neçə söhbətə qulaq asırlar. Həmin şəxslər hansı “fast food” məkanında yemək yeyəcəklərini müzakirə edirlər. Şagirdlər onların harada yemək yeməkləri ilə bağlı razılaşıb-razılaşmadıqlarını müəyyən edirlər. |

| | |
|---|---|
| 10-1.4.3. Aydın və asta sürətlə , bəzən təkrar və ya fərqli formada səsləndirilən nitqdə, mövzunu müəyyənləşdirərək, tanış olan mövzulara aid müzakirələrin bəzi əsas məqamlarını anlayır. | Şagirdlər 2 nəfər arasında baş tutan bir neçə söhbətə qulaq asırlar. Həmin şəxslər planlarını (məsələn, tətilə hara getmək, nahar üçün hara getmək, sabah hansı muzeyi ziyarət etmək) müzakirə edirlər. Şagirdlər müzakirənin nə haqda olduğu və hər bir danışanın üstün tutduğu 1-2 əsas səbəbi müəyyənləşdirirlər. Onlar dinləyərkən suallara cavab verir, sonra kiçik qruplarda öz cavablarını nəzərdən keçirirlər. |
| **Standart 10-1.5.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 10-1.5.1. Bəzi tanış olmayan sözlərin mənasını anlamaq üçün onların morfoloji quruluşundan istifadə edir. | Şagirdlərə prefikslərdən istifadə etməklə (məsələn, *<u>re</u>open*, *<u>in</u>activity*, or *<u>dis</u>agree*) A2 səviyyəsində 10 tanış olmayan sözlərin (A2-dən yuxarı) siyahısı verilir. Onlar ümumi mövzuları əhatə edən 10 qısa söhbətə (hər biri 15-30 saniyə) qulaq asırlar; hər bir söhbətdə sözlərdən biri mövcuddur, və şagirdlər dinlədikləri mətnə əsasən həmin sözün mənasını çıxarırlar. **Nümunə:** S1: *My computer has a problem.* S2: *What's wrong with it?* S1: *Well, it keeps going to sleep after just one minute if I don't do anything. But it* should *only go to sleep after ten minutes of inactivity.* S2: *That is strange! One minute of <u>inactivity</u>, and then it goes to sleep? → Inactivity means _____.* |
| 10-1.5.2. Çox vaxt mətnlərdə verilən sətiraltı məlumatları anlayaraq nəticə çıxarır. | Şagirdlər bir neçə qısa söhbətə qulaq asırlar. İnsanlar etdikləri səyahətin müxtəlif hissələri haqqında danışırlar. Şagirdlər hər bir dinləmə mətnində gizli saxlanılan bir məlumatın nə olduğunu aşkar etməlidirlər. **Nümunə:** *On my first day in Seattle, I had a great time. I had to buy an umbrella though, because I left mine at the hotel. → Question: What was the weather like that day?* |
| 10-1.5.3. Adətən sadə hekayələrdə və söhbətlərdə daha sonra nə baş verəcəyini proqnozlaşdırır. | Şagirdlər iki nəfərin tətil haqqında olan bir sıra qısa söhbətinə qulaq asırlar və daha sonra nə olacağını proqnozlaşdırırlar. **Nümunə:** <u>Passage</u>: S1: *What an amazing museum!* S2: *I know! But can you believe we spent the whole morning there? It's already 12:30, and I'm really hungry.* S1: *Me too. I read about a place near here. Let's try it.* → <u>Question</u>: *What are they going to do now? → eat lunch or go to lunch* |

| | |
|---|---|
| 10-1.5.4. Yazılı və ya şifahi başlıqlardan istifadə edərək çox bəsit nəticə çıxararaq proqnoz verir. | Şagirdlər bir neçə fərqli dinləmə mətninin ilk cümləsini dinləyirlər (məsələn, hava məlumatı, hava limanının qapısının dəyişdirilməsi elanı və ya radioda nəqliyyat barədə məlumat) və mətndə hansı növ məlumatın səslənəcəyinə qərar verirlər. **Nümunə 1:** *Attention in the terminal, this is a gate change announcement.* **Nümunə 2:** *This is KTIE AM 590 with your latest traffic update.* |
| 10-1.5.5. Mətnin mənasını anlamaq üçün əksər ümumişlək bağlayıcılardan (həm mənasına, həm də zaman ardıcıllığına görə), ritorik suallardan və ya söhbətin mövzusundan istifadə edir. | *Lakin*, *çünki*, *ondan sonra* və ya *əvvəlcədən* kimi bağlayıcılar mətnin hissələri arasındakı əlaqəyə işarə edir və şagirdlər bu bağlayıcıların köməyi ilə mətnin ümumi məzmununu və ya ayrı-ayrı hissələrini asanlıqla anlamayırlar. Şagirdlər bir sıra qısa, natamam dinləmə mətninə qulaq asırlar. Hər dinləmə müvafiq bağlayıcı və ya birləşdirici və bir neçə əsas məna daşıyan sözlərlə bitir. Daha sonra onlar dinləmə mətninin qalan hissəsi haqqında ümumi proqnoz vermək üçün müvafiq bağlayıcıdan istifadə etməlidirlər. **Nümunə 1:** *When we got back to the hotel, my key card had a problem, and I could not open the door to my room. I didn't have to get a new key, however, because my friend… → 1. How did she open the door? A. She got a new key. B. Her friend opened the door. C. She used her key card.* **Nümunə 2:** *On our third day there, it rained a lot. I'm so glad we bought umbrellas before that, so… → 2. The speaker and his friends ___. A. bought umbrellas on the third day B. used their umbrellas on the third day C. did not have any umbrellas* |
| **Məzmun xətti 2. Danışma** | |
| **Standart 10-2.1.** Sait və samitləri düzgün tələffüz edir. | |
| 10-2.1.1. Əksər tanış sözlərdə ana dilində olmayan səslərin hamısını əsasən uyğunlaşdıraraq tələffüz edir. | Şagirdlər cütlərlə işləyir və tərkibində [θ] və [ð] səsləri olan sözlərdən istifadə edərək tələb olunan informasiya boşluğunu doldururlar. Şagirdlərdə müxtəlif əşyaların siyahısı mövcuddur və onlar sinif yoldaşlarından evdə hər bir əşyanın harada ola biləcəyini soruşmalıdırlar. **Nümunə:** *broth*, *cloth*, *toothpaste, both salt and pepper, cream for smooth skin, chocolate with nuts, meat thermometer, medical thermometer, thermostat, clothing, leather shoes, Father's chair,* and *toothpicks.* |

| | |
|---|---|
| 10-2.1.2. Əksər tanış sözlərdə ana dilində olmayan səs birləşmələrinin hamısını əsasən uyğunlaşdıraraq tələffüz edir. | Şagirdlər cütlərdə -ing sonluğu və [-ŋ] səsi ilə bitən sözlərdən istifadə edərək tələb olunan informasiya boşluğunu doldururlar. Şagirdlərin hər birində insanların adları və üstünlük verdiyi tətil fəaliyyətlərinin natamam siyahısı var. **Nümunə:** S1: *What is Luke's favourite thing to do?* S2: *Visiting art museums.* S2: *What is Andrea's favourite thing to do?* S1: *Shopping for clothes.* |
| **Standart 10-2.2.** Vurğu və intonasiyadan düzgün istifadə edir. | |
| 10-2.2.1. Tanış sözlərin çoxunun vurğusunu nisbi rəvanlıqla düzgün qoyur. | Şagirdlərə 6 fərqli pizza növü siyahısı verilir və onlar sinif yoldaşlarından onları bəyənib-bəyənmədiklərini soruşurlar. Sonra tərəf müqabillərini dəyişərərk ilk olana dediklərini yeni birinə bildirirlər. **Nümunə:** *peppeROni, EXtra cheese, PINeapple, green PEPpers, ONions, CHICken, HAMburger, SPInach, HOT PEPpers, Canadian bacon*, *sausage*, and *ham*. |
| 10-2.2.2.Tanış frazeoloji birləşmələrin və ifadələrin əksəriyyətinin vurğusunu nisbi rəvanlıqla düzgün qoyur. | 10-1.3.3.-dəki fəaliyyətləri yerinə yetirdikdən sonra şagirdlərə hər bir video üçün ifadə və frazeoloji feilərin (alternativ olaraq: yalnız frazeoloji feil də ola bilər) siyahısı verilir və onları təqdimatlarına əlavə etmələri tələb olunur. **Nümunə:** *Crack open two eggs, turn on the fire, put the eggs in, take out the eggs, cut up the meat, turn up the fire, put the meat in, stir it around, put in the rice, pour in a little soy sauce, stir it all up, add in the eggs, stir everything up some more, turn off the fire.* |
| 10-2.2.3. Müxtəlif növ intonasiya və cümlə vurğusu nümunələrini nisbi rəvanlıqla düzgün tələffüz edir. | Şagirdlər müxtəlif insanların yemək istədikləri restoran növləri ilə bağlı xüsusi suallar verməlirini tələb edən informasiya boşluğu fəaliyyəti həyata keçirirlər. **Nümunə:** S1: *What kind of food does Mary want to eat?* S2: *She wants Thai food.* S2: *What does Andrew want to eat?* S1: *He wants Italian food.* |
| **Standart 10-2.3.** Monoloji nitqdən istifadə edir. | |
| 10-2.3.1. Əsas məqamların xətti ardıcıllığı kimi təqdim olunan məlumatı bir qədər səlisliklə paylaşır. | Bax 10-1.3.3., 10-2.2.2. |
| 10-2.3.2. Az hazırlıqla və istiqamət verildikdə təqdimatlar edir. | Bax 10-1.3.3., 10-2.2.2. |
| **Standart 10-2.4.** Məlumat mübadiləsi apararaq müsahibədə iştirak edir. | |

| | |
|---|---|
| 10-2.4.3. Bəzi hazırlıqlarla tanış mövzular haqqında danışaraq məlumat mübadiləsi aparır. | Cütlərlə işləyən şagirdlərə bir şəhərin məşhur turistik yerləri haqqında məlumat verilir (ən azı 12-15 yer təsviri adlarla və lazım olduqda 1 cümləlik təsvir vermək olar). Hər cütlüyə fərqli bir şəhəri təyin edilmişdir. Şagirdlər şəhərə 3 günlük səfər zamanı nə etmək istədikləri barədə razılığa gəlirlər. Onlar qeydlər apara bilər və ya olan məlumatı dairəyə ala bilərlər, lakin tam ssenarini yaza bilməzlər. Şagirdlər daha sonra tərəf müqabilləri ilə informasiya mübadiləsi edir və bir-birlərinə ilk qrupun planlarını deyirlər. |
| **Məzmun xətti 3. Oxu** | |
| **Standart 10-3.1.** İnformativ mətnləri oxuyub anlayır. | |
| 10-3.1.1. Konkret tipli tanış məsələlərə dair sadə informativ mətnlərdə olan detalların əksəriyyətini və ya hamısını tapır. | Bu alt standart çox detalları əks etdirən orijinal mətnlərə aiddir.<br>Şagirdlər Azərbaycanda çay və qəhvənin populyarlığından bəhs edən jurnal məqaləsini oxuyub, indiki dövr ilə 1990-cı illəri müqayisə edirlər. Onlara məqalədəki təfərrüatlar haqqında suallar verilir və onlar məqalədə suallara cavab olan yerlərin altından xətt çəkirlər (məsələn, 1990-cı illərdə qəhvənin populyarlığı və bu gün qəhvənin populyarlığı). |
| 10-3.1.2. Konkret tipli tanış məsələlərə dair sadə informativ mətnlərdə olan detalların əksəriyyətini və ya hamısını anlayır. | 10-3.1.1.-dəki jurnal məqaləsindən istifadə edərək şagirdlər qəzet məqaləsindəki təfərrüatlar haqqında suallara cavab verirlər. |
| 10-3.1.3. Konkret tipli tanış məsələlərə dair sadə informativ mətnlərdə olan əsas ideyanı və vacib fikirləri anlayır. | 10-3.1.1.-dəki jurnal məqaləsindən istifadə edərək, şagirdlər əsas ideya (qəhvə və çayın populyarlığında ümumi dəyişikliklər) və vacib fikirlər (məsələn, məqalədə ətraflı təsvir olunan dəyişikliklərin əsas səbəbi) haqqında suallara cavab verirlər. |
| **Standart 10-3.2.** Bədii mətnləri oxuyub anlayır. | |
| 10-3.2.1. Gündəlik həyatda tez-tez işlənən dil vahidlərindən ibarət sadə, asan başa düşülən bədii mətnlərdə olan detalları tapır. | Bu alt standart çox detalları əks etdirən orijinal mətnlərə aiddir.<br>Şagirdlər üçüncü dostu üçün sürpriz ad günü şənliyi planlaşdıran iki dost haqqında hekayə oxuyurlar. Onlara hekayədəki təfərrüatlar haqqında suallar verilir və onlar hekayədəki suallara cavab olan yerlərin altından xətt çəkirlər (məsələn, dostlarının neçə yaşı olur, ad günü şamları ilə niyə problem yaşayırlar və hansı ad günü tortu alırlar). |

| | |
|---|---|
| 10-3.2.2. Gündəlik həyatda tez-tez işlənən dil vahidlərindən ibarət sadə, asan başa düşülən bədii mətnlərdə olan detalları anlayır. | 10-3.2.1.-dəki hekayədən istifadə edərək, şagirdlər hekayədəki təfərrüatlar haqqında suallara cavab verirlər. |
| 10-3.2.3. Gündəlik həyatda tez-tez işlənən dil vahidlərindən ibarət sadə, asan başa düşülən bədii mətnlərdə olan əsas ideyanı və bəzi vacib fikirləri anlayır. | 10-3.2.1.-dəki hekayədən istifadə edərək, şagirdlər əsas ideya (hekayə dost üçün sürpriz ad günü şənliyinin planlaşdırılması və keçirilməsi haqqındadır) və vacib fikirlər (məs., planlaşdırma, şənliyin özü, şamların tüstüsünə görə yanğınsöndürmə idarəsinin gəlməsi) haqqında suallara cavab verirlər. |
| **Standart 10-3.3.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 10-3.3.1. Bəzi tanış olmayan sözlərin mənasını anlamaq üçün onların morfoloji quruluşundan istifadə edir. | Qəhvə və çay haqqında məqaləyə (bax 10-3.1.1.) başqa sözlərdən yaranan bir neçə tanış olmayan sözlər daxildir; əsas sözün tanış olmaması ehtimalı olduqda lüğətə əlavə olunur. Şagirdlər törəmə sözlərin mənasını çıxarmaq üçün morfoloji ipuculardan istifadə edirlər. **Nümunə:** *decorate* (B1) → *decorative* (B2), *effect* (B1) → *effective* (B2); *add* (A2) → *addition* (B2), *introduce* (B1) → *introduction* (B2) |
| 10-3.3.4. Sərlövhə, başlıq və ya yarımbaşlıqlardan istifadə edərək mətnin məzmunu haqqında çox bəsit nəticə çıxararaq proqnoz verir. | 7-9-cu siniflərdə şagirdlər yalnız mətn növlərini müəyyən edirdilər; indi isə onlar mətn növünü tanıyır və mətni oxumazdan əvvəl onun məzmunu haqqında nəticə çıxarmaq üçün sərlövhə, başlıq və ya yarımbaşlıqlardan istifadə edirlər. Azərbaycanda çay və qəhvə haqqında məqaləni oxumazdan əvvəl (bax 10-3.1.1.) şagirdlər başlıq və yarımbaşlıqlara baxır və onlardan məqalənin məzmunu ilə bağlı nəticə çıxarmağa və proqnozlaşdırmağa sövq edən bir neçə suala cavab vermək üçün istifadə edirlər. |
| 10-3.3.5. Bir çox hallarda sadə hekayələrdə daha sonra nə baş verəcəyini proqnozlaşdırır. | 10-3.2.1.-dəki hekayə bir neçə yerdə yarımçıq saxlanılır və nömrələnir . Şagirdlər hər nömrələnmiş sonluqda proqnoz sualına cavab verir və hekayənin növbəti hissəsini oxumağa davam etməzdən əvvəl cavablarını tərəf müqabili ilə müzakirə edirlər. Şagirdlər hekayənin sonunda cavablarını nəzərdən keçirərək onları hekayədə baş verənlərlə müqayisə edirlər. |

| | |
|---|---|
| 10-3.3.6. Mətnin mənasını başa düşmək üçün bəzi ümumişlək bağlayıcılardan (həm mənasına, həm də zaman ardıcıllığına görə) istifadə edir. | Şagirdlərə sırası yanlış verilən 6-8 cümlə ilə ad günü şənliyi hekayəsinin xülasəsi verilir (bax 10-3.2.1.), Onlara həmçinin həmin cümlələrə uyğun bağlayıcıların siyahısı verilir. Şagirdlər cütlərlə cümlələri hansı ardıcıllıqla yerləşdirməli, hansı bağlayıcılardan istifadə etməli olduqlarına orijinal mətnə baxmadan qərar verirlər. Nəticə olaraq, şagirdlər mətn daxilində əlaqəli cümlələr yazır. |

| **Məzmun xətti 4.Yazı** | |
|---|---|
| **Standart 10-4.1.** Bağlayıcılardan istifadə edərək rabitəli mətn qurur. | |
| 10-4.1.1. Əsas məqamları sadalamaq üçün ən çox işlənən bağlayıcılardan istifadə edərək, bir sıra daha qısa, sadə elementləri bir-biri iləcüzi əlaqələndirir. | Bu "elementlər" adətən bir neçə əlaqəli cümlə və ya bütöv bir abzasa aiddir. Şagirdlər planlaşdırdıqları və ya xəyal etdikləri bir ad günü şənliyi haqqında hekayə qurmaq üçün bir sıra cümlələr yazır. Onlar tərəf müqabili ilə iş vərəqi mübadiləsi aparır və bir-birlərinə ifadələr və cümlələr arasında bağlayıcılardan daha yaxşı istifadə üçün təkliflər verirlər. Sonra şagirdlər bağlayıcılardan daha yaxşı istifadə etmək üçün iş vərəqlərini lazım olduqda redaktə edirlər. |
| **Standart 10-4.2.** Söz, söz birləşmələri və cümlələrdən istifadə edərək müxtəlif həcmli mətnlər yazır. | |
| 10-4.2.1. Ən çox rast gəlinən bağlayıcılardan istifadə edərək müxtəlif ölçüdə silsilə cümlələr yazır. | Bax 10-4.1.1. |
| 10-4.2.2. Bir və ya bir neçə bir-biri ilə məzmununa görə əlaqəli olan bir abzasdan ibarət mətn yazır. | 10-4.1.1.-dəki bir sıra cümlələrdən başlanğıc kimi istifadə edərək, şagirdlər giriş və yekun cümlələr əlavə edirlər. Giriş və yekun cümlələrin aydınlığı və məqsədəuyğunluğu həmyaşıdları tərəfindən nəzərdən keçirildikdən sonra, şagirdlər ehtiyac olduqda yazdıqları bir abzasdan ibarət mətnə yenidən baxırlar. |
| 10-4.2.3. Sadə məlumatların aktuallığını çatdıran qısa qeydlər yazır. | Hər bir şagird məktəbdən sonra bir fincan qəhvə və ya çay içmək üçün görüş haqqında dostuna qeyd yazır. Qeydə aşğıdakılar daxildir: görüşün vaxtı, yeri və məqsədi. |
| 10-4.2.4. Mühüm əhəmiyyət kəsb edən sadə məlumatları müxtəsər mətn mesajları ilə çatdıraraq söhbəti davam etdirir. | İş vərəqində şagirdlər cütlərlə işləyərək növbə ilə bir-birlərinə imitasiya mesajı yazırlar.<br>Bu imitasiya mətnində şagirdlər qəhvə və ya çay içmək üçün bir görüş təyin etməlidirlər. Onlar bunu danışmadan yalnız yazaraq edir. |

| | |
|---|---|
| 10-4.2.5. Elektron məktublar və qısa, sadə məktublar yazır. | Şagirdlər dostlarına ziyarət etdikləri yeni qəhvə mağazası haqqında elektron məktub yazır. Onlar məktuba nə sifariş etdikləri, dostunun nə sifariş etdiyi və qəhvələri nə dərəcədə bəyəndikləri (və ya bəyənmədikləri) kimi təfərrüatları daxil edirlər. |
| **Standart 10-4.3.** Əsas məlumatı, fikirləri yazılı formada çatdırır. | |
| 10-4.3.1. Tanış və rutin məsələlərlə bağlı məlumatı çatdırmaq üçün fikrini sadə formada və birbaşa ifadə edir. | 10-4.2.2.-dəki bir abzasdan ibarət mətn, 10-4.2.3.-dəki qeyd, 10-4.2.4.-dəki mesaj və 10-4.2.5.-dəki elektron məktub kimi yazı tapşırıqlarını yerinə yetirərkən şagirdlər sadə şəkildə birbaşa ifadə edilən cümlələrdən istifadə edərək zəruri məlumatları, bəzən əlavə məlumat və ya çox cüzi dəqiqləşdirmələri yazılarına əlavə edirlər. |
| 10-4.3.2. Çatdırmaq istədiyi əsas fikri başa düşülən şəkildə ifadə edir. | 10-4.2.2.-dəki bir abzasdan ibarət mətn, 10-4.2.3.-dəki qeyd, 10-4.2.4.-dəki mesaj və 10-4.2.5.-dəki elektron məktub kimi yazı tapşırıqlarını yerinə yetirərkən şagirdlərin əsas fikri oxucu üçün başa düşüləcək qədər ümumiyyətlə (həm "adətən", həm də "ümumi") aydın olur. |
| **XI SİNİF** | |
| **Məzmun xətti 1. Dinləmə** | |
| **Standart 11-1.1.** Sözləri, söz birləşmələrini, nəqli və sual cümlələrini anlayır. | |
| 11-1.1.1. Qısa hekayələr də daxil olmaqla, tanış mövzularda aydın səsləndirilən nitqdə əsas məqamları anlayır. | Şagirdlər Tbilisiyə 4 günlük səfəri təsvir edən monoloqu dinləyirlər. Onlar hekayənin əsas məqamlarını əks etdirən icmalı tamamlayırlar (Tbilisiyə qatarla səyahət etdilər, ertəsi gün Tbilisini gəzdilər, üçüncü gün Qori və Borjomiyə səyahət etdilər, sonuncu gün Bakıya qayıtdılar). Sonra şagirdlər cavabları tərəf müqabili ilə nəzərdən keçirdilər. |
| **Standart 11-1.2.** Təlimat, istiqamət, elan və sinifdaxili müraciətləri dinləyib anlayır. | |
| 11-1.2.1. Kənar səslərin minimal müdaxiləsi olan standart nitqdə aydın çatdırılan təlimatları və ətraflı göstərişləri anlayaraq qeyd aparır. | Şagirdlərdə üzərində bir neçə mağaza, restoran, mehmanxana və s. olan bir məhəllənin xəritəsi var. Onlar bir sıra söhbətlərə qulaq asırlar. Bu söhbətlərdə otel işçisi xəritədən istifadə edərək insanlara bəzi yerlərin istiqamətini göstərir. Halbuki, xəritə tətbiqində bu yerlər əks olunmayıb. Onlar növbəti söhbətə qulaq asmazdan əvvəl xəritədə qeyd olunmayan yerləri işarələyirlər və cavabları tərəf müqabili ilə müqayisə edirlər. |

| | |
|---|---|
| 11-1.2.2. Kənar səslərin minimal müdaxiləsi olan standart nitqdə aydın çatdırılan ictimai yerlərdə və nəqliyyatda olan elanları anlayaraq qeyd aparır. | Şagirdlər qatar stansiyasında bir neçə elana qulaq asırlar. Bu elanlar orta sürətlə səsləndirilir və azacıq kənar səslə müşayiət olunur. Hər elandan sonra bir tərəf müqabili danışır və nə edəcəklərinə qərar verirlər. **Nümunə:** Instructions: You are on Platform 2. It is 9:35, and you are waiting for the 9:45 train to Gori. Announcement: *Attention passengers. The 9:45 train to Gori will arrive at 9:50 at Platorm 3.* Discussion with partner: S1: *We need to wait 15 minutes, not 10 minutes.* S2: *Yes, but we also have to go to Platform 3 now.* |
| **Standart 11-1.3.** Canlı və ya lentə yazılmış materialları dinləyib anlayır. | |
| 11-1.3.1. Aydın və asta sürətli nitqdə tanış mövzular üzrə asan başa düşülən söhbətlərin və xəbər bülletenlərinin əsas məqamlarını anlayır. | Şagirdlər Azərbaycanın müxtəlif yerlərində baş verən hadisələr haqqında qısa televiziya xəbərləri dinləyirlər. Onlar hər hekayədən əsas 2-3 məqamı yazır və 3-4 şagirddən ibarət qruplarda cavablarını müqayisə edirlər. **Nümunə:** A story about lots of snow in Shaki (there will be 45 cm of snow this weekend, many roads are closed, ski resort owners are very happy); a story about a Korean festival of food and culture at Port Baku Mall (it will last for 2 weeks, there are musical performances, visitors can buy Korean food) |
| 11-1.3.2. Hekayələr və digər rəvayətlərdəki əsas məqamları və mühüm detalları aydın və asta nitqdə anlayır. | Hekayə və ya hekayədəki mühüm detallar çox vaxt konkret olacaq, lakin bəzən insanların hissləri, münasibətləri, inancları və s. kimi mücərrəd ola bilər Şagirdlər 11-1.1.1.-dəki dinləmə mətninə yenidən qulaq asır və sonra vacib təfərrüatlar haqqında suallara cavab verirlər. |
| 11-1.3.3. Aydın və asta nitqdə vizual dəstəklə tanış mövzuda birbaşa nümayiş etdirilən təqdimatların əsas məqamlarını anlayır. | Şagirdlər odunla qızdırılan pizza sobasından necə istifadə etmək barədə video çarxa baxırlar. Onlar vacib mərhələləri qeyd edir, sonra mərhələlərin siyahısını tamamlamaq üçün 3-4 nəfərdən ibarət qruplarda işləyirlər. **Nümunə:** After you prepare the wood: *1. Light the fire 2. Wait 1 ½ hours 3. Move the fire to the left side. 4. Put more wood on the fire. 5. Let the left side warm up, then move the fire to the right side. 6. Check the temperature. 7. Clean the left side. 8. Put in a pizza. 9. Cook the pizza for 90 seconds.* |
| **Standart 11-1.4.** Dialoq və söhbətləri dinləyib anlayır. | |

| | |
|---|---|
| 11-1.4.1. Bəzən müəyyən söz və söz birləşmələrinin təkrarlandığı aydın nitqdə mövzunu müəyyən edərək gündəlik mövzulara aid söhbətin əsas məqamlarını anlayır. | Şagirdlər bir neçə qısa söhbəti dinləyirlər. Şagirdlər hər bir söhbətdə ya valideynlərinin nə işlə məşğul olduqlarını, ya da nənə və babalarının harada yaşadığını və onları sonuncu dəfə nə zaman gördüklərini müzakirə edirlər. Hər bir söhbət üçün şagirdlər valideynlərin peşələrini və ya nənə və babalarının yaşadıqları yeri və onları sonuncu dəfə nə zaman gördüklərini müəyyənləşdirirlər. |
| 11-1.4.2. Bəzən müəyyən söz və söz birləşmələrinin təkrarlandığı aydın nitqdəki geniş müzakirələrdə razılıq və fikir ayrılığını tanıyır. | 11-1.4.3.-də verilmiş söhbətdə qardaş və bacı hekayədəki bəzi detallarla razılaşmır, başqa detallar ilə razılaşırlar. İş vərəqində təfərrüatlar sadalanır; şagirdlər danışanların razı və ya narazı olduqlarını yazmalıdırlar. Daha sonra isə danışanların dediklərini qeyd etməlidirlər (hekayənin hər iki variantı və ya tək razılaşdırılmış variantı) yazmalıdırlar. **Nümunə:** S1: *And Grandma's cat had 3 kittens.* S2: *No, there were 4 kittens.* S1: *No, there were 3. I'm sure.* S2: *No…* S1: *Well, anyway, we also helped Grandpa feed the lambs. I think there were 10 or 12.* S2: *I think there were 11.* S1: *Yeah, I think you're right.* → *1. Kittens: <u>Disagree. 3 or 4 kittens.</u> 2. Lambs: <u>Agree. 11 lambs</u>.* |
| 11-1.4.3. Bəzən müəyyən söz və söz birləşmələrinin təkrarlandığı aydın nitqdə mövzunu müəyyən edərək geniş müzakirələrin əsas məqamlarını anlayır. | Şagirdlər bir qardaş və bacının dostları ilə olan söhbətini dinləyirlər. Söhbətdə onlar həftə sonu nənə və babalarının fermasına etdikləri səyahətdən danışırlar. Onlar hekayənin əsas məqamlarını icmalda tamamlayırlar, sonra isə cavablarını tərəf müqabili ilə nəzərdən keçirirlər. **Nümunə:** *On Friday <u>they traveled by car</u>. On Saturday <u>they helped their grandparents on the farm</u>, On Sunday <u>they walked around the village</u>, and then <u>they drove home</u>.* |
| **Standart 11-1.5.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 11-1.5.1. Tanış olmayan sözlərin mənasını anlamaq üçün onların morfoloji quruluşundan istifadə edir. | Şagirdlərə inkar prefikslərlə A2 və B1 sözlərindən törəmiş 10 tanış olmayan sözün (B1-dən yuxarı) siyahısı verilir (e.g., *<u>un</u>tie, <u>un</u>changed, <u>un</u>do, <u>un</u>burned, <u>dis</u>approve, <u>dis</u>connect, <u>mis</u>behave, <u>mis</u>communication, <u>in</u>complete, <u>in</u>excusable*). Şagirdlər 10 qısa söhbətə (hər biri 15-30 saniyə olmaqla) qulaq asırlar. Söhbətin hər birində siyahıda verilmiş sözlərdən biri istifadə olunur və şagirdlər hər sözün mənasını kontekstdən anlayırlar. **Nümunə:** S1: *My mother was making cookies, but she forgot, and left them in the oven too long* S2: *Oh no! Did all of the cookies get burned, or were some OK?* S1: *Well, we had to throw away the black ones, but a few were <u>unburned</u>. We can still eat those.* |

| | |
|---|---|
| 11-1.5.2. Mətnlərdə verilən sətiraltı məlumatlar haqqında nəticə çıxarır. | 11-1.1.1. və 11-1.4.1.-dəki mətnlər ən azı bir nəzərdə tutulan, lakin qeyd olunmayan məlumatdan ibarətdir. Şagirdlər bu məlumatdan istifadə edərək nəticə çıxarmalıdırlar. **Nümunə:** Passage: *After we visited the museum in Gori, we stopped in the supermarket across the street and got some snacks for the ride to Borjomi. → 1. After the museum, Bob felt A. hungry B. sad C. sleepy D. thirsty.* |
| 11-1.5.3. Hekayələrdə və söhbətlərdə daha sonra nə baş verəcəyini proqnozlaşdırır. | 1.4.1.-dəki hər söhbətin sonunda gələcəkdə nə baş verəcəyi ilə bağlı ipucu var. Şagirdlər bundan sonra nə olacağını təxmin etmək üçün ipuçlarından istifadə etməlidirlər. **Nümunə:** Passage: *Yeah, I can't wait to go back and visit again. The only problem is that my parents don't have time to take me again until next month. → 1. When will Angela go back and visit her grandparents again? → next month* |
| 11-1.5.4. Yazılı və ya şifahi başlıqlardan istifadə edərək bəsit nəticə çıxararaq proqnoz verir. | 11-1.3.1.-ə bax. Xəbərlər proqramında hər bir xəbər təqdim olunmazdan əvvəl altyazı (ekranın aşağı hissəsində mətn) və ya şəkil və ona aid mətn verilir. Xəbərin mövzusunu proqnozlaşdırmaq üçün hər dəfə video dayandırılır. Daha sonra şagirdlər xəbəri dinləyir və verdikləri proqnozu dəqiqləşdirirlər. |
| 11-1.5.5. Mətnin mənasını anlamaq üçün ümumişlək bağlayıcılardan (həm mənasına, həm də zaman ardıcıllığına görə) ritorik suallardan və ya söhbətin mövzusundan istifadə edir. | Şagirdlər monoloq, xidməti görüş və şəxsi söhbətlər də daxil olmaqla bir neçə orta həcmli (hər biri 45-90 saniyə) mətni dinləyirlər. Söhbət daxilindəki ardıcıllıq pozulsa da; şagirdlər mətni dinləməzdən əvvəl bağlayıcılardan (və məzmundan) istifadə edərək mətnin düzgün modelini qururlar. Onlar ardıcıllığı pozulmuş cümlələri düzgün olaraq sıralayırlar. **Nümunə:** *3. I'm so glad I was able to ask him. His advice worked. 2. I called my uncle, and he explained how to hire one. 1. My friends and I didn't know how to find a driver to take us somewhere for the whole day.* |
| **Məzmun xətti 2. Danışma** | |
| **Standart 11-2.1.** Sait və samitləri düzgün tələffüz edir. | |

| | |
|---|---|
| 11-2.1.1. Tanış sözlərdə ana dilində olmayan səslərin hamısını əsasən uyğunlaşdıraraq tələffüz edir. | Şagirdlər cütlərlə işləyərək ‘informasiya boşluğu’ tapşırıq növünü həyata keçirirlər. Onların hər ikisi otel işçiləridir və hansı qonaqların hansı otaqlara təyin olunduğunu təsdiqləməyə çalışırlar və hər birinin əlində natamam siyahı var. Mümkün olan yerdə, qonaqların adlarında [θ] və ya [ð] səsləri olan və otaq nömrələrinin çoxunda 3, 13, 30 və ya 300 və s. 3 rəqəmi ilə bağlı nömrələrdən istifadə edirlər. **Nümunə:** S1: *What room is Mr. Pith in?* S2: *He's in Room 313. Who is in Room 432?* S1: *The Johnson brothers.* |
| 11-2.1.2. Tanış sözlərdə ana dilində olmayan səs birləşmələrinin hamısını əsasən uyğunlaşdıraraq tələffüz edir. | Şagirdlər cütlərlə işləyərək ‘informasiya boşluğu’ tapşırıq növünü həyata keçirirlər. Onlar sonu **-ld** , **-lt** **, -lds** və **-lts** ilə bitən sözlərə fokuslanırlar. Şagirdlərdən biri antikvar mağazada işləyir, digəri isə kiməsə qeyri-adi hədiyyə axtaran müştəridir. İşçi heç vaxt müştərinin tam olaraq nə istədiyini tapa bilmir, əksinə həmişə oxşar məhsul təklif edir. **Nümunə:** *The customer wants a diamond ring; the shop worker has a ring with an emerald. The customer wants to buy a painting of a wild horse; the shop only has a painting of an elk. The customer wants to know if the shop has any old clothes, but they only have a used belt.* |
| **Standart 11-2.2.** Vurğu və intonasiyadan düzgün istifadə edir. | |
| 11-2.2.1. Tanış sözlərin vurğusunu rəvanlıqla düzgün qoyur. | Şagirdlər cütlərlə rollu oyun oynayırlar. Onlar hava limanında və ya qatar stansiyasındadırlar. Cütlərdən biri səyahətçi, digəri isə hava yolu/dəmiryol işçisidir. **Nümunə:** *S1 directions: You are on FLİGHT EİGHty-THREE, dePARting at THREE TWENty-FIVE p.m. Your flight has been deLAYed, and you want to find a COFfee SHOP to wait in. S2 directions: The person should go through seCURity to the dePARtures AREa, take the ElEVAtor upSTAIRS, and the COFfee SHOP is close to GATE B-THIRty.* |
| 11-2.2.2. Tanış frazeoloji birləşmələrin və ifadələrin vurğusunu rəvanlıqla düzgün qoyur. | Bax 11-2.2.1. |
| 11-2.2.3. Müxtəlif növ intonasiya və cümlə vurğusu nümunələrini rəvanlıqla düzgün tələffüz edir. | Ev tapşırığı olaraq, şagirdlər başqa ölkədə bir həftəlik ziyarət etmək istədikləri yeri tapmaq üçün internetdən istifadə edirlər. Onlar 3-4 şagirddən ibarət qruplara bölünürlər. Hər bir şagird öz tərəfdaşına 2 sual verir. Bu suallardan biri ümumi sual, digəri isə xüsusi sual olmalıdır. |

| | |
|---|---|
| **Standart 11-2.3.** Monoloji nitqdən istifadə edir. | |
| 11-2.3.1. Əsas məqamların xətti ardıcıllığı kimi təqdim olunan məlumatı uyğun səlisliklə paylaşır. | Şagirdlər rollu oyun oynayırlar. Onlardan biri xarici qonaq, digəri isə mobil telefon satıcısıdır. Xarici qonaq Azərbaycan üçün SİM kart almalıdır. Xarici qonaqda olan məlumatlara Azərbaycanda qalma müddəti, mesaj və zənglərin miqdarı daxildir. Satıcıda 3 fərqli paket qiyməti və xüsusiyyətləri olan vərəq var (10 günlük, 21 günlük, 30 günlük; müxtəlif miqdarda məlumatlar; hüdudsuz mesaj və zənglər yaxud limitlər). Hər bir şagirddə fərqli mobil paketi mövcuddur. |
| 11-2.3.2. Az hazırlıqla təqdimatlar edir. | 11-2.3.1.-ə bax (satıcı rolunda olan şagird bu paketləri nəzərdən keçirməli, və daha sonra onların fərgini izah etməlidir). |
| **Standart 11-2.4.** Məlumat mübadiləsi apararaq müsahibədə iştirak edir. | |
| 11-2.4.3. Hazırlaşmadan tanış mövzular haqqında danışaraq məlumat mübadiləsi aparır. | Şagirdlər cütlərlə işləyərək tərəf müqabilinə öz doğma şəhərlərini axırıncı dəfə nə vaxt tərk etdiklərini, hara getdiklərini, necə səyahət etdiklərini və nə qədər məsafə qət etdiklərini danışırlar. Söhbət zamanı onlar qeydlər aparırlar, sonra tərəf müqabilini dəyişirlər və ilk tərəf müqabilinin dediklərini yeni tərəf müqabilinə söyləyirlər. |
| **Məzmun xətti 3. Oxu** | |
| **Standart 11-3.1.** İnformativ mətnləri oxuyub anlayır. | |
| 11-3.1.1. Tanış mövzulara dair asan başa düşülən informativ mətnlərdə olan bütün detalların tapır. | Bu alt standart çox detalları əks etdirən orijinal mətnlərə aiddir.<br>Şagirdlərlər layihə üzərində işləmək üçün iki həftə müddətində Azərbaycan şirkətinə səfər edəcək əcnəbi mühəndisə Bakıdakı ofislərdən birinin məktubunu oxuyurlar. Elektron məktub iki həftəlik səfər üçün hansı mobil telefon şirkətindən SİM kart almağı və hansı paketi seçməyı tövsiyə edən bir abzasdan ibarət mətndir. Şagirdlər paketin müddətini, məlumat limitini, zənglərin miqdarını və mesajlarının sayını vurğulayırlar. |
| 11-3.1.2. Tanış mövzulara dair asan başa düşülən informativ mətnlərdə olan bütün detalları anlayır. | 11-3.1.1.-ə bax. Şagirdlər mətnə aid suallarına cavab verirlər. |
| 11-3.1.3. Tanış mövzulara dairasan başa düşülən informativ mətnlərdə olan əsas ideyanı və vacib fikirləri anlayır. | 11-3.1.1.-ə bax. Şagirdlər mətnin əsas ideyasına dair suallara cavab verirlər (SİM kart tövsiyəsi, hava limanında qarşılama, otel rezervasiyası). |

| | |
|---|---|
| 11-3.1.4. Asan başa düşülən informativ mətnlərin tələb olunan mövzuya uyğunluğunu müəyyən edir. | Bu alt standart "oriyentasiya üçün oxuma" ilə bağlıdır. Məlumat axtararkən şagird mətnin mövzuya uyğun olub olmadığını müəyyən edə bilər. Bu, az-çox erkən səviyyəli akademik öncəsi oxu prosesidir. Şagirdlər internet səhifələrində şəhərin turistik yerləri haqqında 2 səhifəlik məlumatla tanış olurlar. İnternet səhifələrindən əldə etdikləri məlumatların bəziləri uyğun deyil (məsələn, otellər), bəziləri isə biri digərindən köçürülüb. Şagirdlər hansı məlumatın uyğun olub-olmadığını və hansının təkrar olduğuna qərar verməlidirlər. Sonra cavablarını cütlərlə işlyərək nəzərdən keçirirlər. |
| **Standart 11-3.2.** Bədii mətnləri oxuyub anlayır. | |
| 11-3.2.1. Gündəlik həyatda tez-tez işlədilən dil vahidlərindən ibarət bədii mətnlərdə olan detalları tapır. | Bu alt standart çox detalları əks etdirən mətnlərə aiddir. Şagirdlər bir nəfərin Moskvaya tətil səfəri etməsi haqqında hekayə oxuyurlar. Onlara mətndə tapmaq və altından xətt çəkmək üçün təfərrüatların siyahısı verilir. Tapşırığı bitirdikdən sonra onlar cavablarını bir-biri ilə müqayisə edirlər. |
| 11-3.2.2. Gündəlik həyatda tez-tez işlədilən dil vahidlərindən ibarət bədii mətnlərdə olan detalları anlayır. | 11-3.2.1.-ə bax. Şagirdlər təfərrüatları tapdıqdan sonra suallara cavab verirlər. |
| 11-3.2.3. Gündəlik həyatda tez-tez işlədilən dil vahidlərindən ibarət bədii mətnlərdə olan əsas ideyanı və vacib fikirləri anlayır. | 11-3.2.1.-ə bax. Şagirdlər mətndəki əsas ideya və ya vacib fikirlərlə bağlı suallara cavab verirlər. |
| **Standart 11-3.3.** Nəticə çıxararaq proqnozlaşdırır. | |
| 11-3.3.1. Tanış olmayan sözlərin mənasını anlamaq üçün onların morfoloji quruluşundan istifadə edir. | Moskvaya səyahət haqqında hekayədə (bax 3.2.1) şagirdlərə tanış olmayan və ya başqa sözlərdən törənən bir neçə söz var; (bu sözlər B1 və ya daha aşağı səviyyədə, və ya tanış "beynəlxalq" sözlərdir). Əsas sözün tanış olmaması ehtimalı olduqda lüğətə əlavə olunur. Şagirdlər törəmə sözlərin mənalarını anlamaq üçün morfoloji ipuculardan istifadə edirlər. **Nümunə:** *disagree* (B1) → *disagree<u>ment</u>* (B2); *announce* (B1) → *announce<u>ment</u>* (off-list); *attach (computing)* (B1) → *attach<u>ment</u>* (B2); *encourage* (B1) → *encourage<u>ment</u>* (B2) |
| 11-3.3.4. Sərlövhə, başlıq və ya yarımbaşlıqlardan istifadə edərək mətnin məzmunu haqqında bəsit nəticə çıxararaq proqnoz verir. | 11-3.2.1.-dəki hekayəni oxumazdan əvvəl şagirdlər başlıq və bölmə yarımbaşlıqlarına baxır və onlardan istifadə edərək məqalənin məzmununun nədən ibarət olduğunu anlamağa çalışırlar. Bu şagirdlərə hekayəni proqnozlaşdırmaq və bir sıra suallara cavab vermək üçün kömək edir. |

| | |
|---|---|
| 11-3.3.5. Hekayələrdə daha sonra nə baş verəcəyini proqnozlaşdırır. | 11-3.2.1.-dəki hekayə bir neçə hissəyə bölünür və hər bir hissənin öz yarımbaşlıqları var. Hər bir hissənin sonunda şagirdlər oxumağı dayandırmalı və növbəti hissədə nə baş verəcəyi ilə bağlı proqnoz verməlidirlər. Daha sonra şagirdlər öz proqnozlarını tərəf müqabili ilə müzakirə etməlidirlər. |
| 11-3.3.6. Mətnin mənasını başa düşmək üçün ümumişlək bağlayıcılardan (həm mənasına, həm də zaman ardıcıllığına görə) istifadə edir. | Şagirdlərə Moskvaya səyahət haqqında hekayənin xülasəsi verilir (bax 11-3.2.1.). Hekayədə 6-8 cümlənin ardıcıllığı səhv verilmişdir. Şagirdlərə həmçinin həmin cümlələrə uyğun olan, lakin ardıcıllığı pozulmuş bağlayıcıların da siyahısı təqdim edilir. Şagirdlər cütlərlə işləyərək cümlələri hansı ardıcıllıqla yerləşdirməli, hansı bağlayıcılardan istifadə etməli olduqlarına orijinal mətnə baxmadan qərar verirlər. Nəticədə məntiqi cəhətdən əlaqəli bir abzasdan ibarət mətn yaranır. |
| **Məzmun xətti 4. Yazı** | |
| **Standart 11-4.1.** Bağlayıcılardan istifadə edərək rabitəli mətn yazır. | |
| 11-4.1.1. Əsas məqamları sadalamaq üçün bəlli sayda bağlayıcılardan və birləşdirici vasitələrdən istifadə edərək, bir sıra qısa, sadə elementləri bir-biri ilə əlaqələndirir. | Bu “elementlər” adətən bir neçə əlaqəli cümlə və ya bütöv bir abzasa aiddir. Bağlayıcılardan başqa birləşdirici vasitələrə sözlərin təkrarı, yüngülvarı təkrarlama və paralel struktur daxildir.<br>Şagirdlər getdikləri və ya təsəvvür etdikləri səyahət haqqında çox qısa hekayə (1-2 qısa abzasdan ibarət mətn) yazırlar. Onlar tərəf müqabili ilə iş vərəqlərini dəyişərək ifadələr və cümlələr arasında bağlayıcılardan daha yaxşı istifadə üçün təkliflər verir, daha sonra ehtiyac olduqda iş vərəqlərindəki yazını redaktə edirlər. |
| **Standart 11-4.2.** Söz, söz birləşmələri və cümlələrdən istifadə edərək müxtəlif həcmli mətnlər yazır. | |
| 11-4.2.1. Məhdud sayda birləşdirici vasitələrdən istifadə edərək bir sıra uzun cümlələr yazır. | Bax 11-4.1.1.<br>Bağlayıcılardan başqa birləşdirici vasitələrə sözlərin təkrarı, yüngülvarı təkrarlama və paralel struktur daxildir. |
| 11-4.2.2. Çox qısa esse və ya məruzələr yazır. | Müxtəlif mobil telefon paketləri haqqında 11-2.3.1.-dəki məlumatdan istifadə edərək, şagirdlər üç paket haqıında məlumatı ümumiləşdirən qısa esselər yazırlar. |
| 11-4.2.3. Sadə məlumatların aktuallığını çatdıran qeydlər yazır. | Şagirdlər xəyali iş həmkarına qısa bir qeyd yazır. Qeyddə onlara müəyyən vaxtda əcnəbi qonağı qarşılamaq üçün hava limanına getmələri, sonra isə onu taksi ilə konkret otelə aparmaları deyilir. Şagirdlər özləri uyğun olan bir yerli otel seçə bilərlər. |

| | |
|---|---|
| 11-4.2.4. Mühüm əhəmiyyət kəsb edən sadə məlumatları mətn mesajları ilə çatdırır və söhbəti davam etdirir. | Bir boş vərəqdən istifadə edərək, hər bir şagird cütü növbə ilə bir-birinə mesaj yazırlar (imitasiya). Təqlid mətn söhbəti vaxt təyin etməklə bağlıdır. |
| 11-4.2.5. Ərizə formaları və ya şəxsi məktublar daxil olmaqla, sadə elektron məktubları və ya faktiki xarakterli məktubları yazır. | Şagirdlər 11-3.1.1.-də göstərilən nümunəyə uyğun olaraq elektron məktub mesajı yazırlar. Elektron məktub layihə üzərində işləmək üçün iki həftə ərzində Azərbaycan şirkətinə baş çəkəcək xarici mühəndisə və ya digər peşəkara (şagirdlər istədikləri kimi ixtisaslarını dəyişə bilərlər) göndərilir. 11-2.3.1.-dəki mobil telefon paketi məlumatından istifadə edərək, elektron məktub iki həftəlik səfər üçün hansı mobil telefon şirkətindən SİM kart almağı və hansı paketi satın almağı tövsiyə edən bir abzasdan ibarət mətni ehtiva edir. Orada həmçinin şəxsin hansı oteldə qalacağını bildirən bir abzasdan ibarət mətn var; şagirdlər özləri uyğun olan yerli otel seçirlər. |
| **Standart 11-4.3.** Əsas məlumatı, fikirləri yazılı formada çatdırır. | |
| 11-4.3.1. Aktual hesab etdiyi sadə, asan başa düşülən məlumatları çatdırır, ən vacib hesab etdiyi mərhələni vurğulamağı bacarır. | Bax 11-4.1.1., 11-4.2.2., 11-4.2.3., 11-4.2.4., 11-4.2.5. Şagird artıq ona tanış olan və rutin mövzular haqqında yazmağa müvəffəq olub. O, indi söhbətə dərhal aid olan digər məsələlər haqqında təməl səviyyədə yazılı ünsiyyət qurmağa başlaya bilər. |
| 11-4.3.2. Çatdırmaq istədiyi əsas fikri başa düşülən şəkildə yazılı formada ifadə edir. | Bax 11-4.1.1., 11-4.2.2., 11-4.2.3., 11-4.2.4., 11-4.2.5. |

## Xarici dil tədrisinin xarakterinə uyğun təlim strategiyaları

Xarici dil dərslərinin səmərəli təşkilində önəmli məqamlardan biri hər bir məzmun standartını reallaşdırarkən ona uyğun təlim metodlarının seçilməsidir. Buna misal olaraq aşağıda TFT (Təqdimat – Fəaliyyət – Tətbiq) modeli üzrə dil təcrübəsinin növləri izah edilmişdir.

Nəzarətedici fəaliyyət (controlled practice) (TFT-də "F" ilə ifadə olunan) və yönləndirici(guided practice), kommunikativ fəaliiyətlər (communicative practice) (hər ikisi birlikdə TFT-də üçüncü hərf "T" ilə ifadə olunan) şifahi və yazılı ola bilər.

TFT-də təcrübə mərhələsini ehtiva edən nəzarətedici fəaliyyətə aşağıdakılar daxildir:

• **Əzbərdən söyləmə** (dialoq, şeir və s.)**.** Siniflə birgə və ya fərdi yerinə yetirilə bilər.

• **Ucadan oxu.** Siniflə birgə və ya fərdi oxu (buraya dialoqlar da daxildir).

• **Sual-cavab mübadiləsi.** Nümayişetdirici sual – müəllim bu növ sualın cavabını özü bilir, lakin şagirdin nə qədər düzgün cavab verdiyini və eyni zamanda sualı düzgün başa düşüb-düşmədiyini yoxlayır. Məsələn, müəllim soruşa bilər: "Mənim çəkmələrim nə rəngdədir?"

• **Tapşırıqlar.** Şagirdlər dil qaydaları və ya tələffüz ilə bağlı məqamları təkrar edirlər. Bu mexaniki fəaliyyətdə şagirdlər müxtəlif sözlərdən istifadə edir və tədricən cümlə qurmağa başlayırlar. Bu fəaliyyət sürətin əldə edilməsi üçün faydalı ola bilər, lakin ondan sui-istifadə şagirdlərin öyrənməsini ləngidə bilər.

• **Tərcümə üzrə tapşırıqlar.** Tərcümə üzrə tapşırıqlar dil qaydaları, tələffüz və söz bazası üçün faydalı ola bilər, lakin real həyatla bağlı mətnlərin tərcüməsi daha çox faydalıdır.

• **İmla**. İmla şifahi təqdim edilən (müəllim tərəfindən və ya səsyazma qurğusu vasitəsilə) mətni dinləyib yazmaqdır. İmla dinləmə və yazma, həmçinin söz bazası və dil qaydaları tələb edir. O, faydalı ola bilər, lakin hər dərsdə tətbiq etməyə, dərslərin böyük hissəsini ona həsr etməyə ehtiyac yoxdur.

• **Üzündənköçürmə.** Şagirdlər vizual təqdim edilən mətni köçürürlər. Bu, müəyyən səviyyədə düzgün oxu və yazı üçün faydalı ola bilər, lakin heç cür nitqin və dinləmə bacarığının inkişafına təsir etmir.

Tətbiq mərhələsinə müəllimin yönləndirməsi ilə baş tutan bütün kommunikativ fəaliyyətlər daxildir.

*Yönləndirici fəaliyyət* aşağıda verilənləri əhatə edir:

• **Zəncirvari hekayə**. Hər bir şagird bir cümlə söyləməklə bütün sinif bir hekayəni davam etdirir.

• **Davametdirici (referent) sual və cavablandırma.** Referent sual – müəllimin öncədən cavabını bilmədiyi sualdır. Məsələn, müəllim şagirddən soruşur: "Bazar günü nə etmisən?"

• **Məlumatın dəyişdirilməsi.** Şagirdlər məlumatı bir formadan digərinə keçirirər. Məsələn, onlar məlumatı dinləyib onun əsasında diaqramı doldura bilərlər.

• **İnformasiya mübadiləsi**. İkitərəfli əlaqə tələb edən fəaliyyət növüdür. Bir və ya iki (adətən, iki) şagird və ya qrup müəyyən məqsədlə informasiyaları paylaşa bilərlər. Hər bir şəxsdə tapşırığı həll etmək üçün müəyyən məlumat çatışmır və o, onu digərlərindən soruşur. Bu, rollu oyuna bənzəyir, lakin məqsədyönlü olduğu üçün şagirdlərə daha az seçim imkanı verir.

• **Rollu oyunun və ya dialoqun yazılması və icra olunması.** Şagirdlər dialoqu səsli oxuyub və ya şifahi yadda saxlayıb onu ifadə edə bilərlər, amma bu, kommunikativ fəaliyyət

deyildir. Bu tip praktik fəaliyyəti həddindən artıq istifadə etmək olmaz, çünki bu fəaliyyəti bitirdikdən sonra şagirdlərin real həyatda (spontan və ssenarisi yazılmamış) düşdüyü situasiyada dialoq qurmalarında hələ də çətinlik çəkəcəklər. . Bəzən şagirdlər özləri də rollu oyunlar qurub yaza bilərlər. Bu mümkündür və qəbulediləndir. Lakin unutmaq olmaz ki, bu cür tapşırıqların qurulmasına (yazılmasına) dərsdə uzun vaxt sərf etmək olmaz. Rollu oyunların keçirilməsinin əsas məqsədi kommunikativ fəaliyyəti artırmaqdır. Çünki şagirdlər rollu oyunları məşq etmədən, müstəqil olaraq tapşırıqları yerinə yetirə bilməyəcəklər.

Sonra tətbiq mərhələsində aşağıdakı nümunələri ehtiva edən kommunikativ fəaliyyət başlayır:

**Rollu oyunlar.** Şagirdlərə tapşırığı yerinə yetirmək üçün müəyyən bir rol verilir. Bu zaman şagirdlər nisbətən sərbəst olurlar, məşq etmirlər, eləcə də deyəcəkləri sözləri yazmadan təklif olunan rolu oynayırlar. Onlara verilən rol üçün nə deyəcəklərini planlaşdırmaq üçün müəyyən vaxt verilə bilər. Lakin bu vaxt şagirdlərə məşq etmək üçün nəzərdə tutulmayıb. Rollu oyunlar çox vaxt kommunikativ fəaliyyətin prototipi hesab olunur.

• **Dram.** Pyesdə, əsərdə, hekayədə və s. rolun oynanılması. Bu fəaliyyət yaddaşa əsaslansa da kommunikativ fəaliyyət hesab edilir, çünki şagirdlər burada daha çox danışırlar.

• **Tərtibetmə.** İdeyaların, hadisələrin yazılmasını, layihənin nəticələrinin təsvirini ehtiva edir. Buraya bir abzasdan ibarət mətn, esse, açıqca, elektron məktub və ya məktubların yazılması daxildir.

• **Problem həlletmə üzrə fəaliyyət.** Bu fəaliyyət şagirdlərə spesifik problemi həll etmək üçün məhdud vasitələr təqdim edir. Bu, şagirdlərdən qrup işində əməkdaşlıq etməyi tələb edir. Məsələn, şagirdlər səyahət edərkən xilasedici qayığa və ya məskunlaşmamış adaya hansı əşyaları götürməyi qərar verməlidirlər.

• **Simulyasiya modelləşdirməsi.** Bu növ fəaliyyət, adətən, daha yuxarı siniflər üçün nəzərdə tutulur və həftələrlə, hətta aylarla davam edə bilir. Bu tapşırıqlar şagirdlərdən real addımlar və təcrübələri modelləşdirməyə əsaslanan fəaliyyətlər üzrə birgə iş tələb edir. Klassik nümunə: şagidlərə xəyali pullar verilir, onlar real bazar məlumatlarını gündəlik olaraq izləyərək aksiyaya qoyulan investisiyaları planlaşdırmalı və idarə etməlidirlər. Şagirdlər tədqiqatı və planlaşdırmanı hədəf dildən istifadə edərək yerinə yetirirlər, həmçinin mütəmadi təqdimatlar edirlər və ya öz inkişaflarını əks etdirən hesabatlar yazırlar. Digər nümunələr bağın planlaşdırılmasını, körpünün layihələndirilməsini və ya cəmiyyətin maarifləndirilməsi (məsələn, siqaret əleyhinə mübarizə və ya təhlükəsiz mühitlə bağlı) kampaniyasının planlaşdırılmasını ehtiva edə bilər.

• **Müsahibə.** Şagirdə, vəziyyətdən asılı olaraq, bir neçə digər şagirddən və ya dil daşıyıcılarından məlumat almaq təklif olunur.

• **Müzakirə.** Bu, mövzunun müzakirə olunduğu debat və ya qrup müzakirəsinin digər forması ola bilər. Müəllim müəyyən tərəfləri və ya mövqeləri (məsələn, geni modifikasiya olunmuş qidaların istifadəsinin lehinə və ya əleyhinə, siqaretin qadağasının lehinə və ya əleyhinə, yeniyetmələrin kofe içmələrinin lehinə və ya əleyhinə) müəyyən edə bilər və ya şagirdlərə debatda öz tərəflərini seçməyə icazə verə bilər.

• **Təqdimat və ya şifahi hesabat**. İdeya, hadisə, layihənin nəticəsinin şifahi təqdimatı və s. Dil tədrisinin geniş yayılmış problemlərindən biri budur ki, şagirdlər, adətən, öz yaşıdlarının təqdimatını dinləmirlər. Bu problemi həll etmək üçün müəllim təqdimatdan sinfin qalan hissəsi üçün dinləmə vasitəsi kimi istifadə edə bilər. Bunun üçün müəllimlər şagirdlərə təqdimat zamanı tapşırıq verməlidir ki, onların diqqəti cəmlənsin, fikirləri dağılmasın.

- Hər bir şagirddən təqdimat üzrə iki sual yazmaq istənilir. Onlardan bəziləri məşğələ zamanı verilə bilər; müəllim digərlərini toplayar və onları nəticə kimi, yaxud təqdimatın təşkilinin düzgünlüyü və uyğunluğuna görə dəyərləndirər.
- Müəllimlər hər bir təqdimat üzrə suallar hazırlaya bilərlər. Əgər bütün təqdimatlar eyni formatda olarsa, həmin suallar bütün təqdimatlar üçün keçərli olar. Cavabların qiymətləndirilməsi, adətən, düzgün məzmuna görə aparılmalıdır.

Çox vaxt doğru anlaşılmayan vacib məqamlardan biri budur ki, TFT çərçivəsində müəllimlər yalnız bir praktik fəaliyyət və bir tətbiqi fəaliyyət planlaşdırmalıdırlar. Lakin tam əksinə olaraq, müəllimlər şagirdlərin öyrəndiklərinin hamısını istifadə edə bilmək imkanı qazanmaları üçün lazım olan sayda fəaliyyəti əhatə etməlidirlər. Belə çıxır ki, şagirdlərə bir və ya bir neçə yönləndirici və həmçinin kommunikativ fəaliyyət lazımdır. Müəllimlər "onlara neçə tip praktik fəaliyyət – neçə nəzarətedici, neçə yönləndirici və neçə kommunikativ fəaliyyət lazımdır" suallarını cavablandırmaq üçün öncə bir sıra digər suallara cavab tapmalıdırlar:

• Şagird dərsin növbəti mərhələsinə hazır olmaq üçün neçə bu tip praktik tapşırıq həll etməlidir? (Məsələn, neçə nəzarətedici praktik fəaliyyət lazımdır ki, müəllimin rəhbərliyi altında təcrübəyə hazır olsun?)

• Neçə kommunikativ fəaliyyət tələb olunur ki, şagirdlər tədris materialını (bacarıqlarını) sinif xaricində tətbiq edə bilsinlər?

• Şagirdlər tamamilə yeni biliklər öyrənəcəklərmi, yoxsa təkrardır? Əgər təkrardırsa, onu nə zaman öyrəniblər – dünən, yoxsa keçən il?

• Əgər eyni tip tapşırıq veriləcəksə (nəzarətedici, yönləndirici və ya kommunikativ fəaliyyət), şagirdlər üçün bu nə qədər darıxdırıcı olacaq?

Fəaliyyətlərlə bağlı sonuncu, açar məqam odur ki, onlar təlim məqsədinə uyğun olmalıdırlar. Məsələn, əgər sinif gələcək zamanı öyrənməlidirsə, praktik fəaliyyət də onunla bağlı olmalıdır, keçmiş zamanla deyil. Əgər şagirdlər geyimə aid lüğət tərkibini öyrənirlərsə, praktik fəaliyyət yeməyə, nəqliyyata və ya havaya yönəlməməlidir. Bu yanaşma aydın olmalıdır və təkrara ehtiyac duyulmamalıdır. Əslində, bu yanaşma kommunikativ fəaliyyəti planlaşdırmağı öyrənən müəllimlər üçün tez-tez qarşıya çıxan bir problemdir.

Bu bölmədə praktik tövsiyələr vermək məqsədilə hər bir standarta və onun altstandartlarına uyğun olan fəaliyyət növləri izah olunur.

**Dinləmə** (dərsin dinləməyə həsr olunmuş bir hissəsində) mərhələsində aşağıdakı fəaliyyət ardıcıllığı izlənilir:

**1. Dinləmə fəaliyyətindən öncəki tapşırıqlar.** Bu tapşırıqlar şagirdlərin dərsə cəlb edilməsi, öyrənmədən öncə lüğət bazası və (daha yüksək mənimsəmə səviyyəsində) dinləyərək anlamanın strategiyalarının öyrədilməsi (məsələn, nitqin məğzini anlamaq və ya nəticə çıxarmaq) fəaliyyətlərini ehtiva edir.

**2. Dinləmə prosesində tapşırıqlar.** Nitqin dinlənilməsi zamanı şagirdlərə hər hansı bir tapşırığı icra etmək təklif olunur: məsələn, müəyyən bir informasiyanı dinləmək, qeydlər etmək və ya iş vərəqindəki boşluqları doldurmaq.

**3. Dinləmə prosesindən sonrakı tapşırıqlar.** Dinləmə prosesindən sonra şagirdlərə, adətən, nitqin məzmunu ilə bağlı tapşırıqlar verilir:

- Anlamanı yoxlamaq üçün sualları cavablandırmaq;
- Nitqi xülasələşdirmək və ya məzmununu müzakirə etmək;
- Nitqin stenoqramı təqdim edilərsə, nitqlə bağlı məqamlar əsasında qrammatika, söz tərkibi və ya tələffüzyönümlü tapşırıqları həll etmək;

- Nəhayət, daha yüksək mənimsəmə səviyyəsi üzrə dinləmə fəaliyyətindən sonra şagirdlər ilkin dinləmə mərhələsində öyrəndikləri müəyyən strategiyaları təlim prosesində necə səmərəli istifadə etmələrini müzakirə edə bilərlər.

**Danışma** (şifahi nitq dərsləri) TFT formatına uyğun aşağıdakı kimi təşkil olunur:

1. **Təqdimat:** Müəllim şagirdlərə dərs materialını təqdim edir. Bu, danışığa istiqamətləndirən tədris materialı ola bilər. Məsələn:
   - İctimai mühitdə danışıq qaydaları;
   - Söhbətin əvvəlində danışıq proseduru və ya strategiyaları, yaxud söhbətin kəsilməsi və ya davam etdirilməsi;

Həmçinin dil qaydaları, tələffüz və ya lüğət bazası ilə bağlı tapşırıqlar da vermək olar.

Təqdimat deduktiv (şagirdlərin tətbiqindən öncə müəllimin qayda və ya strategiyaları izah etməsi, sonra nümunə gətirməsi ilə) və ya induktiv (müəllimin nümunələr gətirməsi və ya modelləşdirməsi ilə tədris olunan mövzunun məğzi ilə bağlı qənaətlərin çıxarılması, sonra isə onların anladıqlarını təsdiq edən təfərrüatlı izahlar verməklə) ola bilər.

2. **Fəaliyyət**: Nəzarətedici fəaliyyət müəllim tərəfindən həyata keçirilir . Adətən, yalnız bir düzgün cavab və ya bir cavablandırma üsulu olur. Bu səbəbdən, danışma üçün fərqli tapşırıq növlərindən istifadə etmək lazımdır.

3. **Tətbiq**: Yönləndirici və kommunikativ fəaliyyət oxşardırlar; yönləndirici fəaliyyət daha çox strukturlaşdırılmış olur, eyni zamanda kommunikativ praktika kimi də daha çox açıqdır, ssenari üzrə aparılmır və real həyatdakı dili təqlid edir.

Danışıqda diqqət tələffüzə yönəldilərsə (sait, samit, vurğu, intonasiya və s.), TFT ardıcıllığını qismən uyğunlaşdırmaq lazımdır. Təqdimat mərhələsindən sonra şifahi nitqi anlamaq üçün bir neçə tapşırıq verilir. Bu tapşırıqları yerinə yetirərkən şagirdlər öyrənilən səsləri tələffüz etməyi məşq etmirlər, əslində, sözün tərkibində bu və ya digər səsin olub-olmadığını müəyyənləşdirirlər. Bundan sonra isə dərs fəaliyyət və tətbiq mərhələsinə keçir.

Dinləmə kimi **Oxu** fəaliyyəti də aşağıdakı ardıcıllığa malikdir.

1. **Oxudan əvvəlki mərhələ**. Bu fəaliyyət növü şagirdlərin dərsə cəlb edilməsi, öyrənmədən öncə lüğət bazası və (daha yüksək mənimsəmə səviyyəsində) oxuyub-anlama strategiyalarını (əsas ideyanın müəyyən edilməsi, mətnin məğzi ilə bağlı qənaətlərin əldə edilməsi, kontekstə görə tanış olmayan sözün mənasının müəyyən edilməsi, nəzərdən keçirməklə oxu və ya tələsik oxu) əhatə edir.

2. **Oxu müddətindəki mərhələ**. Şagirdlər mətni oxuduqları zaman onlara mətnin məzmununa aid müəyyən bir tapşırıq vermək lazımdır. Məsələn, müəyyən informasiyaların tapılması, qeydlərin aparılması, sxem və ya qrafiklərin tərtib edilməsi, iş vərəqində boşluqların doldurulması və s.

**3. Oxudan sonrakı mərhələ**. Oxudan sonra şagirdlərə, adətən mətnin məzmunu ilə bağlı tapşırıqlar etmək, məsələn, anlama məqsədilə sualları cavablandırmaq, mətnin xülasəsini yazmaq və ya məzmununu müzakirə etmək təklif olunur. Mətnə əsasən dil qaydaları, söz bazası və ya tələffüzyönümlü tapşırıqlar yerinə yetirmək təklif olunur.

Daha yüksək mənimsəmə səviyyəsinə uyğun olaraq, şagirdlər oxudan öncə öyrəndikləri strategiyaları təlim prosesində necə tətbiq etdiklərini müzakirə edə bilərlər.

**Yazı** bacarıqlarını inkişaf etdirmək məqsədilə dərslərdə prosessual yanaşma tətbiq etmək tələb olunur. Dərslər (və ya dərs zənciri – adətən, bu, bir neçə mərhələdən ibarət olur və hətta bir neçə həftə müddətinə planlaşdırılır) aşağıdakı fəaliyyət ardıcıllığını ehtiva edir:

**1. Yazıdan öncəki mərhələ**: şagirdlər nə yazacaqlarını planlaşdırır, yazıda istifadə etmək məqsədilə məlumatlar toplayır (məsələn, materiallar oxuyur), beyin həmləsi edirlər və s.

**2. Tərtibat.** Şagirdlər hazırlıq mərhələsində tərtib etdikləri plan əsasında bir abzasdan ibarət mətn, esse və ya digər yazı növündə mətnin ilkin variantını (qaralamasını) yazırlar.

**3. Təkmilləşdirmə mərhələsi**. Şagirdlər öz yazılarını məzmun və tərtibat baxımından təkmilləşdirirlər: məzmunun və strukturun yaxşılaşdırılması məqsədilə cümlələr ixtisar edilir, yeri dəyişdirilir və ya əlavələr edilir. Fəaliyyətlər müəllimlərin qeydləri əsasında sinif yoldaşlarının müzakirəsini də ehtiva edir, bu zaman bütün diqqət dil normalarına deyil, məzmuna və struktura yönəldilməlidir.

**4. Redaktə**. Yazı tapşırıqlarının məzmun və strukturu qənaətbəxş olduğu zaman şagirdlər bu dəfə xüsusi diqqəti dilin düzgünlüyünə yönəldərək bir neçə yeni qaralama variantı hazırlayırlar. Təkmilləşdirmə mərhələsində olduğu kimi, bu mərhələdə də müəllimin qeydləri əsasında şagirdlər yazı işində düzəlişlər edir, tərəfdaşlarla müzakirə və özünüyoxlama həyata keçirir, lakin bu zaman məzmun və struktur deyil, dil normaları diqqətə alınır.

**Dil qaydaları üzrə dərslər** TFT modelində aparılır:

**1.Təqdimat.** Şifahi nitq dərslərində olduğu kimi, təqdimat mərhələsi, vəziyyətə uyğunluq şərti ilə, ya deduktiv, ya da induktiv ola bilər.

**2. Fəaliyyət.** Bu mərhələdə fəaliyyətlər şifahi (məsələn,rollu oyunlar) və ya yazılı (məsələn, iş vərəqlərinin doldurulması) aparıla bilər, yaxud da hər iki formada yerinə yetirilə bilər.

**3. Tətbiq.** Fəaliyyətlər burada da şifahi (məsələn, informasiyanın bərpası tapşırığı və ya rollu oyunlar), yazılı (məsələn, bir abzasdan ibarət mətnin və ya essenin yazılması, müəyyən qrammatik qaydalara riayət etməklə redaktə işinin aparılması) və yaxud hər iki bacarığın tətbiqi şəklində həyata keçirilir.

Şagirdlərin söz bazalarını genişləndirmələri üçün dərslərdə TFT ardıcıllığına riayət edilməlidir. Baxmayaraq ki, onlar oxu və ya dinləmə zamanı yeni sözlərlə tanış olurlar, fəaliyyət mərhələsinə qədər bu etap, təqdimat mərhələsinə aid hesab olunur. Əgər şagirdlər yeni sözlərin istifadəsini məşq ediblərsə, oxu və ya dinləmə mətnlərindəki yeni sözlər təkrarlanaraq yaddaşda möhkəmləndiriləcək. Dil qaydalarının öyrənilməsində də təcrübə və tətbiq mərhələləri ya şifahi, ya yazılı və ya hər iki fəaliyyət vasitəsilə həyata keçirilə bilər.

## Fənlərarası və fəndaxili inteqrasiya

İnteqrasiya – ayrı-ayrı hissələrin məntiqi əlaqə vasitəsilə bir bütövə çevrilməsidir. İnteqrasiya şagirdlərin tədris yükünü azaltmağa imkan verir və vaxtı səmərəli istifadə hesabına inteqrativ bilik və bacarıqlar formalaşdırır. Bundan əlavə, bilik və bacarıqların əldə edilməsində inteqrasiya tədrisin tezliyini və səmərəliliyini artırır, dərsə marağın artırılmasına səbəb olur.

Xarici dilin tədrisində inteqrasiya dilin sosial-kommunikativ vasitə kimi və dilin tətbiq dairəsinin genişləndirilməsinin əsasını qoyur. Xarici dilin tədrisində iki növ inteqrasiya nəzərə alınır:

● Fəndaxili

● Fənlərarası

Geniş mənada fəndaxili inteqrasiya bu fənnin sinif daxilində olduğu kimi, siniflər arasında ardıcıllığı və səsləşməni nəzərə alaraq, fənnin məzmunu daxilində əlaqəni ifadə edir. Fənnin məzmun xətləri arasında əlaqə bütün aspektlərdə təzahür edir və bir-birini tamamlayır. Nümunə olaraq dinləmə, danışma, oxu və yazının məzmununun inteqrasiyasını göstərmək olar. Fəndaxili inteqrasiyanın nəzərə alınması və tətbiqi şagirdlərdə müəyyən zaman müddətində kommunikativ fəaliyyət növlərinin inkişafının tam və bütöv əsasını qoyur.

Ümumi təhsil pilləsində xarici dilin tədrisinin məqsədi əlçatan şifahi və yazılı nitq bacarıqlarının formalaşdırılması kimi müəyyən edilir.

Məsələn, şagirdlər oxuduqları mətni danışarkən bu bacarığın iki məzmun standartı ilə uyğunluğunu müşahidə etmək olur. Məsələn: "Şagird səsli poçt yazısını dinləyir və yazılı cavab verir", – bu tapşırıqda aşağıdakı altstandartlar nəzərə alınır:

- 11-1.4.3. (müzakirə ilə razılaşıb və ya razılaşmamanın dərk edilməsi);
- 11-4.2.4 (mesaj mətninin yazılması);
- 11-4.3.1. (informasiyanın dəqiq və tam verilməsi).

İkinci nümunədə: "Şagirdlər hekayə oxuyurlar və sonra müəllimin tapşırığı ilə mətnin məzmununa uyğun sualları bir-birlərinə verirlər", - bu, aşağıdakı altstandartları əhatə edəcəkdir:

- 8-3.2.3. Bədii mətnlərin məğzini, əsas ideyasını və aparıcı ideyalarının dərki;
- 8-2.4.1. Suallar vermək;
- 8-2.4.2. Sualları cavablandırmaq.

Beləliklə, şagirdlər dərslərdə yazılı və şifahi nitq vasitəsilə dinlədiklərini və oxuduqlarını anladıqlarını nümayiş etdirirlər ki, bu da reseptiv və ekspressiv ünsiyyət bacarıqlarının inteqrasiyasına gətirib çıxarır.

Fənlərarası inteqrasiya müxtəlif fənlər arasında əlaqəni nəzərdə tutur. Adətən, xarici dil fənninin digər fənlərlə inteqrasiyasının təmin edilməsi zəruri hesab edilən ümumi bacarıqların və səriştənin əldə edilməsi üçün geniş imkanlar yaradır. Akademik məzmunu oxu və dinləmə mətni kimi vermək, həmçinin şifahi və yazılı tapşırıqlar verməklə buna nail olmaq mümkündür.

İnteqrasiyanı aşağıdakı nümunələrlə aparmaq olar:

• Audio və videoyazı vasitəsilə şagirdlər musiqi dərslərində birgə mahnı oxuyurlar;
• Sinif komandalarının öyrənilməsi zamanı idman dərslərindən bəhs edirlər;
• Riyaziyyat dərsləri üçün ədədlərdən danışırlar;
• Təbiət dərsləri üçün rənglər, heyvanlar və bitkilərdən danışırlar;
• Azərbaycan tarixi haqqında oxuyur, dinləyir, danışır və yazırlar.

## Xarici dil tədrisində şagird nailiyyətlərinin qiymətləndirilməsi vasitələri və meyarları

Şagird nailiyyətlərinin qiymətləndirilməsi təhsil fəaliyyətinin zəruri komponentidir. O, ardıcıl və sistemli olmalıdır, çünki təhsilin keyfiyyətini dəstəkləməyi təmin edir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi şəffaflıq, etibarlılıq, obyektivlik, qarşılıqlı əməkdaşlıq prinsipləri əsasında aparılır.

Qiymətləndirmə tapşırıqları tərtib edilərkən suallar aydın qoyulmalı və onların ölçülən olmasına diqqət yetirilməlidir. Çaşdırıcı suallardan istifadə edilməməlidir. Suallara cavablar yad distraktor və ya yayındırıcı vasitələrlə verilməməli, aşkar və ya gizli yayındırıcı cavablardan çəkinilməlidir.

**Oxu və dinləmə üzrə faktoloji tapşırıqlar**

Oxu və dinləmə tapşırıqlarını yazarkən müəllimlər mətndən asılılığı təmin etməlidirlər, yəni başqa yerdən faktları deyil, mətnə əsasən anlama tələb edən suallar yazmalıdırlar. Əgər şagirdlər suala mətni oxumadan cavab verə bilirlərsə, bu, anlama sualı deyil. Bu səbəbdən, tapşırıqların müstəqilliyini qorumaq vacibdir. Müəllimlər oxşar və ya eyni məzmunu qiymətləndirmək üçün tərtib olunan tapşırıqları təkrarlamaqdan çəkinməlidirlər.

Oxu və ya dinləmə bacarıqlarını qiymətləndirmək üçün bəzi tövsiyələr aşağıda verilmişdir.

• Oxu və ya dinləmə mətninin lüğət təhlili aparılmalı və mətn aşağıdakı şəkildə nəzərdən keçirilməlidir:

- o sinonimlərdən istifadə olunması;
- o mətnə dair izahatların əlavə edilməsi;
- o sözlərin öyrənilən dildə mənasının verilməsi və ya azərbaycan dilində tərcüməsinin əlavə edilməsi.

• Mətni oxumadan suallara cavab verməyin mümkünsüzlüyündən əmin olmaq lazımdır

• Yalnız təfərrüatlara dair suallar yazmadığınızdan əmin olmalısınız — səviyyədən asılı olaraq sizə əsas fikir, kontekstə əsasən lüğət bazası, nəticə çıxarma və s. üzrə suallar lazım ola bilər.

• Dərsdə artıq istifadə edilən oxu və ya dinləmə mətni qiymətləndirmə üçün istifadə edilməməlidir. Bu, şagirdlər üçün yeni olmalıdır.

• Dil qaydalarını qiymətləndirmək üçün oxu və ya dinləmə qiymətləndirmələrindən, eləcə də oxu və ya dinləmə bacarığını qiymətləndirmək üçün qrammatik tapşırıqlardan istifadə edilməməlidir . Müəllimlər bu sahələrin hər birini ayrıca qiymətləndirməlidirlər.

**Çoxseçimli cavabı olan tapşırıqlar**

Qiymətləndirmə tapşırıqlarını növünə görə qruplaşdırmaq faydalıdır. Tapşırıq növləri bunlardır: seçmə cavablar (selected response tasks), məhdud tətbiq (limited production tasks), ixtisar etmə (deletion-based tasks) və geniş tətbiqi tapşırıqlar (extended production tasks).

Çoxseçimli cavabı olan sualları (çoxseçimli (multiple choice), uyğunlaşdırma (matching), doğru-yanlış (true-false) və s.) tərtib edərkən bir neçə ümumi prinsiplər, eləcə də hər bir tapşırıq növünə xas olan bəzi prinsiplər tətbiq olunur. Ümumi prinsiplər bunlardır:

• Cavablar şablon olmamalıdır.

• Bir variantın düzgün, digərlərinin isə düzgün olmadığına əmin olmaq lazımdır.

• Variantlar fərqli olmalı və üst-üstə düşməməlidir.

• İnandırıcı olmayan variantlardan, eləcə də heç kimin inanmayacağı variantlardan çəkinmək lazımdır.

• Cavabı yayındıran variantlara yol vermək olmaz.

• Sualın bütün variantlarında qrammatik qaydalarda və cümlə quruluşunda eyni üslub gözlənilməlidir. Məsələn, ingilis dilində bütün variantlarda ya gerund ("-ing" şəkilçisi olan feil) olmalıdır, ya feillə ifadə olunmalıdır və s. *Qeyd: bu qayda qrammatika suallarında hər zaman tətbiq edilmir.*

• Variantlarda semantik baxımdan lüğət nəzərə alınmalıdır.

• Cümlə uzunluqlarının eyniliyinə diqqət edilməlidir.

Çoxseçimli tapşırıqları tərtib etmək üçün təlimatlar:

• Variantlar oxunaqlı və aydın tərtib edilməlidir; çaşdırıcı elementlərdən istifadə olunmamalıdır.

• Variantlarda oxşarlığa yol verilməməlidir.

• İnkar sözlər istifadə edilməməlidir.

• "Yuxarıdakıların hamısı" və "yuxarıda göstərilənlərin heç biri" ifadələrindən çəkinmək lazımdır.

• "A və B", "A və C", "B və C" və s. seçimlərə yol verilməməlidir.

Test müəllifləri distraktorların kifayət qədər olmasına diqqət yetirməlidirlər (ən azı 2-3 distraktor olmalıdır). Uyğunlaşdırma (matching) tapşırıqları tərtib edilərkən variantlar boşluqlardan daha çox olmalıdır.

Doğru-yanlış suallar, demək olar ki, heç vaxt uğurlu model sayılmır və onları tərtib edərkən çoxsaylı problemlər qarşıya çıxır. "Əsasən doğru və ya yanlış" ("Mostly true or false") və ya "adətən doğru və ya yanlış" ("usually true or false" ) kimi ifadələr qənaətbəxş deyildir.

• İnkardan çəkinmək lazımdır;

• Qeyri-müəyyən, aydın olmayan şərtlərdən, ədədlərdən, ölçülərdən çəkinmək lazımdır;

• Mövzu bir ideya və ya bir konsepsiya ilə məhdudlaşdırılmalıdır.

• Doğru və yanlış cavabların uzunluğunun, təxminən, bərabər olmasına çalışmaq lazımdır.

• Üçseçimli "Doğru-Yanlış-Düzgün cavab yoxdur" ("True-False-Not given") əslində bu, çoxseçimli tapşırıq növüdür.

**İxtisara əsaslanan tapşırıqlar**

İxtisara əsaslanan tapşırıqlar *cloze* testləri ehtiva edir, buraya C-testləri, çoxseçimli və uyğunluq tapşırıqları daxildir. Qeyd etmək vacibdir ki, *cloze* testləri qapalı testlər ilə eyni deyil – bu ikisi tamamilə əlaqəsizdir. *Cloze* testlərinin iki əsas növü var: a) təsadüfi ixtisara salınan sözlər (*N*-ci sözün ixtisarı); b) rasional ixtisara salınan sözlər, müəyyən növ sözlərin (məsələn ön sözlər, isim və s.) ixtisarını nəzərdə tutur.

İxtisara əsaslanan tapşırıqlar üzrə bəzi tövsiyələr aşağıdakıları əhatə edir:

• Kifayət qədər ixtisar olmalıdır.

• İlk bir neçə cümləyə toxunmadan keçmək lazımdır.

• İxtisara mətnin sonundan başlamaq lazımdır.

• İxtisarların mətn daxilində bir-birinə çox yaxın olmasına yol vermək olmaz.

• Rasional ixtisar üçün qaydalar müəyyən edilməlidir, məsələn: sözönü, bağlayıcı və ya artikl (artiklsız (“zero” articles) variantlar üçün boşluqlar daxil edilməlidir) və s.

• Feilin növünə görə, mötərizədə feilin əsas forması yazılmalı və şagirdlərdən feilin düzgün formada yazılması istənilməlidir.

• Daha yüksək səviyyəli testlərin tərtibi zamanı təsadüfi ixtisarlar növündən (random deletion cloze) istifadə edərkən daha çox sayda sözləri və ya elementləri ixtisar etmək tələb olunur. Bu növ tapşırıqları həyata keçirmək o qədər də əlverişli deyil və əksər situasiyalarda əhəmiyyətsiz olur.

**Kiçikhəcmli tətbiqi tapşırıqlar**

- Kiçikhəcmli tətbiqi tapşırıqlar şagirdlərdən, adətən, bir sözdən bir cümləyə qədər qısa həcmli nitq yaratmağı tələb edir. Kiçikhəcmli tətbiqi testlərinin ən çox yayılmış növü qısa cavablı suallardır. Çox vacib prinsiplərdən biri odur ki, əgər müəllim oxuyub anlama bacarığını yoxlayırsa, cavablarda qrammatika, orfoqrafiya, durğu işarələri və ya əl yazısı səhvlərinə görə şagirdin balını aşağı salmamalıdır. Bu sualları tərtib etmək üçün aşağıdakı bəzi mühüm qaydalara riayət olunmalıdır:

• Şagirdlərin yazı qabiliyyətinin səviyyəsi nəzərə alınmalıdır: onlar bu cür tapşırıqları yerinə yetirə bilərlərmi?

• Suallar aydın şəkildə ifadə edilməlidir.

• Hər bir bənd üçün düzgün və nümunə cavabı sonra deyil, *tapşırığı yazarkən* qeyd edilməlidir. Düzgün cavablar mümkün cavabların siyahısına daxil edilməlidir.

**Geniş tətbiqi tapşırıqlar**

Geniş tətbiqi tapşırıqlarda daha uzun cavab, adətən, bir abzasdan ibarət mətn yaxud bir neçə cümlənin (ən azı iki cümlənin) yazılması və danışılması istənilir.

Geniş tətbiqi yazı üçün bəzi ümumi fəaliyyətlərə bir abzasdan ibarət mətn, esse, qeyd, açıqca, elektron məktub və ya mesaj yazılması daxildir. Dərsdə yazının qiymətləndirilməsi müxtəlif yazı tapşırıqlarının bir portfolioda qruplaşdırılmasını da əhatə edə bilər. Bəzi ümumi danışıq tapşırıqlarına müsahibələr (fərdi, cütlərlə və ya qrupla müsahibələr), təqdimatlar, müzakirələr və rollu oyunlar daxildir.

Yazı və nitq qiymətləndirmələrini planlaşdırarkən, adətən, ən yaxşısı dərsdə keçilən praktik fəaliyyətlərin summativ qiymətləndirmələrdə istifadəsini təmin etməkdir. Bu uyğunluğa aid bəzi tövsiyələr aşağıda verilmişdir:

• Dərs yönləndirici və kommunikativ praktik fəaliyyətlər ilə başlanmalıdır– o, şablon kimi istifadə edilməlidir. Tapşırıqlar autentik, yəni real dil istifadəsinə əsaslanmalıdır. Bu tapşırıqlar testdə istifadə olunması üçün dil səviyyəsinə əsasən uyğunlaşdırılmalıdır.

• Rollu oyun ilə bağlı təlimatlar informasiya boşluğunu ehtiva etməlidir, yəni hər bir şagird tərəf müqabilində olmayan bəzi məlumatlara malik olmalıdır və əksinə.

• Təcrübədən keçirdiklərinizi dəyişməməli, yəni həmin qrammatik məqamlardan, tələffüz məqamlarından, yeni lüğət sözlərindən, oxu və dinləmə fəaliyyətlərindən, yazı tipindən və s. istifadə edilməlidir.

• Aşağıda verilənlər dəyişdirilməlidir:
  - Oxu və ya dinləmə: eyni mövzuya aid yeni mətn.
  - Dinləmə və ya danışma: danışanlar və ya situasiyanın detalları dəyişdirilməlidir.

- Dinləmə və ya danışma: Yerinə yetirilən funksiya dəyişdirilməlidir, lakin mövzu və ya situasiya olduğu kimi saxlanılmalıdır.
- Şifahi və yazılı nitq: mövzu dəyişdirilməlidir, lakin eyni qrammatik mənalar istifadə edilməlidir.
- Yazı: şagirdlərə əlaqəli mövzuda yazmaq təklif edilməli və ya yazı tipini saxlamaqla mövzu dəyişdirilməlidir (məsələn, məlumat əldə etmək məqsədilə elektron məktub və ya təsvir xarakterli bir abzasdan ibarət mətn yazmaq).

Danışma və ya yazının qiymətləndirilməsi üçün təlimatlar yazarkən aydın və konkret göstərişlər vermək vacibdir. Şagirdlər nə yazmalı, nə deməli olduqlarını başa düşməlidirlər. Həmçinin şagirdə qiymətləndirmədə hansı meyarlardan istifadə ediləcəyini söyləyin. Bunlar qiymətləndirmə rubriklərindəki kimi meyarlar olmalıdır. (Məsələn, yazı tapşırığı dil qaydaları, lüğət, məzmun və struktur əsasında qiymətləndirilə bilər; nitq tələffüz, dil qaydaları, lüğət və səlislik əsasında qiymətləndirilə bilər.)

Əgər müəllim şagirdlərin öz cavablarında müəyyən konkret qrammatik quruluşu və ya sözü, ifadəni istifadə etməyini istəyirsə, təlimatlar şagirdləri buna sövq etməlidir.

Danışma və ya yazının qiymətləndirmə təlimatlarını yazmaq üçün bəzi əlavə tövsiyələr bunlardır:

• Mövzu və ya situasiyanın şagirdlərə tanış olmasından, onların bu haqda öz ana dillərində danışa və yaza bilmələrindən əmin olmaq lazımdır.

• Şifahi nitqə gəlincə, şagirdləri öz cavablarını oxumaqdan və ya əzbərləməkdən yayındırmaq lazımdır. Bunu etdikləri halda, qiymətləndirmədə diqqətə alınmalıdır.

• Yazıya gəlincə, əmin olmaq lazımdır ki, yazını tipinə görə tərtib etməyi bacarırlar.

• Onlara öz yazılarını nəzərdən keçirmələri üçün kifayət qədər vaxt verilməlidir.

• Bir neçə dərs ərzində şagirdlərə yazdıqları qaralamanın üzərində işləməyi tapşırmaq lazımdır: yazının yekun variantı bölmə üzrə summativ qiymətləndirmə kimi yoxlanılmalıdır.

Bütün sinfin şagrdlərinin danışıq bacarıqlarının məntiqi cəhətdən qiymətləndirilməsi çətin ola bilər. Bunu daha praktik etmək üçün bəzi təkliflər irəli sürülür:

• Keçirilən fərdi müsahibələr şagirdlərin danışıq bacarıqlarını qiymətləndirmək üçün bir o qədər praktik deyildir; cütlərlə və ya kiçik qruplarla nitq fəaliyyətləri (məsələn, rollu oyunlar, məlumat boşluqları, müzakirələr) daha səmərəlidir.

• Danışıq bacarıqlarının qiymətləndirilməsi üçün təqdimatlar (dərs vaxtı və ya öncədən lentə alınmış) yaxşı vasitədir, lakin çox vaxt aparır.

- Bu problemi ortadan qaldırmaq üçün şagirdlər onları evdə telefona (şəraitdən asılı olaraq videoyazı və ya yalnız audioyazı) qeyd edibçarxa müəllimə göndərə bilərlər.
- Müəllimlərin videoyazı və audioyazıları 1.25 və ya 1.5 sürətlə izləmələri, dinləmələri vaxt itkisini azalda bilər. Bu da qiymətləndirmə prosesini daha sürətli edər.

• Şagirdlər audio və ya video yazılarını müəllimə göndərsələr, cütlərlə fəaliyyətlər sinifdənkənar da həyata keçirilə bilər.

• Danışma fəaliyyəti üzrə tapşırıqların istənilən səsyazısında şagirdlər əvvəlcə özlərini təqdim etməlidirlər Bu, tapşırıq növü ilk baxışda sadə görünsə də, şagirdlər tərəfindən tez unudula bilər.

• Yarım ilin və ya ilin sonunda yekun qiymətləndirmələr üçün danışıq portfolioları yaradılmalıdır:

- Şagirdlər müxtəlif şifahi nitq tapşırıqlarını lentə alırlar. Məsələn, onlar hər həftə çıxışlarını dəftərdə qeyd edə bilərlər (təyin olunmuş mövzuda, adətən, cari dərslə bağlı).
- Bu qiymətləndirmə texnikasının çatışmazlığı ondan ibarətdir ki, müəllimlər təqdim olunan çoxsaylı audio faylları idarə etmək üçün bir üsul tapmalıdırlar.

## Xarici dil fənninə dair təlim materiallarının planlaşdırılması üzrə metodiki tövsiyələr

**Dinləmə dərslərinin planlaşdırılması**

Dinləmə dərsləri, dinləmə prosesindən əvvəl, dinləmə vaxtı və dinləmə prosesindən sonrakı fəaliyyətlərin ardıcıllığını ehtiva edir. Oxuda olduğu kimi, dinləmə prosesindən əvvəlki mərhələyə biliklərin yenilənməsi, strategiya təlimi və lüğətin öyrədilməsi daxil ola bilər. Dinləmədə strategiyanın tətbiqi və ya müəyyən sualların cavablarını dinləmək daxil ola bilər. Dinləmədən sonrakı fəaliyyətlərə nitqin məzmunu üzərində işləmək (anlama suallarına cavab vermək, onların müzakirəsi və s.), strategiyadan istifadə üzərində düşünmək və dilyönümlü fəaliyyətlər (adətən, mətnin transkriptindən istifadə etmək) daxildir.

Dinləmə dərslərinin oxu dərslərindən fərqli tərəfi odur ki, dinləmə dərsləri, adətən, bir mətnə bir neçə dəfə qulaq asmağı tələb edir. Daha uzun mətnlər üçün də müxtəlif mərhələlər dərsin müxtəlif məqamlarında birləşdirilə bilər.

**Danışıq dərslərinin planlaşdırılması**

Danışıq dərsləri dil qaydaları və ya söz bazası dərslərinin tərkib hissəsi ola bilər və yaxud mövzu, situasiya, funksiya və ya tapşırığa əsaslana bilər. Bu dərslər hətta danışıq strategiyalarına da hədəflənə bilər (məsələn, kiminsə diqqətini necə çəkməli, söhbətin bitməsi haqqında işarəni necə verməli və ya insan münasib sözü bilməyəndə bunu ona necə izah etməli). Kommunikativ danışıq fəaliyyəti (bəzən də bələdçinin rəhbərliyi altında təcrübə) dinləmə və ya oxudan sonra prosesin tərkib hissəsi kimi xidmət edə bilər. Bu zaman nitq həmçinin TFT modelini izləməlidir.

Danışıq fəaliyyəti ya sürətə, ya da dəqiqliyə xüsusi əhəmiyyət verməlidir. Lakin şagirdlər daha yaxşı ünsiyyət qurmaq üçün hər ikisini inkişaf etdirməlidirlər. Nəzarətedici fəaliyyət dəqiqliyə hədəflənir. Kommunikativ bacarıq isə real ünsiyyətə hədəfləndiyi üçün, dəqiqliyi də diqqətdən kənar qoymamaq şərti ilə, şagirdlər daha çox nitqin sürətinə köklənirlər.

**Tələffüz fəaliyyətinin dərslərdə planlaşdırılması**

TFT-də tələffüz sistemli tədris olunur. Daha doğrusu, dərs tələffüzün müəyyən bir məqamına (hətta bir səsə) və ya iki və ya artıq səsin müqayisəsinə hədəflənir. Tələffüz hadisəsi yalnız sait və samitləri ehtiva etmir, həm də vurğu (heca vurğusu, məntiqi vurğu), cümlənin intonasiya və ritmi, vasitəli nitq məsələlərini də əhatə edir.

Lüğətə daxil olan sözlərin nəzərdən keçirilməsi və onların tələffüz qaydaları söz bazası dərsinin tərkibinə daxildir.

Dərs müddətində tələffüz üzərində iş TFT modeli azacıq dəyişdirilməsi ilə aparıla bilər. Dəyişikliklər mexaniki təkrarla başlayır. Buraya səslərin təzahürü, biri-birindən fərqləndirilməsi və ya müqayisəsi daxildir. Digər bütün fəaliyyətlərin ardıcıllığı (TFT modeli üzrə) olduğu kimi qalır.

Tələffüz üzərində işləyərkən istifadə olunan kommunikativ bacarıqların həyata keçirilməsi, xüsusilə sait və samit səslərin klassifikasiyası çox vaxt dil qaydaları dərslərinə nisbətən daha mürəkkəb olur. Hədəf səslərin istifadə olunduğu adlara, məkanlara köklənmək lazımdır. Məsələn, dərsdə təqdim olunan səslər nəzərə alınaraq şagirdlər iki nəfərin adındakı

ziddiyyət təşkil edən hədəf səsləri müqayisə edirlər. Adlar xəyali və ya qeyri-adi ola bilər, əsas məqsəd odur ki, şagirdlər tələffüz dərsində öyrədilən hədəf səsləri məşq etsinlər.

**Oxu dərslərinin planlaşdırılması**

Bir daha vurğulamaq lazımdır ki, TFT oxu dərsləri üçün uyğun deyildir. Oxu dərsinin təşkili üçün müxtəlif modellər var, lakin ən sadə və ən yaxşısı, yəqin ki, oxudan əvvəl, oxu zamanı və oxudan sonra fəaliyyətlərinin ardıcıllığına riayət etməkdir.

Oxu öncəsi mərhələdə müəllimlər şagirdlərin biliklərini (mətndə hər sözü anlamasalar belə, oxuduqlarını başa düşməyə kömək etmək üçün yuxarıdan aşağıya tətbiqdə istifadə edilən bilik çərçivələri) aktivləşdirməlidirlər. Yəni, onlara mövzu ilə bağlı mövcud biliklərini xatırlatmalı, heç nə bilmirlərsə, müəllim onlara az da olsa, əsas biliklər verməlidir. Bundan əlavə, müəllimlər oxudan əvvəlki mərhələdə yeni lüğət üzrə işi təşkil edirlər. Nəhayət, müəllimlər şagirdlərə mətni oxuyarkən istifadə etməli olduqları strategiyaları öyrədə bilərlər (məsələn, əsas fikrin tapılması və ya tanış olmayan sözün mənasını kontekstdə çıxarılması).

Oxu zamanı şagirdlərə mətni oxumaları ilə birlikdə, bir fəaliyyət də təklif edilir. Bu bir suala cavab tapmaq kimi sadə bir tapşırıq, bir neçə suala cavab vermək və ya mətnin üç əsas məqamını qeyd etmək ola bilər. Əgər şagirdlər strategiyalarla tanış oldularsa, oxu prosesində onları tətbiq etməlidirlər.

Oxudan sonrakı mərhələdə şagirdlər, adətən, mətnin məzmunu üzərində işləyirlər. Bu mərhələdə şagirdlər mətnlə bağlı suallara cavab vermək və ya kiçik qrupda müzakirə etmək kimi fəaliyyətləri həyata keçirə bilər. Əgər şagirdlər strategiyaları öyrənirlərsə, onların uyğunluğunu, növbəti dəfə bu strategiyanı daha səmərəli yerinə yetirmək üçün nə edə biləcəklərini düşünməlidirlər. Sonda müəllim dil yönümlü fəaliyyət də tətbiq edə bilər. Əgər mətndə müəyyən qrammatik quruluşa (yaxud tələffüz məqamına) aid nümunələr varsa, müəllim şagirdlərə həmin nümunələri tapıb onlarla işləməyi tapşırır (məsələn, həmin qrammatik məqamdan istifadə etməyin yollarını müzakirə etmək üçün suallar verməklə).

Oxudan sonrakı mərhələdə müxtəlif kommunikativ bacarıqları məşq etmək lazımdır. Bu zaman hədəf dil qaydaları, tələffüz, lüğət və ya danışıq formaları istifadə edilməlidir.

**Yazı dərslərinin planlaşdırılması**

Yazı dərslərində də müəyyən ardıcıllıq izlənilməlidir. Yazı dərslərinin TFT modeli ilə bəzi oxşar mərhələləri olsa da, fərqləri də vardır. Xüsusilə əgər yazı dil qaydaları ilə birləşdirilirsə, şagirdlərə yeni strukturdan istifadə edərək yazmaq təklif edilir. Bunun üçün əvvəlcə onlara struktur öyrədilməli, sonra isə nəzarətedici və istiqamətləndirici fəaliyyət imkanı yaradılmalıdır. Bundan sonra daha məzmunlu bir yazının yazılması (məsələn, bir abzasdan ibarət mətn, açıqca, mesaj, məktub və ya esse) kommunikativ bacarıq hesab edilə bilər.

Ünsiyyət bacarıqlarının formalaşmasını hədəfləyən kurikulumda yazı işinin təşkilində prosessual yanaşmaya əməl edilməlidir. Bu, yazı təlimatının tətbiqindən qısa müddət sonra xarici dil tədrisində, xüsusən də ingilis dilinin tədrisində dominant yanaşma olmuşdur. Şagirdlər yazı işini planlaşdırmaq, qaralama yazmaq, sonra onu bir neçə dəfə təkmilləşdirməklə yazını tamamlayırlar.

Prosesin birinci mərhələsində, yəni yazıdan əvvəl şagirdlər nə yazacaqlarını planlaşdırırlar. Bura beyin həmləsi, məlumat toplamaq, plan yazmaq və ideyaları müəyyənləşdirmək üçün sərbəst yazı daxildir.

İkinci mərhələdə şagirdlər əvvəlki qeydlərinə əsaslanaraq ilk qaralamalarını yazırlar. Belə yazı proseduru şagird plagiatlarının qarşısını almaq və ya aşkarlamaq üçün əlverişli üsuldur. Məsələn, şagird əvvəlcə itlər haqqında bir abzaslıq qeyd aparırsa, lakin daha sonra ağaclar haqqında mükəmməl bir abzasdan ibarət mətn təqdim edirsə, bu şübhəli hal kimi qiymətləndirilə bilər. Əgər şagirdlərə mövzunu icazəsiz dəyişdirmələri qadağa edilibsə, yazdığı ilk mövzunun qaralamasını dəyişdirib başqa mövzuda yazan şagirdin işi müsbət qiymətləndirilmir.

Üçüncü mərhələ - təshih - yazının məzmununun və strukturunun təkmilləşdirilməsinə istiqamətlənir. Əgər qrammatik xətalar yazını anlamağa mane olmursa, səhvlər nəzərə alınmır. Dəyişikliklər müəllimin şagirdin yazısındakı dil qaydaları, məzmun və ya struktura dair qeydlərinə və şagirdin öz yazısını yenidən nəzərdən keçirməsinə əsasən aparıla bilər.

Dördüncü və son mərhələ redaktədir. Bu mərhələdə şagirdlər öz mətnlərinin dilini təkmilləşdirməyə diqqət yetirirlər. Bu zaman onlar əvvəllər öyrənilən dil qaydalarına, xüsusən də oxuduqları dərsdə əhatə olunanlara diqqət yetirməlidirlər. Bu mərhələdə də düzəlişlər müəllimin rəylərinə, həmyaşıdların qeydlərinə əsasən və ya özlərinin redaktəsi ilə aparılır.

Redaktə zamanı və yazını yenidən nəzərdən keçirərkən – hər dəfə yalnız bir mərhələni təkmilləşdirmək məsləhətdir. Birinci qaralamada şagirdlər əsas fikri təkmilləşdirməyə yönəldilə bilərlər; digərində isə onlar tematik cümlələr, keçid sözləri, feilin zamanlarına və ya xəbər sonluqlarına diqqət edə bilərlər. Yoldaşları ilə məsləhətləşmələr və ya öz yazısında düzəlişlər etmək üçün şagirdlərə nəyə diqqət etmələri barədə aydın təlimatlar verilməlidir. Əks halda, onların diqqəti əsas problemlərə deyil, ikinci dərəcəli məsələlərə yönələ bilər.

Son olaraq, müəyyən bir esse üçün neçə qaralamanın uyğun olduğunu qeyd etmək lazımdır. Bunun üçün hər hansı qayda yoxdur, lakin təxmini təlimatlar vermək mümkündür. Əgər şagirdlər 1-3 cümlə həcmində mətn yazırsa, 2-3 qaralama variantı kifayət edər. Əgər onlar daha uzun bir abzasdan ibarət mətn, esse və ya eyni həcmdə müsahibə yazırlarsa, 3-5 qaralama variantını uyğun hesab etmək olar.

### Dil qaydaları dərslərinin planlaşdırılması

Dil qaydaları dərslərinin planlaşdırılmasında müəllimlər TFT modelini tətbiq etməli və xüsusilə 3-cü sinifdə - şagirdləri A1 səviyyəsinə çatdırmalıdırlar. Bu zaman müəllimin rəhbərliyi ilə yerinə yetirilən tapşırıqlar və kommunikativ bacarıqlar (müzakirə, sual-cavab, müqayisə etmə və s.) nəzərə alınmalıdır.

Dil qaydaları dərsində təqdimat mərhələsi deduktiv formada ola bilər. Bu zaman müəllim qaydanı və ya strukturu izah edir, sonra nümunələr gətirir. Yaxud induktiv təqdimat edir: müəllim qaydaya və struktura uyğun nümunələr gətirir və şagirdlərə qənaət çıxarmağı təklif edir. İnduktiv təqdimat zamanı müəllim qaydalarla bağlı təfərrüatlı izahlar verməməlidir. Qaydaların izahı mənimsəmə səviyyələrindən və qaydaların çətinliyindən asılı olaraq şagirdlərin ana dilində və ya hədəf dildə (və ya qarışıq) verilə bilər.

Dil qaydaları üzrə tapşırıqlar şifahi, yazılı və ya qarışıq ola bilər.

Lüğətin öyrədilməsinə dair tapşırıqlar təkcə müəllimin rəhbərliyi ilə deyil, eləcə də kommunikativ bacarıqlardan istifadə etməklə həyata keçirilməlidir. Söz bazası da təlimin digər istiqamətləri ilə - dinləmə, oxu, yazı və dil qaydaları ilə inteqrasiya edilə bilər; çünki şagirdlər yeni sözləri mənimsəmək üçün TFT mərhələlərini keçməlidirlər. Əgər şagirdlər dərsdə öyrəndikləri sözləri cümlə, mətn və situasiya daxilində istifadə etməzlərsə, real ünsiyyət zamanı yeni sözlərdən istifadə etməkdə çətinlik çəkəcəklər.

**Əlavə A: İngilis dilinin öyrənilməsi üçün lüğət və dil qaydaları standartları**

## VOCABULARY STANDARDS

| Grade | Words from EVP | Words from GSL | Additional (off-list words) | Total new words |
|---|---|---|---|---|
| **1 (pre- A1)** | 50 | 10 | 5 | 65 |
| **2 (pre-A1)** | 60 | 10 | 5 | 75 |
| **3 (pre-A1/A1)** | 75 | 10 | 5 | 90 |
| **4 (A1)** | 95 | 10 | 5 | 110 |
| **5 ( A1)** | 225 | 10 | 15 | 250 |
| **6 ( A1/A2)** | 375 | 10 | 15 | 400 |
| **7 ( A2)** | 425 | 10 | 15 | 450 |
| **8 ( A2)** | 425 | 10 | 15 | 450 |
| **9 ( A2/A2+)** | 480 | 10 | 10 | 500 |
| **10 ( A2+/B1)** | 530 | 10 | 10 | 550 |
| **11 ( B1)** | 540 | 10 | 10 | 560 |

## GRAMMAR STANDARDS

| **Grade 1 (pre-A1)** |
|---|
| **NEW MATERIAL** |
| *To be* (+/-; ?) |
| *Have/has* (+) |
| Imperatives (+/-) |
| Questions (*yes/no; wh-* with *what, where,* and *how;* +) |
| Simple Personal Pronouns (*I, you, he, she, it*) |
| Possessive Adjectives (*my, your*) |
| Articles (*a, an*) |

| |
|---|
| Nouns (singular/plural) |
| Common Adjectives |
| Demonstrative Adjectives (*this, these*) |
| Connecting word *and* |

| Grade 2 (pre-A1) | |
|---|---|
| **REVIEW** | **NEW MATERIAL** |
| *To be* (+/-, ?) | Modals: ability (*can*/*can't*; +/-,?) |
| *Have*/*has* | Common prepositions (*in*, *on*, *at*, *under*) |
| Imperatives (+/-) | |
| Questions (*yes*/*no*; *wh*- with *what*, *where*, and *how*; +) | |
| Personal pronouns (subject) | |
| Possessive adjectives (*my*, *your*, *his*, *her*, *its*) | |
| Articles (*a*, *an*) | Article *the* |
| Nouns (singular/plural) | |
| Common adjectives | |
| Demonstrative adjectives (*this*, *these*) | Demonstrative adjectives (*that*, *those*) |
| Connecting word *and* | |

| Grade 3 (pre-A1/A1) | |
|---|---|
| **REVIEW** | **NEW MATERIAL** |
| To be (+/-, ?) | |
| Imperatives (+/-) | Have/has got (British, +/-, ?) |
| Questions (yes/no and **wh**-; +/-) | There is/There are (+/-; ?) |
| Possessive Adjectives | Prepositional phrases of place & time (in, on, at, under, between, in front of, behind, next to) |
| Articles | Possessives: Use of **'s, s'** |
| Nouns (singular/plural) | |
| Personal pronouns (subject) | |
| Common Adjectives | |
| Demonstrative Adjectives | |
| Modals: ability (can/can/t; +/-,?) | |
| Connecting word *and* | |

| Grade 4 (A1) | |
|---|---|
| **REVIEW** | **NEW MATERIAL** |
| Imperatives (+/-) | Present simple (+/-, ?) |
| Questions (yes/no and **wh**-; +/-) | Adverbs of frequency (always, sometimes, never) |
| There is/There are (+/-; ?) | Have/has (+/-, ?) |

| | |
|---|---|
| Possessive Adjectives | Very basic intensifiers (very, really) |
| Articles | Adjectives (comparative with short adjectives) |
| Nouns (singular/plural) | Nouns (irregular) |
| Personal Pronouns (subject/object) | Verb patterns: to (I'd like + infinitives) |
| Demonstrative Adjectives | |
| Prepositional phrases of time & movement | |
| Possessives: Use of **'s, s'** | |
| Connecting word *and* | Connecting word *then* |

| **Grade 5 (A1)** | |
|---|---|
| **REVIEW** | **NEW MATERIAL** |
| Present simple | Present continuous (+/-,?) |
| Imperatives (+/-) | To be in the past (+/-, ?) |
| Questions (*yes*/*no* and *wh*-; +/-) | Past simple (a limited range of regular and irregular verbs) |
| Personal Pronouns (subject/object) | Future time (*will*, *be going to*; +/-; ?) |
| Possessive adjectives/pronouns | Basic quantifiers (*any, some, a lot of, much, many)* |
| Articles | Modals (*can/could* for requests) |
| Nouns (singular/plural, irregular) | Nouns (countable/uncountable) |
| Adjectives (comparative) | Adjectives (superlative) |
| Demonstrative adjectives | Gerunds (*like*/*hate*/*love* + gerund) |
| Connecting words (*and*, *then*) | Connecting words (*but, because*) |
| Questions (*yes*/*no* and *wh*-; +/-) | |
| Very basic intensifiers (very, really) | |
| Infinitives (*I'd like*/*I want* + infinitive) | |

| **Grade 6 (A1/A2)** | |
|---|---|
| **REVIEW** | **NEW MATERIAL** |
| Present simple | Indefinite pronouns *(-one/-body/-thing)* |
| Present continuous (+/-, ?) | Simple clauses without object (noun phrase + intransitive verb: ***Can you come*** *to my house at 2pm on Saturday?*) |
| *To be* in the past (+/-, ?) | Clauses with a direct object |
| Past simple (a limited range of regular and irregular verbs) | *May* and *can* for possibility |
| Future time (*will*, *be going to*) | Modal *must* in the obligation sense |
| Questions (*yes*/*no* and *wh*-; +/-) | Zero article with uncountable nouns |
| Use of *'s, s'* | *Should* for advice |
| Articles | |
| Nouns (singular/plural, irregular, countable/uncountable) | |

| | |
|---|---|
| Basic quantifiers (e.g., *any, some, a lot of, much, many*) | |
| Modals (*can/could* for requests) | |
| Gerunds (*like*/*hate*/*love* + gerund) | |
| Infinitives (*I'd like*/*I want* + infinitive) | |
| Very basic intensifiers (*very, really*) | |
| Adjectives (comparative, superlative) | |
| Connecting words (*and, then*, *but, because*) | |
| Frequency adverbs (increasing range, e.g., *usually, often*) | |

| **Grade 7 (A2)** | |
|---|---|
| **REVIEW** | **NEW MATERIAL** |
| Past simple (a limited range of regular and irregular verbs) | Clauses with a direct and indirect object |
| Modals *may*, *can* for possibility | Modal *might* for possibility |
| *Should* for advice | Infinitives of purpose |
| Modal *must* in the obligation sense | Verb + infinitive complement |
| | Verb + subordinate clause with or without *that* |
| | Present perfect with *just* and *yet* (with a limited range of regular and irregular verbs) |
| | *Used to* |
| | Past Continuous |
| | Present continuous for future time |
| | Zero conditional, 1st conditional |
| | Common phrasal verbs |
| | Present simple for future use |
| | Past and present participial adjectives (limited range) |
| | Alternative questions |
| | Clauses (subordinate: time) |

| **Grade 8 (A2)** | |
|---|---|
| **REVIEW** | **NEW MATERIAL** |
| Present Perfect (with an increased range of regular and irregular verbs) | Noun + past participial phrase (descriptive phrase introduced by past participle) |
| *Used to* | Pronoun + infinitive (e.g., *something to drink, nothing to see, anyone to talk to*) |
| Past Continuous | Double embedded genitive with (of… (of…)) (e.g., *the beginning of the first week of summer, the top of the mound of snow*) |
| Present continuous for future time | Combining adjectives with *but* |
| Infinitives of purpose | *Have (got) to* in the obligation or necessity sense |

| | |
|---|---|
| Verb + infinitive complement | Adverbs *possibly*, *probably*, *perhaps* |
| Zero conditional. 1st conditional | Simple adverbs of place and time |
| Common phrasal verbs | Simple adverbs of manner |
| Prepositional phrases (place, time and movement) | Simple adverbial phrases of frequency |
| Alternative questions | Adverbial phrases of time, place and frequency, including word order |
| Modal *must* in the obligation sense | Modal *mustn't* in the obligation sense |
| Modals *may* and *might* for possibility | Predicate adjectives with linking verbs (e.g., *be*, *feel*, *look*) |
| Gerunds | |
| Determiners: wider range (e.g., *all, none, not (any), enough, (a) few*) | |
| Basic intensifiers (*quite, so, a bit*) | |

| **Grade 9 (A2/A2+)** | |
|---|---|
| **REVIEW** | **NEW MATERIAL** |
| Present Perfect/Past Simple | Double embedded genitive with *of… –'s* (e.g., *the beginning of the mayor's speech)* |
| Past Continuous | Zero article |
| *Used to* | Determiners: wider range (e.g., *all (the), most, both, none, not (any), enough, (a) few*) |
| Gerunds | Relative clauses starting with *who, which, that* |
| Noun + past participial phrase (descriptive phrase introduced by past participle) | Noun + present participial phrase (descriptive phrase introduced by a present participle) |
| Pronoun + infinitive (e.g., *something to drink, nothing to see, anyone to talk to*) | Infinitives with *expect/like/want* + object (*expect, like*, or *want* + object + infinitive) |
| Zero and 1st conditional | Adjective + infinitive (e.g., *easy to find*) |
| Common phrasal verbs | *Too* + adjective + infinitive (e.g., *too hot to touch*) |
| *Can, could, may, might* for possibility | *The best (that)* + present perfect (e.g., *the best pizza I ever had)* |
| *Must, mustn't, have (got) to* in the obligation sense | *Must not*, *don't have to* in the obligation sense |
| Prepositional phrases (time and movement) | *Rather than* + noun phrase or prepositional phrase |
| Prepositional phrases (place and time) | Comparisons with *fewer* and *less* |
| Broader range of intensifiers such as *too*, *enough* | |
| Modal *may* in the permission sense | |

| Grade 10 (A2+/B1) | |
|---|---|
| **REVIEW** | **NEW MATERIAL** |
| Extended phrasal verbs (turn … down, make … up, switch … on) | Adverbial subordinate clauses with *–ing* that follow the clause to which they are attached (e.g: *He was sitting in an armchair, drinking coffee*.) |
| Intensifiers - wide range such as *extremely*, *much too* | Complex auxiliaries *would rather* and *had better* |
| | Relative clauses with *whose* |
| | Verb + prepositional phrase + subordinate clause with or without *that* (verbs with a PP plus finite complement clause, with or without *that*) |
| | *It* + verb + subordinate clause, with or without *that* (*it* extraposition with finite clauses (e.g., *It is a pity that…*) |
| | Verb + object + verb ending in –ing (gerund clause with subject used as object; e.g., *The teacher heard them talking; I saw him reading a book; She watched the children eating lunch*.) |
| | Verb + object + infinitive (infinitive clause with subject used as object with or without *to*; e.g., *They asked us to help; They helped us (to) clean the kitchen; The teacher reminded the students to study for the test.)* |
| | Comparative and superlative of adverbs |
| | Clauses with *as if/as though* |
| | Adverbial phrases of degree, extent, or probability (e.g., (1) *Our store has increased sales <u>by 20%</u> this year, Sales have increased <u>at double the usual rate</u>*; (2) *The problem has spread <u>throughout the region</u>*; (3) *It will <u>probably</u> rain tonight.*) |
| | Question tags |
| | Past Perfect |
| | Reported speech (range of tenses) |
| | Future Continuous |
| | *Be able to* (including past and future) |
| | Equatives, positive and negative (i.e., *(not) as…as*) |
| | *The same… as* |
| | Future in the past (past tense of *be going to;* e.g., *I was going to be home by 6:00, but traffic was terrible.*) |
| | Passive voice |

| Grade 11 (B1) | |
|---|---|
| **REVIEW** | **NEW MATERIAL** |

| | |
|---|---|
| Question tags | |
| Determiners - Broad range (e.g., *all the, most, both*) | *Wh-* word + noun phrase + verb clauses (i.e., clauses consisting of a *wh*-word + NP + V) used as subject or object |
| Broader range of intensifiers such as *too, enough* | Indirect *wh-* questions |
| Passive voice | Indirect *Wh-* questions with infinitive (e.g., *He explained how to do it*, *I asked what to wear to the party*.) |
| Past perfect | Present perfect continuous |
| Future continuous | 2nd and 3rd conditional |
| *Must*/*have to* in the obligation sense | *Must/have to*/*can't* (for present deduction) |
| *Be able to* (including past and future) | *Ought to* |
| Comparative and superlative of adverbs | *Need to, don't need to, needn't* |